RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 261 (9716) 27 noyabr 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Mötəbər tədbirin möhtəşəm təşkili

44 günlük Zəfərin dördüncü ildönümü qürur və fəxarətlə qeyd edildi.

Vətən müharibəsindəki böyük Zəfərə yaraşan, unikallığı və qeyri-adiliyi ilə diqqətçəkən yeni "Zəfər tağı"nın açılışı oldu.

Zəfərin baş memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyev milli ornamentləri ilə diqqətçəkən, Azərbaycan Ordusunun, qəhrəman əsgər və zabitlərimizin cəsarət və peşədətini özündə ehtiva edən abidənin rəmzi mənalarını da açıqladı.

Bəli, Azərbaycan tarixinin ən parlaq səhifələrindən birinə çevrilən 44 günlük müharibə, hərbi əməliyyatlar nəticəsində otuzillik erməni işğalından sonra ölkəmizin ərazi bütövlüyünün bərpası, dövlət suverenliyinin təmin edilməsi əsrlər boyu nəsillər tərəfindən daim qürur və minnətdarlıqla xatırlanacaq, paytaxt Bakının ən görkəmli yerlərindən birində qoyulan 44 metrlik, 44 sütunlu "Zəfər tağı" daim vüqar və əzəmət saçacaqdır.

Zəfər tədbirləri qurtarar-qurtarmaz ölkəmizdə daha bir nadir və mötəbər tədbirə start verildi.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası öz işinə başladı.

Qlobal tədbirə evsahibliyi edən Bakı on dörd gün ərzində dünyanın diqqət mərkəzində oldu, ümid və etibar məkanına çevrildi.

İrqindən, dinindən və dilindən asılı olmayaraq dünyanın bütün ölkələrindən Azərbaycan paytaxtına gələn qonaqlar hər bir insanın həyatı, normal yaşayışı, bu günü və sabahı ilə bağlı narahatedici, düşündürücü məsələlər barədə fikir mübadiləsi apardılar, ekoloji fəlakətlərin qarşısının irəlicədən alınmasından ötrü mülahizə və təkliflərini söylədilər, deyilənlərin əməli işə çevrilməsi üçün konkret, real addımlar da atdılar.

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi:

"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.

Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu".

Bu gün sonsuz fəxr və qürurla deyə bilərik ki, Azərbaycan bəşəriyyətin taleyi ilə bağlı ən qlobal tədbiri möhtəşəm bir səviyyədə keçirməklə bu dəfə ictimai-siyasi sahədə ikinci zəfərə imza atdı!

Əslində, COP29 həm də Azərbaycanın dünyaya yenidən qalib, dünya siyasətində aparıcı dövlətlərdən birinə çevrilərək dünya iqtisadiyyatının inkişafına dəyərli töhfələr verə bilən dövlət kimi unikal təqdimatı oldu.

COP29-da aparılan müzakirələr, keçirilən çoxsaylı tədbirlər, baş verən bütün hadisələr barədə bir yazıda söhbət açaraq hər məsələyə toxunmaq mümkünsüzdür.

Odur ki, bəzi vacib məqamlardan bəhs edəcəyik.

→ 4-5

## Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkının adının dəyişdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Yüksək Texnologiyalar Parkı Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkı adlandırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 noyabr 2024-cü il*

## Azərbaycan-ABŞ strateji tərəfdaşlığında yeni səhifə açılır



Donald Tramp artıq faktiki olaraq ABŞ-nin 47-ci Prezidentidir və gələn ilin 20 yanvarında rəsmən səlahiyyətlərinin icrasına başlayacaq.

Bəs D.Trampın prezidentliyinin Azərbaycana nə kimi təsiri ola bilər?

Öncə onu qeyd edək ki, onun əvvəlki idarəçilik dönəmində Azərbaycan ikiəsrlik problemini və 30 illik münaqişəni Zəfərlə həll etdi. İlham Əliyevin tarixi ədaləti bərpa etməsində xarici faktorlar sırasında D.Trampın tutduğu obyektiv mövqeyini də xüsusi qeyd etməliyik.

Çünki hələ 2020-ci ilin may ayında Donald Trampın İlham Əliyevə yazdığı məktubda bildirilirdi ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Bu cümlə 1991-ci ildən - Azərbaycan müstəqillik əldə etdikdən etibarən ABŞ prezidentlərinin ölkəmizin suverenliyi, yəni ərazi bütövlüyü barədə verdiyi ilk və hələ ki, son rəsmi bəyanat idi!

Prezident İlham Əliyevin hələ müharibənin gedişində - 2020-ci ilin 25 oktyabrında ABŞ-nin "Fox News" televiziya kanalına müsahibəsində söylədiyi "Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik" fikirləri həmin dövrdəki gərgin diplomatik situasiyada Ağ Ev rəhbərinin tutduğu ədalətli mövqeyi isbatlayır. "Biz görürük ki, ABŞ-nin mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir. ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin eyni zamanda Prezident Trampın açıq siyasəti burada - Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

→ 2

◆ Milli Məclisin iclasında

## 2025-ci ilin dövlət büdcəsinin layihəsi birinci oxunuşda qəbul edilib

Deputatlar çıxışlarında dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsindən və böyük uğurla başa çatmasından söz açıblar. Bildirilib ki, bəzi qüvvələr və beynəlxalq təşkilatlar COP29-un ölkəmizdə keçirilməsini əngəlləmək üçün əllərindən gələni etsələr də, COP29-u öz siyasi maraqları üçün alət kimi istifadə etməyə çalışsalar da, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz Bakıda dünyanı birləşdirməyə nail oldu. Bütün təxribatlara baxmayaraq, həmçinin maraqların toqquşduğu bir şəraitdə, yəni məsələ ilə bağlı inkişaf etmiş ölkələrlə zəif inkişaf etmiş ölkələrin ciddi fikir ayrılığı yarandığı bir mühitdə Azərbaycan Bakıda iqlim dəyişikliyi ilə mübarizə sahəsində önəmli təşəbbüslərə, mühüm nailiyyətlərə imza atılmasına nail oldu.

Millət vəkilləri Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasını iqlim diplomatiyasında dönüş nöqtəsi kimi dəyərləndiriblər, COP29-un iqlim dəyişikliyi ilə mübarizə sahəsində tarixi uğurların əldə edilməsi ilə yadda qaldığını vurğulayıblar.

Daha sonra 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan qanun layihələri barədə danışan deputatlar layihələrin qanunvericiliyin tələblərinə uyğun tərtib edildiyini bildiriblər, gələn ilin dövlət büdcəsində müasir çağırışlara uyğun olaraq müdafiə və milli təhlükəsizlik, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük qayıdışın reallaşdırılması məsələlərinə böyük diqqətin ayrılmasını təqdirlə qarşılayıblar. Onlar büdcə siyasətində iqtisadiyyatın, onun qeyri-neft sektoru, kənd təsərrüfatı kimi sahələrinin inkişafının dəstəklənməsi, əhalinin həssas qruplarının, xüsusən də şəhid ailələrinin və müharibə iştirakçılarının, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini, həmçinin cari illə müqayisədə sosialyönümlü xərclərin, təhsil xərclərinin, səhiyyəyə ayrılan vəsaitin məbləğinin artırılmasını yüksək qiymətləndiriblər.

→ 3

## İnkişaf, rifah, quruculuq büdcəsi

Büdcə gəlirlərimiz 38,3 milyard manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 5,3 faiz çoxdur. Xərclər isə 41,4 milyard manat olmaqla, cari ilin proqnozu ilə müqayisədə 4,1 faiz çox planlaşdırılır. Büdcə kəsirinin 3052 milyon manat olacağı gözlənilir. Bu isə ÜDM-in 2,4 faizini təşkil edir. Dövlət büdcəsi gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaqdır.

2025-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 15,5 milyard manatı Dövlət Vergi Xidmətinin, 14,5 milyard manatı Dövlət Neft Fondundan transfertin, 6,6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840,0 milyon manatı büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 895,0 milyon manatı digər gəlirlərin payına düşür.

→ 6






## 33 ildən sonra dalğalanan bayraq

### Qazaxın azad edilən 4 kəndində yaradılan sərhəd zastavaları ölkəmizin etibarlı müdafiə halqasıdır

Vətən müharibəsindəki Şanlı Zəfərimizdən sonra yaranan yeni reallıqlardan biri də ölkəmizin sərhəd toxunulmazlığının təminatıdır.

Prezident İlham Əliyevin yeni dövr üçün müəyyənləşdirdiyi inkişaf konsepsiyasında ən başlıca məqamlardan biri sərhədlərimizin qorunmasıdır. Çünki Azərbaycanın Qələbəsini həzm edə bilməyən, uğurlarına sevinməyən dairələr ölkəmizin daxilində öz çirkin ssenarilərini həyata keçirmək və sabitliyi pozmaq üçün bütün vasitələrə əl atırlar.

Hətta bunu Azərbaycanın uğurla evsahibliyi etdiyi COP29 ərəfəsində nə qədər gerçəkləşdirməyə çalışsalar da, bütün planlar bumeranq effekti verdi. Dünya bir daha Azərbaycanın nəyə qadir olduğunu gördü.

Prezident İlham Əliyev bütün çıxışlarında suverenliyini tam təmin etmiş Azərbaycanın sərhədlərinin toxunulmazlığı məsələsinə xüsusi olaraq diqqət çəkir və bununla bağlı çox ciddi tapşırıqlarını verir. Ölkəmizin sərhədləri elə qorunmalıdır ki, ən kiçik təhlükə belə yaşanmasın. Məhz bu səbəbdən də Azərbaycan sərhədlərinin mühafizəsini təşkil edən Dövlət Sərhəd Xidmətinin üzərinə böyük məsuliyyət düşür.

→ 7



# Azərbaycan-ABŞ strateji tərəfdaşlığında yeni səhifə açılır

Prezident İlham Əliyev noyabrın 25-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa zəng vuraraq onu yenidən dövlət başçısı seçilməsi münasibətilə təbrik edib. İlham Əliyev seçkilərdə inamlı qələbənin Amerika xalqının Donald Trampın yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsi olduğunu vurğulayıb. Azərbaycan Prezidenti qeyd edib ki, Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq.

Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlət başçısı ikitərəfli əlaqələrin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirib. Prezident Donald Tramp isə öz növbəsində səmimi təbriklərə görə İlham Əliyevə dərin təşəkkürünü bildirərək ölkələrimiz arasında əməkdaşlığın inkişafı məqsədilə birgə səylərlə çalışmağın vacibliyini qeyd edib.

Ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş Azərbaycan son illərdə dünyanın bütün demokratik dövlətləri ilə qarşılıqlı əməkdaşlıq, strateji tərəfdaşlıq münasibətlərini genişləndirməkdə davam edir. O cümlədən planetin super gücü olan Amerika Birləşmiş Ştatları ilə qarşılıqlı inam və etimad əsasında əməkdaşlıq həyata keçirir. Lakin İkinci Qarabağ müharibəsindəki şanlı Zəfərdən sonra hazırkı Ağ Ev rəhbərliyi, xüsusən də Dövlət Departamenti, onun təsiri altında olan bəzi Qərb dairələri Azərbaycana qarşı köhnə ssenarilərini işə salmışdılar. Hətta Azərbaycanın uğurla evsahibliyi etdiyi COP29 Sammiti öncəsi də çirkin kampaniyalarını davam etdirirdilər. Amma dünya bir daha Azərbaycan həqiqətlərinə, Cənubi Qafqazın lider dövlətinin nəyə qadir olduğuna şahidlik etdi.

Azərbaycan ABŞ münasibətlərinə gəlincə, iki dövlət arasında tərəfdaşlığın 32 ildən artıq tarixi vardır. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmətə əsaslanan enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. İki ölkə arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. Belə ki, ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb, diplomatik münasibətlər isə 28 fevral 1992-ci ildə qurulub. Azərbaycanın ABŞ-də səfirliyi 6 mart 1992-ci ildən, ABŞ-nin Azərbaycanda səfirliyi isə 16 mart 1992-ci ildən fəaliyyət göstərir.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında 90-a yaxın sənəd imzalanıb və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılıb. Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupu 1997-ci ildən fəaliyyət göstərir.

Donald Trampın Amerika xalqından etimad mandatı alaraq yenidən prezident seçilməsi isə ABŞ-Azərbaycan münasibətlərinin daha da yüksəlişini təmin edəcək.

Donald Tramp artıq faktiki olaraq ABŞ-nin 47-ci Prezidentidir və gələn ilin 20 yanvarında rəsmən səlahiyyətlərinin icrasına başlayacaq.

Bəs D.Trampın prezidentliyinin Azərbaycana nə kimi təsiri ola bilər?

Öncə onu qeyd edək ki, onun əvvəlki idarəçilik dönəmində Azərbaycan ikiəsrlik problemini və 30 illik münaqişəni zəfərlə həll etdi. İlham Əliyevin tarixi ədaləti bərpa etməsində xarici faktorlar sırasında D.Trampın tutduğu obyektiv mövqeyini də xüsusi qeyd etməliyik.

Çünki hələ 2020-ci ilin may ayında Donald Trampın İlham Əliyevə yazdığı məktubda bildirilirdi ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyini və müstəqilliyini güclü şəkildə dəstəkləyir. Bu cümlə 1991-ci ildən - Azərbaycan müstəqillik əldə etdikdən etibarən ABŞ prezidentlərinin ölkəmizin suverenliyi, yəni ərazi bütövlüyü barədə verdiyi ilk və hələ ki, son rəsmi bəyanat idi!

Prezident İlham Əliyevin hələ müharibənin gedişində - 2020-ci ilin 25 oktyabrında ABŞ-nin "Fox News" televiziya kanalına müsahibəsində söylədiyi "Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik" fikirləri həmin dövrdəki gərgin diplomatik situasiyada Ağ Ev rəhbərinin tutduğu ədalətli mövqeyi isbatlayır. "Biz görürük ki, ABŞ-nin mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir. ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin, eyni zamanda Prezident Trampın açıq siyasəti burada - Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir", - deyə Azərbaycan Prezidenti bildirmişdir.

Bu il iyul ayının 20-də İlham Əliyev 2-ci Şuşa Qlobal Media Forumunda çıxışı zamanı ABŞ-də noyabr ayında keçiriləcək seçkilərin nəticəsi ilə bağlı sual ünvanlananda Azərbaycan Prezidenti çox maraqlı cavab vermişdi: "Qərarı Amerika xalqı verəcək. Bu, onların prezidentidir. Lakin, eyni zamanda bu, bütün dünya üçün xüsusi əhəmiyyətə malikdir. Çünki bir çox xalqların və ölkələrin taleyi böyük dərəcədə Birləşmiş Ştatların birinci şəxsinin verəcəyi qərarlardan asılı olacaq. Mənim fikrimcə, Prezident Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də odur ki, onun vaxtında heç bir müharibə olmayacaq. Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər".

İlham Əliyev ABŞ-Azərbaycan əlaqələri ilə bağlı olan suala da cavab verərək demişdi ki, iki ölkə arasındakı əlaqələr, onun görünən tərəfi haqqında danışdıqda Azərbaycanın Respublikaçılar hakimiyyəti ilə daha nəzərəçarpacaq dərəcədə uğurlu və nəticəyönümlü əlaqələri olub.

İlham Əliyev həmçinin ölkəmizin ABŞ-də hansı liderin hakimiyyəti ilə yaxın münasibətdə olması sualını belə cavablandırmışdı: "Siz mənim Amerika liderləri ilə əlaqələrimə, təmaslarıma nəzər salsanız, bu, aydın olar. Eyni zamanda Prezident Trampın prezidentliyi dövründə bizim çox səmərəli əməkdaşlığımız olub. Bu əməkdaşlıq qarşılıqlı hörmət üzərində qurulmuşdur və qarşılıqlı dəstəyin yüksək qiymətləndirilməsindən ibarət idi".

Prezident eyni zamanda qeyd edib ki, Azərbaycanın ABŞ ilə münasibətləri demək olar hər zaman sabit olub.

Göründüyü kimi, Azərbaycanla ABŞ, İlham Əliyevlə D.Tramp arasında münasibətlər səmimi və sıx xarakter daşıyır. Bütün bunlara əsasən deyə bilərik ki, iki ölkənin liderləri arasında olan səmimi münasibətlər Azərbaycan-ABŞ əməkdaşlığında yeni səhifə açacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 497 **QƏRAR** Bakı şəhəri, 25 noyabr 2024-cü il

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 210 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatının və avtomobil yollarının səfərbərlik hazırlığı Qaydaları"nda dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 22 noyabr tarixli 24 nömrəli, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 10 mart tarixli 299 nömrəli və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2008-ci il 4 iyul tarixli 792 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2076 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 210 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 800 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatının və avtomobil yollarının səfərbərlik hazırlığı Qaydaları"nda dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ ADMİNİSTRASİYASININ VƏTƏNDAŞ QƏBULU MƏRKƏZİNDƏ

### 2024-cü ilin dekabr ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 6,13,23 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 6,20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 18 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 19 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 23 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 24 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 25 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 27 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 27 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

## Azərbaycanın NATO-nun Tərəfdaşlıq proqramına qoşulmasının 30 illiyi ilə bağlı konfrans keçirilib

Noyabrın 26-da Bakı şəhərində Azərbaycanın NATO-nun Sülh naminə Tərəfdaşlıq (SNT) proqramının Çərçivə Sənədinə qoşulmasının 30 illiyinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.





AZƏRTAC xəbər verir ki, tədbir zamanı ölkəmizin Alyansla tərəfdaşlığının tarixi, hazırkı vəziyyəti və perspektivləri, SNT proqramının nailiyyətləri, ölkəmizin NATO-nun rəhbərlik etdiyi sülhə dəstək əməliyyatlarına və Avropa regionunda enerji təhlükəsizliyinin təmin olunmasına töhfəsi və Azərbaycanın NATO ilə tərəfdaşlığından irəli gələn digər mövzular ətrafında fikir mübadiləsi aparılıb. Konfransda Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hərbi-siyasi məsələlər idarəsinin rəisi vəzifəsini icra edən Anar Mütəllimov, NATO Baş katibinin əməliyyatlar üzrə müavininin köməkçisi Burcu San, xarici ölkələrdən əlaqədar sahələr üzrə akademik dairələrin üzvləri, təhlilçilər, həmçinin yerli dövlət qurumları və müvafiq təhsil ocaqlarından nümayəndələr iştirak ediblər.

Milli Məclisin iclasında

# 2025-ci ilin dövlət büdcəsinin layihəsi birinci oxunuşda qəbul edilib






**Milli Məclisin noyabrın 26-da keçirilən plenar iclasında 2025-ci ilin dövlət büdcəsi layihəsinin müzakirəsi davam etdirilib. Müzakirələrdə Milli Məclisin komitə sədrləri Anar İsgəndərov, Musa Quliyev, Şahin İsmayılov, Arzu Nağıyev, Səməd Seyidov, komissiya sədri Eldar Quliyev, deputatlar Azər Badamov, İlham Məmmədov, Sevinc Fətəliyeva, Əziz Ələkbərli, Əli Məsimli, Əminə Ağazadə, Vüqar İskəndərov, Soltan Məmmədov, Kamran Bayramov, Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Məlahət İbrahimqızı, Bəxtiyar Əliyev, Nəsib Məhəməliyev, Arzuxan Əli-zadə, Aydın Hüseynov, Hikmət Məmmədov, Elman Nəsirov, Səbinə Xasayeva, Azər Kərimli, Səyyad Salahlı, Bəhruz Məhərrəmov, Samir Vəliyev, Novruzəli Aslanov, Azər Allahverənov, Vasif Qafarov və Sevinc Hüseynova çıxış ediblər.**

Deputatlar çıxışlarında dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un Azərbaycanda yüksək səviyyədə keçirilməsindən və böyük uğurla başa çatmasından söz açıblar. Bildirilib ki, bəzi qüvvələr və beynəlxalq təşkilatlar COP29-un ölkəmizdə keçirilməsini əngəlləmək üçün əllərindən gələni etsələr də, COP29-u öz siyasi maraqları üçün alət kimi istifadə etməyə çalışsalar da, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz Bakıda dünyanı birləşdirməyə nail oldu. Bütün təxribatlara baxmayaraq, həmçinin maraqların toqquşduğu bir şəraitdə, yəni məsələ ilə bağlı inkişaf etmiş ölkələrlə zəif inkişaf etmiş ölkələrin ciddi fikir ayrılığı yarandığı bir mühitdə Azərbaycan Bakıda iqlim dəyişikliyi ilə mübarizə sahəsində önəmli təşəbbüslərə, mühüm nailiyyətlərə imza atılmasına nail oldu.

Deputatlar Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının Bakıda keçirilən 29-cu sessiyasını iqlim diplomatiyasında dönüş nöqtəsi kimi dəyərləndiriblər, COP29-un iqlim dəyişikliyi ilə mübarizə sahəsində tarixi uğurların əldə edilməsi ilə yadda qaldığını vurğulayıblar.

Daha sonra 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan qanun layihələri barədə danışan deputatlar layihələrin qanunvericiliyin tələblərinə uyğun tərtib edildiyini bildiriblər, gələn ilin dövlət büdcəsində müasir çağırışlara uyğun olaraq müdafiə və milli təhlükəsizlik, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük qayıdışın reallaşdırılması məsələlərinə böyük diqqətin ayrılmasını təqdirlə qarşılayıblar. Onlar büdcə siyasətində iqtisadiyyatın, onun qeyri-neft sektoru, kənd təsərrüfatı kimi sahələrinin inkişafının dəstəklənməsi, əhalinin həssas qruplarının, xüsusən də şəhid ailələrinin və müharibə iştirakçılarının, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi tədbirlərini, həmçinin cari illə müqayisədə sosialyönümlü xərclərin, təhsil xərclərinin, səhiyyəyə ayrılan vəsaitin məbləğinin artırılmasını yüksək qiymətləndiriblər.

Deputatlar iqtisadiyyatda və dövlət büdcəsinin gəlirlərində qeyri-neft sektorunun payının artırılmasının əsas hədəflərdən biri kimi qoyulmasını müsbət qarşılayıblar, növbəti ilin büdcəsinin milli maraqlarımıza, qarşıya qoyulan hədəflərə cavab verdiyini vurğulayıblar.

Çıxış edənlər ölkə gündəmində olan vacib məsələlərdən danışıblar, təmsil etdikləri bölgə və rayonlarda seçiciləri narahat edən məsələləri hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Sonra gündəliyin növbəti iki məsələsi - "Dövlət sosial müdafiə fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihələri müzakirəyə təqdim edilib.

"Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, 2025-ci il üzrə Dövlət Sosial Müdafiə Fondunun (DSMF-nin) büdcəsi sosial ədalət və sosial rifah prinsipləri rəhbər tutularaq qanunvericiliyin tələbləri çərçivəsində, ölkəmizin iqtisadi və sosial inkişafına dair proqnozlar nəzərə alınmaqla hazırlanıb.

Fondun 2025-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 7 milyard 676 milyon manat proqnozlaşdırılır ki, bu, cari ilin büdcəsinə nisbətən 726,6 milyon manat və ya 10,5 faiz çoxdur.

2025-ci ildə fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait 1 milyard 600 milyon manat proqnozlaşdırılır ki, bu da 2024-cü il üzrə təsdiqlənmiş transfert məbləğindən 368 milyon manat çoxdur. Transfertin həcmindəki görünən artım 2024-cü ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərindən 387 mln manatın dövlət büdcəsinə yönəldilməsi ilə bağlıdır.

DSMF-nin xərcləri ilə bağlı qeyd edilib ki, fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,5 faizini əhaliyə ödənişlər təşkil edəcək. Əmək pensiyalarının orta aylıq məbləğinin cari ilin sonuna 494 manat, gələn ildə isə 535 manat olacağı proqnozlaşdırılır. Növbəti ildə yaşa görə pensiyanın orta aylıq məbləğinin cari ildəki 527 manatdan 44 manat artaraq 571 manata yüksəldilməsi gözlənilir.

2025-ci ildə məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına, 3 yaşınadək uşaqlara qulluğa görə və dəfn üçün müavinətlərin maliyyələşdirilməsinə 198,4 milyon manat vəsait nəzərdə tutulub ki, bu da cari ilin təsdiqlənmiş proqnozuna nisbətən 9,3 faiz, yaxud 16,8 milyon manat çoxdur.

Fond tərəfindən investisiya fəaliyyəti dövründə ümumilikdə 67,18 milyon manat gəlir əldə edilmiş və 2025-ci ilin sonuna qədər əlavə olaraq 15,82 milyon manat gəlir əldə olunması gözlənilir. Fondun investisiya gəlirləri şəhid ailələrinin, müharibə əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması və sair istiqamətlərdə sərf edilir.

Musa Quliyev DSMF-nin fəaliyyəti üzrə iqtisadi fəallığın daha da artırılması, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarımıza xidmətlərin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi ilə bağlı da Milli Məclisin Əmək və sosial siyasət komitəsinin təkliflərini səsləndirib.

Sonra "İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verən komitə sədri diqqətə çatdırıb ki, 2025-ci ildə fondun gəlirləri və xərcləri bərabər olmaqla 260 milyon 700 min manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 9,5 faiz çoxdur.

İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 206,3 milyon manatı, yaxud 79,1 faizi işsizlikdən sığorta haqları üzrə yığım hesabına formalaşacaq ki, bu da 2024-cü ilin təsdiq edilmiş müvafiq göstəricisindən 11,7 faiz çoxdur. Sığorta haqları üzrə yığımın 75,9 faizi qeyri-büdcə sektorunun payına düşəcək.

Musa Quliyev İşsizlikdən Sığorta Fondunun gələn il üçün xərc istiqamətləri barədə məlumat verib, fondun fəaliyyətinin tənzimlənməsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin təkliflərini səsləndirib.

Komitə sədri Azər Əmiraslanov təqdim olunan qanun layihələri ilə bağlı rəhbərlik etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin müsbət rəyini bildirib.

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında" və "İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında" birinci oxunuşda məlumat verib.

Nazir bildirib ki, Prezident İlham Əliyevin islahatlar proqramına uyğun olaraq, əhalinin sosial müdafiəsi və məşğulluğunun təmin edilməsi ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, əhalinin rifah halının və sosial təminatının artırılması, həyat şəraitinin daha da yüksəldilməsi istiqamətində bir çox layihə icra olunur. Növbəti ilin dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisinin 41 faiz olması, o cümlədən son 5 ildə bu istiqamətdə dövlət büdcəsindən ayrılan vəsaitin həcminin mütləq ifadədə 1,6 dəfə artması deyilənləri əyani sübut edir.

Nazir diqqətə çatdırıb ki, fondun 2025-ci il üçün gəlirlərinin 78 faizinin və ya 6 milyard manatının məcburi dövlət sosial sığorta (MDSS) daxilolmaları üzrə formalaşacağı proqnozlaşdırılır. Bu isə cari ilin müvafiq göstəricisindən 519 milyon manat və ya 9,5 faiz çoxdur.

Büdcədən maliyyələşən təşkilatlar üzrə 2025-ci il üçün daxilolmalar 2 milyard manat, qeyri-büdcə təşkilatları üzrə isə 4 milyard manat proqnozlaşdırılır. Qeyri-büdcə sektoru üzrə gəlirlər sosial sığorta haqlarının 66 faizini təşkil edir.

Ümumilikdə 2024-cü ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2025-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 7,1 faiz və ya 135 milyon manat, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 10,8 faiz və ya 385 milyon manat artımla proqnozlaşdırılmışdır.

Qeyd olunub ki, 2018-ci illə müqayisədə əhaliyə ödənişlərin 3 milyard 804 milyon manat artmasına baxmayaraq, 2019-2024-cü illərdə büdcəyə ümumilikdə 1 milyard 153 milyon manat vəsait qaytarılmış, habelə transfertin gəlirlərdə payı 2017-ci illə müqayisədə 38,1 faizdən 2025-ci ildə 20,8 faizə enəcəkdir.

Növbəti ildə fondun xərcləri 7 milyard 676 milyon manat proqnozlaşdırılır.

Fondun 2025-ci il xərclərinin 97 faizi və ya 7 milyard 409 milyon manatı əhaliyə ödənişlərin payına düşür. Bu göstərici 2023-cü illə müqayisədə 1 milyard 521 milyon manat, 2024-cü illə müqayisədə isə 702 milyon manat çoxdur. Bu məbləğin 7 milyard 211 milyon manatı əmək pensiyalarının, 198 milyon manatı isə sosial sığorta hesabına verilən müavinət xərclərindən ibarət olacaqdır.

2025-ci il üzrə əmək pensiyalarının maliyyələşdirilməsi üçün ayrılan vəsait 2024-cü ilin təsdiqlənmiş xərcləri ilə müqayisədə 686 milyon manat və ya 10,5 faiz artımla nəzərə alınmışdır. Növbəti il üçün pensiyaların orta aylıq məbləği 535 manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin sonuna gözlənilən göstəricidən 8,3 faiz çoxdur. Yaşa görə pensiyanın orta aylıq məbləği isə növbəti ildə 571 manat təşkil edəcək. Bu isə cari il üçün yaşa görə pensiyaların ilin sonuna gözlənilən orta aylıq məbləği ilə müqayisədə 8,3 faiz artım deməkdir. Cari ilin sonuna yaşa görə pensiyaların orta məbləği 527,3 manat olaraq gözlənilir.

Pensiya sistemi üzrə əsassız və saxta ödənişlərin aradan qaldırılması nəticəsində 2024-cü ilin 9 ayında indeksasiya əmsalları tətbiq edilmədən 955 milyon manat, indeksasiya tətbiq edildikdə isə 1 milyard 263 milyon manat əsassız xərclərin qarşısı alınmışdır.

Eyni zamanda aparılmış sistemli iş nəticəsində DSMF əleyhinə məhkəmə qərarlarının sayı 94 faiz, yaranan maliyyə öhdəlikləri isə 93 faiz azalmışdır.

Bununla yanaşı, fondun fəaliyyət istiqamətləri üzrə ümumi 84 xidmətdən 79-u elektronlaşdırılmış, 2019-2024-cü illərdə ümumilikdə 830 mindən çox proaktiv elektron təyinat aparılmışdır. Xüsusilə vurğulanmalıdır ki, 2024-cü ildə fond tərəfindən aparılmış yaşa görə pensiyaların proaktiv təyinatlarının payı ümumi təyinatların 89 faizini əhatə etmişdir. Bu isə həmin sayda şəxsin heç bir ünvana yaxınlaşmadan öz sosial hüquqlarını reallaşdırması deməkdir.

Bildirilib ki, fondun cari fəaliyyətində bütün ölkə üzrə maliyyə və mühasibatlıq işinin mərkəzləşməsi nəticəsində maliyyə əməliyyatlarına nəzarət gücləndirilmiş, sosial ödənişlərin məmur-vətəndaş təması olmadan bir mərkəzdən şəffaf və operativ təyinatı tam təşkil olunmuş, ölkə üzrə arxiv işlərinin mərkəzləşdirilməsi həyata keçirilmiş, bütün ölkə üzrə fərdi uçot tam şəkildə mərkəzləşdirilmişdir.

Nazir qeyd edib ki, Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin həyat və sağlamlığına dövlət təminatı verilən şəxslərin dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətləri 2022-ci il yanvarın 1-dən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən icra olunur. Ötən dövr ərzində dövlət icbari şəxsi sığortası üzrə fəaliyyətin fərdi uçot prinsipi üzərindən qurulmasına nail olunmuş, 6,2 min şəxsə proaktiv təyinat aparılmış, 6,4 milyon manat sığorta ehtiyatı formalaşdırılmışdır.

Fondda aparılan islahatlar beynəlxalq mötəbər təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Belə ki, fondda aparılan islahatlar son üç il ərzində beynəlxalq təşkilatlar tərəfindən 50 mükafat və sertifikatla təltif edilib. Təkcə 2024-cü ilin 10 ayı ərzində fond 27 beynəlxalq mükafatla təltif olunub.

"İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında" məlumat verən nazir Sahil Babayev diqqətə çatdırıb ki, 2025-ci ildə İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri balanslaşdırılmaqla 260,7 milyon manat nəzərdə tutulmuşdur ki, bu da cari illə müqayisədə 22,7 milyon manat, yaxud 9,5 faiz çoxdur.

Nazir qeyd edib ki, 2025-ci il üçün təqdim edilən büdcə layihəsində ilk dəfə olaraq fondun gəlir və xərclərinin daxilində Naxçıvan Muxtar Respublikasının İşsizlikdən Sığorta Fondunun vəsaitləri də nəzərə alınıb.

Büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 50 milyon manat, qeyri-büdcə təşkilatları üzrə isə 156 milyon manat proqnozlaşdırılır. Sığorta haqları üzrə yığımın 76 faizi qeyri-büdcə sektorunun payına düşəcəkdir ki, bu da cari ilə nisbətən 17 milyon manat çoxdur.

Ümumilikdə, 2024-cü ilin təsdiq edilmiş göstəriciləri ilə müqayisədə 2025-ci il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə daxilolmalar 10 faiz, qeyri-büdcə sektoru üzrə daxilolmalar isə 12 faiz artımla proqnozlaşdırılmışdır.

Fondun 2025-ci il üçün proqnozlaşdırılan 260,7 milyon manat məbləğində xərclərinin 77 milyon manatı özünüməşğulluq proqramının təşkilinə, 35 milyon manatı peşə hazırlığı və əlavə təhsilin təşkilinə, 17 milyon manatı işsizliyə görə sığorta ödənişlərinə, 1,5 milyon manatı peşəyönümü məsləhət xidmətlərinin göstərilməsinə, 1 milyon manatı peşə standartlarının hazırlanmasına, 4 milyon manatı sosial iş yerlərində əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsinə və 4,5 milyon manatı digər aktiv məşğulluq tədbirlərinə yönəldiləcəkdir.

Fondun 2025-ci il xərclərinin 6,5 faizi və ya 17 milyon manatı işsizliyə görə sığorta ödənişlərinin payına düşür. Bu göstərici 2024-cü illə müqayisədə 2 milyon manat çoxdur.

Nazir qeyd edib ki, Dövlət Məşğulluq Agentliyinin 27 fəaliyyət istiqaməti üzrə avtomatlaşması mümkün olan 22 xidmətindən 16-sı artıq tam elektronlaşdırılmış, digərlərinin də qısa müddət ərzində elektronlaşdırılması istiqamətində işlər görülür.

Məşğulluq xidmətlərinin elektronlaşdırılması nəticəsində Əmək və Məşğulluq altsistemində hazırda 61 min aktiv vakansiya mövcuddur, işsiz və işaxtaranların elektron qeydiyyatı imkanı yaradılmış, elektron fərdi məşğulluq proqramının tərtibatı təmin edilmişdir.

Əmək bazarının inkişafı, işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin edilməsi üçün cari ilin 10 ayında məşğulluq orqanları tərəfindən 137 mindən çox şəxs işlə təmin edilmişdir.

Əsas aktiv məşğulluq tədbirlərindən olan özünüməşğulluq proqramı növbəti ildə də davam etdiriləcək və İSF büdcəsinin əsas hissəsini, təxminən 30 faizini təşkil edəcəkdir. Növbəti ildə nazirlik tərəfindən daha 8 min, Dünya Bankı layihəsi çərçivəsində 1,5 min nəfər olmaqla, ümumilikdə 9,5 min ailənin özünüməşğulluğunun təmin edilməsi nəzərdə tutulur. Proqramın əhatə dairəsinin genişləndirilməsi, vətəndaşlara təqdim edilən zərflərdə çeşid müxtəlifliyinin artırılması məqsədilə 2025-ci ildə 7 yeni zərfin pilot olaraq tətbiq edilməsi nəzərdə tutulur. Əlavə olaraq 4 yeni zərfin yaradılması istiqamətində araşdırmalar davam etdirilir və növbəti ildə tətbiq edilməsi planlaşdırılır.

2030-cu ilə qədər Quba, Masallı, Sabirabad, Şəki, Cəbrayıl rayonlarında müasir avadanlıqlarla təchiz edilmiş yeni peşə hazırlığı mərkəzlərinin tikilməsi nəzərdə tutulmuşdur. 2025-ci ildə Quba Peşə Hazırlığı Mərkəzinin istifadəyə verilməsi, maddi-texniki bazasının müasir standartlara uyğun şəkildə qurulması nəzərdə tutulmuşdur.

İşsiz və işaxtaran şəxslərin peşə hazırlığı və əlavə təhsilinin təşkili üzrə il ərzində 16 mindən çox müdavimin peşə hazırlığına cəlb olunması istiqamətində işlər görülür. 2025-ci ildə bu istiqamətə 35 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulur.

Hazırda 175 ixtisas üzrə peşə hazırlığı kursları təşkil edilir. Mövcud peşə siyahısı əmək bazarının tələbinə uyğun olaraq yenilənir.

2025-ci ildə əmək yarmarkalarının və əmək birjalarının təşkili istiqamətində 500 min manat xərclənməsi nəzərdə tutulur. Bu, ölkədə 110 regional iri əmək yarmarkasının və digər tədbirlərin təşkil olunmasına kifayət edəcəkdir.

Sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün əlavə iş yerlərinin, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi və digər aktiv məşğulluq tədbirlərinin icrası üçün 2025-ci ildə 3 milyon manat xərclənməsi nəzərdə tutulur.

Növbəti ildə də məşğulluq xidmətlərinin rəqəmsallaşdırılması əsas prioritet istiqamətlərdən biri olacaqdır. Belə ki, ölkənin məşğulluq xəritəsi, məşğul şəxslərin ölkə üzrə reyestri, "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya sistemi və səyyar monitorinq altsistemi, elektron əmək birjası və yarmarkası üzrə işlər tamamlanacaqdır.

Nazir qeyd edib ki, Böyük qayıdış üzrə dövlət proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə əhalinin məşğulluq imkanlarının artırılması növbəti ildə də prioritet olaraq qalacaqdır. Hazırkı tarixə işğaldan azad edilmiş ərazilərimizdə məskunlaşmış və iqtisadi fəal olan şəxslərin 80 faizdən çoxunun məşğulluğu təmin edilmiş, digər şəxslərin də məşğulluğunun təmin olunması istiqamətində aktiv işlər aparılır.

Sonra məsələlərin müzakirəsi zamanı çıxış edən komitə sədrləri Siyavuş Novruzov, Fazil Mustafa, deputatlar Azay Quliyev, Vüqar Bayramov, Əli Məsimli, Aydın Mirzəzadə və Sahib Alıyev büdcə zərfinə daxil olan bu qanun layihələri barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini səsləndiriblər.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, məsələlərin müzakirəsi noyabrın 27-də davam etdiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Dünya Bakıda birləşdi
























# Mötəbər tədbirin

## Azərbaycanın yüksələn siyasi nüfuzu və parlaq

*44 günlük Zəfərin dördüncü ildönümü qürur və fəxarətlə qeyd edildi.*

*Vətən müharibəsindəki böyük Zəfərə yaraşan, unikallığı və qeyri-adiliyi ilə diqqətçəkən yeni "Zəfər tağı"nın açılışı oldu.*

**Zəfərin baş memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyev milli ornamentləri ilə diqqətçəkən Azərbaycan Ordusunun, qəhrəman əsgər və zabitlərimizin cəsarət və rəşadətini özündə ehtiva edən abidənin rəmzi mənalarını da açıqladı.**

Bəli, Azərbaycan tarixinin ən parlaq səhifələrindən birinə çevrilən 44 günlük müharibə, hərbi əməliyyatlar nəticəsində otuzillik erməni işğalından sonra ölkəmizin ərazi bütövlüyünün bərpası, dövlət suverenliyinin təmin edilməsi əsrlər boyu nəsillər tərəfindən daim qürur və minnətdarlıqla xatırlanacaq, paytaxt Bakının ən görkəmli yerlərindən birində qoyulan 44 metrlik, 44 sütunlu "Zəfər tağı" daim vüqar və əzəmət saçacaqdır.

*Zəfər tədbirləri qurtarar-qurtarmaz ölkəmizdə daha bir nadir və mötəbər tədbirə start verildi.*

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası öz işinə başladı.**

❖ ❖ ❖

Qlobal tədbirə evsahibliyi edən Bakı 14 gün ərzində dünyanın diqqət mərkəzində oldu, ümid və etibar məkanına çevrildi.

İrqindən, dinindən və dilindən asılı olmayaraq, dünyanın bütün ölkələrindən Azərbaycan paytaxtına gələn qonaqlar hər bir insanın həyatı, normal yaşayışı, bu günü və sabahı ilə bağlı narahatedici, düşündürücü məsələlər barədə fikir mübadiləsi apardılar, ekoloji fəlakətlərin qarşısının irəlicədən alınmasından ötrü mülahizə və təkliflərini söylədilər, deyilənlərin əməli işə çevrilməsi üçün konkret, real addımlar da atdılar.

**Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi:**

*"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etməkdən şərəf duydu.*

*Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək.*

*Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.*

*Genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu".*

**Bu gün sonsuz fəxr və qürurla deyə bilərik ki, Azərbaycan bəşəriyyətin taleyi ilə bağlı ən qlobal tədbiri möhtəşəm bir səviyyədə keçirməklə bu dəfə ictimai-siyasi sahədə ikinci zəfərə imza atdı!**

*Əslində, COP29 həm də Azərbaycanın dünyaya yenidən qalib, dünya siyasətində aparıcı dövlətlərdən birinə çevrilərək dünya iqtisadiyyatının inkişafına dəyərli töhfələr verə bilən dövlət kimi unikal təqdimatı oldu!*

COP29-da aparılan müzakirələr, keçirilən çoxsaylı tədbirlər, baş verən bütün hadisələr barədə bir yazıda söhbət açaraq hər məsələyə toxunmaq mümkünsüzdür.

Odur ki, bəzi vacib məqamlardan bəhs edəcəyik.

❖ ❖ ❖

**Azərbaycan heç zaman bacarmayacağı işi boynuna götürmür!**

**Sözü ilə əməli birdir, daim dediyini edir.**

*Heç zaman da bədxahların və gözü götürməyənlərin yaratdıqları əngəllərdən, hətta düşmənçilik hərəkətlərindən belə qorxub çəkinməyir!*

Ölkəmiz ilk dəfə BTC-nin çəkilişi layihəsini gündəmə gətirəndə deyilənlərin şahidinə çevrildik: ölkə daxilində siyasi qətllər törədildi, kəmərin keçəcəyi ərazilərdə "ekoloqlar"ın "etiraz aksiyaları" təşkil edildi, kredit problemləri yaradıldı...

BTƏ və BTQ transmilli layihələrinin çəkilişinə başlarkən yenə analoji və digər maneələr yaradıldı.

**Həm Ulu Öndər Heydər Əliyev, həm Prezident İlham Əliyev bütün bu əngəl və maneələri müdrikliklə, qətiyyətlə dəf etdilər.**

18 ildən çoxdur ki, BTC uğurla fəaliyyət göstərir və qeyri-ənənəvi marşrutla Azərbaycan nefti dünya bazarına çıxarılır.

Cənubi Qafqaz Boru Kəməri TAP və TANAP-la birləşərək "Cənub qaz dəhlizi"nə çevrilib və bu dəhliz Avropanın 10-dək ölkəsinin qazla təminatında iştirak edir.

Asiya ilə Avropanı birləşdirən və Azərbaycanın açar ölkə olduğu Orta dəhlizin də əhəmiyyəti xüsusən Rusiya-Ukrayna münaqişəsi fonunda sürətlə artır.

Bu layihədə də Azərbaycan mühüm işlər görmüş, əlavə xərclər çəkərək Ələt limanının və BTQ dəmir yolu xəttinin yükdaşıma qabiliyyətini xeyli artırmış, Bakını logistika mərkəzinə çevirmişdir.

Ölkəmiz bütün bu işləri COP29-un keçirilməsini öz üzərinə götürməmişdən əvvəl etmişdir.

*İqlim dəyişmələri ilə bağlı dünyada baş verən ağrılı proseslər, təbii fəlakətlər artıq yubanmadan birlikdə və əlaqəli addımlar atılmasını tələb edir.*

**COP29-un Bakıda keçirilməsilə bağlı təşəbbüs irəli sürməzdən əvvəl Azərbaycan Prezidenti cənab İlham Əliyev iqlim dəyişmələrinin fəsadlarının qarşısının qabaqcadan alınmasına yeni töhfənin hazırlığına başlamışdır.**

Zəfər müharibəsindən sonra barbar ermənilər tərəfindən viran qoyulan ərazilərimizin bərpası və Böyük qayıdış proqramının sürətli icrası zamanı bir sıra mühüm problemlər də həllini tapmaqdadır.

**Qarabağın və Şərqi Zəngəzurun cənnətə çevrilməsi prosesi ilə yanaşı, pozulmuş ekologiyanın sürətli bərpası prosesi də uğurla aparılır:**

- Yeni meşəliklər salınır;
- Bölgədəki su anbarları təmir olunaraq onlara yeni həyat verilir, yeniləri yaradılır;
- Erməni vəhşiliyi səbəbindən uzun illər boyu suvarılmayan yüz min hektarlarla əkin sahələrinin suvarılması üçün zəruri ehtiyatlar yaradılır, Azərbaycan üçün gələcəkdə aktuallaşacaq içməli su probleminin həllinə töhfələr verilir;
- Ən əsası, çoxsaylı yeni su-elektrik stansiyası tikilərək və ermənilərin dağıtdıqları SES-lər yenidən təmir olunaraq müasir avadanlıqlarla təchiz edilməklə bərpaolunan enerjiyə keçidə şərait yaradılır.

*Dövrün tələbindən irəli gələn bu proseslər təkcə Qarabağda və Şərqi Zəngəzurda getmir.*

BƏƏ-nin "Masdar" və digər tanınmış şirkətlərlə sıx əməkdaşlıq quran Azərbaycan Qarabağla yanaşı, Abşeronda, Xəzər dənizində, Naxçıvanda külək və günəş enerjisi istehsalını sürətlə genişləndirir, bu işə milyardlarla dollar vəsait sərf edir.

**Başqa sözlə, COP29 kimi qlobal bir tədbirin keçirilməsini üzərinə götürən Azərbaycan hələ öncədən iqlim dəyişmələrindən yaranan fəsadlardan birinin karbon emissiyaları tullantılarının miqdarının azaldılmasına və yer üzərində orta illik temperaturun artımının qarşısının alınmasına şəxsi töhfəsini də verir.**

❖ ❖ ❖

*COP29 dövründə ölkənin və qonaqların təhlükəsizliyi də etibarlı şəkildə təmin olunmuşdu.*

*Əvvəla,* Ulu Öndər Heydər Əliyevin tarixi qayıdışından sonra ölkədə möhkəm və dönməz sabitlik yaranmış, qanunsuz silahlı dəstələr zərərsizləşdirilmiş, əhalidəki külli miqdarda silah-sursat yığılmışdır.

*İkincisi,* dövlət təhlükəsizliyi xidməti əməkdaşları və Azərbaycan polisi yüksək peşəkarlıqla çalışır, daim vəziyyəti nəzarətdə saxlayırlar.

*Üçüncüsü,* COP29-dan əvvəl və onun keçirildiyi dövrdə quru sərhədləri bağlı saxlandığından düşmən dövlətlərin "sürpriz" planları uğursuzluğa düçar edildi.

*Ən nəhayət,* Azərbaycan xalqı qonaqpərvərdir, mərddir, o heç zaman qonağına pislik etməz, xətər yetirməz, əksinə, belə halların qarşısını almaq üçün dərhal özü zəruri addımlar atar.

**İnsanlar tarixi öz əməlləri ilə, gördükləri işlərlə yazırlar.**

**Azərbaycan yeni tarixini hərb meydanında, tikinti-quruculuq sahəsində, siyasətdə atdığı uğurlu addımlarla, keçirdiyi qlobal tədbirlərlə yazır.**

Möhtəşəm Zəfərdən sonra Azərbaycan dünyanı Qarabağda görünməmiş sürətlə apardığı bərpa və yenidənqurma işləri ilə, yeni yaşayış məntəqələri salmaqla, "yaşıl enerji"yə keçiddə göstərdiyi təşəbbüs və nailiyyətlərlə heyrətləndirməklə davam etdirir.

*Yeni tariximizin daha bir parlaq səhifəsini isə qlobal tədbirin - COP29-un ən yüksək səviyyədə keçirilməsi, ekoloji fəlakətlərin qarşısının alınması üçün görülən əməli tədbirlər, bəşəriyyətin taleyilə bağlı insanları narahat edən məsələlərin çözülməsinə verilən töhfələr təşkil etdi.*

**Tariximizin daha bir qızıl səhifəsini təşkil edən işlər və əməllər gerçəkləşdirildi.**

❖ ❖ ❖

Azərbaycanın daim müstəqil siyasət yürütməsi, milli maraqları ilə bağlı məsələlərdə heç zaman heç kəsə güzəştə getməməsi, dünyanın güclü dövlətləri ilə münasibətlərdə kimsəyə yarınmaması, kiminsə qapısı ağzında duraraq boyun burmaması, kiməsə əl açıb borc dilənməməsi, əksinə, özünü məğrur və qürurlu aparmaqla yanaşı, ondan kömək istəyənlərə mərdliklə əl tutması, bütün problemlərinin həllində yalnız özünə və xalqına güvənməsi çoxlarının xoşuna gəlmir, hətta bəzilərini hiddətləndirirdi.

Ona qarşı atılan riyakar addımlar və göstərilən ədalətsizliklər - Qarabağ probleminin sülh danışıqları yolu ilə həlli imitasiyasını yaradaraq, əslində, onun işğalla barışmağa vadar edilməsi cəhdi, beynəlxalq transmilli layihələrinin reallaşdırılması yolunda süni maneələr yaradaraq əngəllər törədilməsi, beynəlxalq qurum və təşkilatlar, erməni diasporu vasitəsilə maliyyələşdirilən QHT-lər tərəfindən hədəfə alınaraq şər-böhtanlara, qərəzli, hətta düşmənçilik xarakterli hücumlara hədəf edilməsi, əleyhinə sistemli qaydada və bir-birindən iyrənc kampaniyalar təşkil olunaraq gözdən-nüfuzdan salınmasına dayanmadan təşəbbüslər göstərilməsi bu kiçik, amma məğrur və Cənubi Qafqazın ən güclü dövlətini nəinki öz yolundan döndərə bilir, əksinə, daha da qüvvətləndirərək siyasi nüfuzunu və beynəlxalq aləmdəki hörmətini getdikcə artırır.

BAXIN:

- Azərbaycan I Avropa Oyunlarının keçirilməsini öhdəsinə götürür!

*İndiyədək etalona çevrilən təşkilatçılıq nümunəsi yaradır.*

- 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərək 2012-ci il ərzində TŞ-nin iclaslarına rəhbərlik edir.

*Dünyada baş verən ədalətsizliklərə qarşı çıxır, BMT-nin öz tribunasından bu təşkilatda əsaslı islahatların keçirilməsinin vacibliyini bəyan edir, inkişaf etməkdə olan dövlətlərin tapdalanan hüquqlarını açıq şəkildə müdafiə edir, ikili standartları cəsarətlə qırmanclayır.*

- BMT-dən sonra böyüklüyünə görə ikinci təşkilat sayılan Qoşulmama Hərəkatına sədr seçilir.

*Bu təşkilata yeni nəfəs, yeni ruh verir, dünyanı diz üstə qoyan COVID-19 pandemiyası dövründə güclü dövlətlərin acgözlüyü səbəbindən peyvənd ala bilməyən kasıb ölkələrin hüquqlarını qoruyaraq "vaksin millətçiliyi"ni ifşa edir, bu dövlətlərə yardım fondu yaradaraq ilk ianə edənlərdən biri olur.*

**Qoşulmama Hərəkatına ikiillik rəhbərliyi dövründə gördüyü səmərəli və cəsarətli işlərə, verdiyi töhfələrə görə rəhbərlik müddəti daha bir il artırılaraq üç ilə çatdırılır.**

- Rusiyaya qarşı tətbiq etdikləri sanksiyaların girovuna çevrilərək çıxılmaz vəziyyətə düşən Avropa İttifaqı rəhbərliyinin Azərbaycan qazı almaq üçün Bakıya minnətə gəlmələrinə biganə yanaşmayaraq öz imkanları hesabına çəkdiyi "Cənub qaz dəhlizi" vasitəsilə səkkiz Avropa dövlətinə təbii qaz verərək onları çıxılmaz durumdan xilas edir.

*Əvəzində Avropa İttifaqı bizə düşmən kəsilərək əleyhimizə yaramaz kampaniya təşkil edir, AŞPA-dakı deputat qrupumuzun səsvermə hüququnu dondurur.*

- Azərbaycan BMT-nin, ATƏT-in Minsk qrupunun, beynəlxalq qurum və təşkilatların, beynəlxalq hüququn otuz ildə etmədiyi və edə bilmədiyini öz gücü hesabına həyata keçirməklə 44 günlük müharibədə erməni işğalına son qoyaraq ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa edir.

*Otuz ildə bir milyondan çox Azərbaycan vətəndaşının pozulmuş hüquqları barədə ağızlarına su alaraq susanlar, erməni vandallığını və vəhşiliyini, ərazilərimizdə törədilən ekosid, urbisid, kulturosid və soyqırımlarını görməzlikdən gələnlər əsl murdar xislətlərini bir daha ortaya qoyaraq bizi "etnik təmizləmə"də, "süddən çıxmış qaşıq kimi tərtəmiz erməniləri" həbsdə saxlamaqda, "erməni tarixi abidələrini dağıtmaqda" suçlamaq istəyir, ölkəmizə qarşı rəzil və şərəfsiz hücumlar təşkil edirlər.*

COP29
Baku
Azerbaijan

# Dünya Bakıda birləşdi








# möhtəşəm təşkili

## imici növbəti dəfə öz təsdiqini COP29-da tapdı
















**Bütün bunlar azmış kimi, utanıb-qızarmadan Ermənistanı yenidən qisasçılığa kökləyərək Fransa, Hindistan vasitəsilə hücum silahları ilə təchiz edir, Avropa İttifaqı, ABŞ-nin USAİD fondu vasitəsilə maliyyələşdirir, sərhədlərimizdə Avropa İttifaqının casus şəbəkəsini yerləşdirir, birgə təlimlər keçirməklə erməniləri yeni müharibəyə hazırlayırlar.**

*Azərbaycanın hər uğurunu başlarına düşən ağır daş sayanlar ölkəmizin yeni tədbirə evsahibliyi etməsini də qıcıq və qısqanclıqla qarşılayacaqları - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını keçirərkən min hoqqa və şərəfsizliklər törədəcəkləri zərrə qədər də şübhə doğurmurdu.*

**Hər şey gözlədiyimiz kimi də oldu.**

❖ ❖ ❖

*Azərbaycana bəslədikləri kin və qəzəbdən gözləri kor olmuşlar - ABŞ, Fransa, Aİ, Niderland tədbiri boykot etmək yolunu tutdular.*

**Allah ağıllarını başlarından elə almışdı ki, onlar BMT-nin - bir qisminin hətta onun Təhlükəsizlik Şurasının daimi üzvü olduğu təşkilatın tədbirini boykota çağırdıqlarının fərqində belə deyildilər!**

Lakin dünyanın, dünyadakı ağıllı insan və siyasətçilərin Azərbaycana olan hörmət və ehtiramı, habelə artıq iqlim dəyişmələrinin konkret təbii fəlakətlər - sel basmaları, qasırğalar, leysan yağışları, torpaq sürüşmələri, zəlzələlər və onların nəticəsində yaranan məhsul itkiləri şəklində baş verdiyi bir zamanda "boykotçu"lar niyyətlərinə çata bilmədilər.

*Buna baxmayaraq, onlar sonadək murdarlıqlarından əl çəkmədilər, faktiki olaraq Azərbaycana yox, bütün dünya dövlətlərinə, insanlığın sabahına böyük pisliklər etmiş oldular.*

❖ ❖ ❖

2015-ci ilin dekabrında COP21 Parisdə keçirilmiş və 171 ölkə tərəfindən çox mühüm sənəd - Paris Sazişi qəbul olunmuşdu.

*Həmin razılaşmaya görə, 2050-ci ilə qədər atmosferə atılan tullantıların həcmi sıfır səviyyəsinə endirilməli idi.*

*Çox ciddi və gərəkli hədəf idi.*

**Ancaq Trampın ilk prezidentlik dövründə ABŞ həmin razılaşmadan çıxdığını elan etdi.**

**Halbuki ABŞ və onun Avropadakı müttəfiqləri ən çox hava çirkləndirənlərdir.**

**ABŞ sutkada 19,4 milyon barel neft hasil edərək birinci yerdədir.**

**Qaz hasilatında da birincidir.**

**Odur ki, ABŞ iqlim konfranslarında daim qeyri-konstruktiv mövqe tutur.**

*Doğrudur, Bayden prezident seçiləndən sonra ABŞ yenidən razılaşmaya qayıtdı, amma hazırda Tramp da geri qayıdıb.*

**Parisdə həmçinin iqlim dəyişikliyindən ən çox əziyyət çəkən kasıb ölkələrə ziyanlarını ödəmək üçün ildə 400 milyard dollar ödənilməsi istənilmişdi.**

**Lakin 100 milyard dollar həcmində razılığa gəlinsə də, heç həmin vəsait də toplanmadı.**

*Çünki ABŞ və Aİ-yə daxil olan ölkələr öhdəliklərini yerinə yetirmirlər.*

❖ ❖ ❖

**Sazişin digər tələbi dünyada temperaturun orta qlobal istiləşməsini 1,5 dərəcə Selsi səviyyəsində saxlamaqdır.**

**Çünki karbon qazı qlobal istiləşməyə səbəb olur.**

Bu niyyətlə dünya COP-da birləşir.

Lakin maliyyə dəstəyi olmadan inkişaf etməkdə olan ölkələr təmiz enerji mənbəyinə keçid edə, karbon qazı ifrazını azalda bilməzlər!

Odur ki, iştirakçı ölkələr yeni öhdəliklər götürməli və onlara əməl etməlidirlər.

Bu vəsait həm də kasıb ölkələrin iqlim dəyişmələrinin təsirindən qorunmasına kömək edir.

*Kasıb ölkələr maliyyənin 1,1 trilyon dollardan 1,3 trilyon dollarıdək artırılmasını tələb etsələr də, inkişaf etmiş ölkələr bu tələbin 100 milyard dollar səviyyəsində saxlanılmasını təkid edirlər.*

❖ ❖ ❖

Dünya böyük olduğu qədər də kiçikdir.

**İnsanlar müharibələr törətmək, sənaye məhsulları istehsalını artırmaq və bu artım prosesində havaya karbon emissiyaları buraxmaqla planetin ekotarazlığını poza, təbii fəlakətlər üçün "əsaslar" yarada bilirlər.**

Başqalarını öz iradəsinə tabe etdirmək, daha çox qazanaraq sürətlə varlanmaq hərisliyi sonda insanların özünə qarşı çevrilir!

*Qasırğalar, sellər, leysan yağışları, zəlzələ və su basmaları onları ev-eşiklərindən edir, torpaq sürüşmələri və daşqınlar can alır, zəlzələlər bütöv yaşayış məntəqələrini dağıdaraq düzləyir.*

1992-ci ildən başlayaraq BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvesiyasının Tərəflər Konfransı müxtəlif ölkələrdə sessiyalar keçirərək yaranmış vəziyyətin qarşısının alınması, iqlim dəyişmələri fəsadlar törətməsin deyə qabaqlayıcı tədbirlər görülməsi üçün geniş müzakirələr keçirir.

Belə bir mötəbər tədbirin mütəşəkkil qaydada təşkil edilməsi, kreativ müzakirələr keçirilməsi və gərəkli qərarların qəbul olunması bir o qədər də asan başa gələn məsələ deyil.

*Yalnız nüfuzlu, imkanlı, yüksək beynəlxalq tədbirlərin keçirilməsində zəngin təcrübəyə malik dövlətlər belə ağır yükün altına girə və onu sonadək daşıya bilirlər.*

**200 dövlətin dəstəyi ilə Azərbaycan bu məsuliyyəti boynuna götürərək 2024-cü il noyabr 11-dən 24-dək COP29-un möhtəşəm şəkildə baş tutmasına nail oldu.**

Azərbaycan on dörd gün ərzində dünyanı Bakı Olimpiya stadionunda birləşdirdi, müzakirələr təşkil etdi, danışdırdı, dinlədi, səmərəli tədbirlər müəyyənləşdirdi.

İnsanlar fikirlərini bildirdilər, arqument və faktlarını göstərdilər, mübahisə və müzakirə etdilər, bəzən razılaşmadılar, hərdən ortaq məxrəcə gəldilər...

Bütün bunlar mahiyyətcə insanların həyatını qorumağa, sağlam və təhlükəsiz yaşamalarına, həm də dünyanın təhlükəsizliyinə, təbii fəlakətlərdən qorunmasına xidmət edirdi.

*Artıq COP29 tarixə qovuşdu!*

*Həm də bu qlobal tədbirin təşkili, müzakirə olunan məsələlərin çoxluğu və rəngarəngliyi, qəbul olunan qərarların vacibliyi və səmərəliliyi ilə tarixi sessiyaya çevrildi.*

- Azərbaycan bu dəfə də dünyaya öz dəyərli töhfəsini verə bildi.
- Azərbaycan bu dəfə də sülhə, inkişafa, insanların asudə və rahat yaşamalarına xidmət edən zəruri addımlarını atdı.
- Azərbaycan bu dəfə də irqindən, dinindən, dilindən asılı olmayaraq, hamıya xoş və xeyirxah münasibət bəslədiyini ortaya qoydu!

**Bu uğurlu sessiya ilə dünya Azərbaycanı yenidən, daha yaxından tanıdı və bir daha sevdi!**

- Verilən təkliflərin havada qalmaması üçün ciddi tədbirlər də görüldü, ən əsası maliyyə təminatı yaradıldı.
- Dövlətlərin ranqına baxmayaraq, ekologiyaya ağır zərbələr vuranlar isə konkret faktlarla ifşa olundu.
- *COP29-un Azərbaycanda keçirilməsi əleyhinə çıxanların iç üzü də ifşa edildi.*
- "Yaşıl enerji"yə keçidlə bağlı bir sıra müqavilələr imzalandı, əməli addımlar atıldı.

**Azərbaycan İqlim Maliyyə Fondunun yaradılması təşəbbüsü ilə çıxış edərək kiçik ada dövlətlərinin dəstəklənməsinə on milyon ABŞ dolları məbləğində töhfə də verdi.**

**Bütün çətinliklərə və məkrli oyunlara baxmayaraq, artıq tarixə qovuşan COP29 bir sıra uğurları və yenilikləri, xüsusən təşkilati məsələlərdə möhtəşəmliyi ilə yadda qaldı.**

*Yadda qalan həm də nail olunan müsbət nəticələrdir!*

Bu barədə COP29-un plenar iclasında geniş danışıldı.

**Bağlanış plenar iclasında COP29-un yüksək səviyyədə təşkilinə görə Azərbaycana rəsmi şəkildə təşəkkür elan edilməsi barədə qətnamə qəbul olundu.**

Haqqında söhbət açdığımız plenar iclasın gedişindən sitatlar gətirməklə onun səmərəli sayılan nəticələrini bir daha diqqətə təqdim edirik:

- "Plenar iclasda Paris Sazişinin 6-cı maddəsi tam təsdiq olunub".
- "Altıncı maddə iqlimlə bağlı hədəflərə çatmaq məqsədilə əməkdaşlıq edən ölkələr üçün etibarlı və şəffaf karbon bazarları təmin edir".
- "İqlim diplomatiyasında ən mürəkkəb və texniki problemlərdən birinin həlli sayılan 6-cı maddə üzrə razılıq kömür zavodlarının istismardan çıxarılması, külək stansiyalarının qurulması və meşələrin salınmasını əhatə edir. Bu, inkişaf etməkdə olan dünyada yeni investisiya dalğası deməkdir".
- "Altıncı maddə üzrə yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünün təmin edilməsində mühüm rol oynayacaq".
- "Tədbirdə inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən tarixi qərar qəbul olunub".
- "Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğundur".
- "Hazırda fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği 730 milyon ABŞ dollarından artıqdır. Əldə edilən bu nailiyyətlərlə İtki və Zərər Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu, Azərbaycanın COP29 sədrliyinin növbəti uğurudur".
- "Plenar iclasın davamında yeni iqlim hədəfi qəbul olunub. Belə ki, COP29-un əsas prioriteti olan iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfi qəbul olunub".
- "Sənədə əsasən, inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim fəaliyyəti üçün ildə 100 milyard ABŞ dolları məbləğində vəsaitin birgə səfərbər edilməsi məqsədinin 2035-ci ilədək ən azı 300 milyard ABŞ dollarına çatdırılması təmin ediləcək. Bu vəsait dövlət, özəl, habelə çoxtərəfli mənbələr daxil olmaqla bütün mümkün mənbələr hesabına təmin olunacaq".
- "Sonra çıxış edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) icraçı katibi Saymon Stil COP29-da önəmli qərarların qəbul olunduğunu, bununla belə qarşıda xeyli görülməli işlərin dayandığını diqqətə çatdırıb. O, COP29-da iqlim maliyyə hədəfinin 3 dəfə artırılması barədə razılığın əldə edildiyini, bunun iqlim dəyişmələrinin təsirlərinə ən çox məruz qalanlara dəstək üçün önəmli olduğunu deyib. Saymon Stil təxminən 10 il davam edən çətin fəaliyyətdən sonra COP29-da qlobal karbon bazarı barədə razılığın əldə olunmasını yüksək qiymətləndirib".

❖ ❖ ❖

Azərbaycan COP29-a qədər və onun davam etdiyi müddətdə də iqlim dəyişmələri ilə bağlı yaranan fəlakətli problemlərin həllinə öz töhfələrini vermişdir.

*44 günlük Zəfər müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda təkbaşına, heç bir beynəlxalq maliyyə qurumunun köməyi və iştirakı olmadan genişmiqyaslı bərpa və quruculuq işləri apararaq ekoloji fəlakətlərə qarşı mübarizənin vacib elementlərindən sayılan "yaşıl enerji"yə keçidə də şəxsi töhfələrini verməkdədir.*

**Sessiyanın gedişində - noyabrın 13-də "Azərbaycan, Qazaxıstan və Özbəkistan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sayəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalandı.**

**Sazişin daha bir mühüm məqamı ona Səudiyyə Ərəbistanının da qoşulmasıdır.**

*"Yaşıl layihə"lərdə Səudiyyə Ərəbistanının və Birləşmiş Ərəb Əmirliklərinin iştirakı gələcəkdə Qara dəniz kabeli layihəsinin Yaxın Şərq regionunu da əhatə edəcəyindən və Şərq-Qərb enerji dəhlizinin formalaşacağından xəbər verir.*

Bəli, Azərbaycan yüksək səviyyədə COP29-u keçirir, orada səmərəli müzakirələrin aparılmasına və düzgün qərarların çıxarılmasına şərait yaradır, maliyyə vəsaiti toplanmasına nail olur.

Üstəlik, bədxahlarının niyyətlərini puça çıxararaq bəşəriyyətin təhlükəsiz sabahı naminə əlindən gələni əsirgəmir.

Tarixi hadisələr tarixdə qalır!

Azərbaycanın COP29-da etdikləri də, bu sahəyə verdiyi töhfələri də təkcə zəmanəmizin sağlam düşüncəli və xoşniyyətli insanları tərəfindən yüksək qiymətləndirilmir, həm də qızıl səhifələrə çevrilərək dünya tarixinə yazılır.

**Bəxtiyar SADIQOV**

COP29
Baku
Azerbaijan

# İnkişaf, rifah, quruculuq büdcəsi



**"Büdcə sistemi haqqında" qanunun 12-ci maddəsinə uyğun olaraq "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər layihələr Prezident İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunmuşdur.**

## Konstruktiv, səmərəli və işgüzar müzakirələr

Bu həftə Milli Məclisin plenar iclaslarında qanun layihəsinin 1-ci oxunuş üçün geniş müzakirəsi keçirilir. Qeyd edim ki, büdcə qanunvericiliyinə uyğun olaraq, Hesablama Palatasının rəyi də təqdim edilmiş, həmçinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və digər komitələrin iclaslarında müvafiq dövlət orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə qanun layihələri konstruktiv və işgüzar atmosferdə geniş müzakirə olunmuşdur.

Milli Məclisin Sədri Sahibə xanım Qafarovanın təşəbbüsü ilə əsası qoyulmuş ənənənin davamı olaraq büdcə müzakirələrinə parlamentdə təmsil olunan siyasi partiyaların rəhbərləri və təmsilçiləri də dəvət edilmişdir.

Eyni zamanda müzakirəsi aparılan layihə ölkəmizin iqtisadi inkişafına, sosial rifahına və milli maraqlarımıza xidmət edir, növbəti ildə dövlətin funksiyalarının, mühüm strateji və cari vəzifələrin həyata keçirilməsi üçün müvafiq maliyyə təminatı yaradır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq digər komitələrdə aparılmış müzakirələrin də nəticələrini, Hesablama Palatasının rəyini nəzərə almaqla hesab edirik ki, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi büdcə qanunvericiliyinin tələblərinə, ölkənin strateji sənədlərinin müddəalarına cavab verir.

Müzakirəsi aparılan 2025-ci il dövlət büdcəsi layihəsi barədə əsas məqamlara diqqət yetirmək istərdim.

## Hədəfləri reallaşdıracaq etibarlı maliyyə təminatı

2025-ci ilin dövlət büdcəsi layihəsini müzakirə etdiyimiz cari ildə ölkəmizin siyasi həyatı mühüm tarixi hadisələrlə yadda qalmışdır. Bakıda COP29-la bağlı mötəbər beynəlxalq tədbirin keçirilməsi uğurla başa çatmış, ölkəmizin gücünü və qüdrətini, Prezident İlham Əliyevin beynəlxalq müstəvidə nüfuzunu, milli maraqlarımıza əsaslanan qətiyyətli və prinsipial mövqeyini bir daha təsdiq etmişdir.

Dövlət suverenliyimizin tam bərpa edildiyi bir şəraitdə, ölkəmizin bütün ərazisində keçirilmiş builki prezident və parlament seçkiləri xalqımızın iradəsini, Prezident İlham Əliyevə ardıcıl dəstəyini, etimad və inamını bir daha nümayiş etdirmişdir. Hər iki seçkinin nəticələri vahid dövlət siyasətinin bundan sonra da uğurla davam etdirilməsinə təminat vermiş oldu.

Xüsusi olaraq vurğulayım ki, 2025-ci ilin dövlət büdcəsi layihəsi hər şeydən əvvəl möhtərəm Prezidentimizin müəyyən etdiyi strateji vəzifələri və təşəbbüsləri, yeni dövrün çağırışlarını, milli iqtisadiyyatımızın artım və inkişaf meyillərini, milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəfləri aydın bir şəkildə əks etdirir və bunların hər birinin reallaşdırılması üçün maliyyə təminatı yaradır.

Hazırlanması böyük diqqət və məsuliyyət tələb edən, ciddi və əməktutumlu maliyyə sənədi olan büdcə zərfi bir qayda olaraq hökumətin və onun iqtisadi blokunun gərgin əməyi və birgə fəaliyyəti nəticəsində ərsəyə gəlir.

Məlum olduğu kimi, milli iqtisadiyyatımız və dövlət büdcəsi bir qayda olaraq qlobal iqtisadi trendlərin təsirinə məruz qalır. Aparıcı iqtisadiyyatlarda həyata keçirilən sərt monetar siyasət, davam edən geosiyasi münaqişələr fonunda qlobal iqtisadi artım həm 2024-cü, həm də 2025-ci ildə 3,2 faiz proqnozlaşdırılır. Dünya qiymət indekslərinin təhlili qlobal inflyasiya təzyiqlərinin cari ildə olduğu kimi növbəti ildə də azalacağı ehtimalını yaradır. Dünya iqtisadiyyatında artımı stimullaşdıran tədbirlərin həyata keçiriləcəyi gözlənilir.

## ÜDM 124,4 milyard manata çatır

Qeyd olunanları nəzərə alaraq, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın yaratdığı imkanlardan faydalanmalı, qlobal riskləri isə neytrallaşdırmalıdır. Hesab edirik ki, ölkəmiz mümkün konyunktur risklərdən sığortalanmaq üçün müvafiq təhlükəsizlik yastığına malikdir.

Xüsusi olaraq vurğulamaq istərdik ki, qlobal iqtisadiyyatdakı geosiyasi amillərdən doğan qeyri-müəyyənliklər fonunda növbəti ilin dövlət büdcəsi bir sıra makroiqtisadi göstəricilərlə dəstəklənir. Belə ki, ölkənin strateji valyuta ehtiyatları 73 milyard dollar təşkil edir ki, bu da cari ilin sonuna gözlənilən ÜDM-in (124,4 milyard manat və ya 73,2 milyard dollar) həcminə bərabər olmaqla 5,3 milyard dollar təşkil edən birbaşa xarici dövlət borcumuzu təxminən 14 dəfə üstələyir.

Qeyd edək ki, 2024-cü ilin 10 ayında müşahidə olunan müsbət makroiqtisadi meyillər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara görə, növbəti ildə ÜDM 3,5 faiz, qeyri-neft qaz ÜDM-i 4,9 faiz artacaq. ÜDM-də qeyri-neft-qaz sektorunun payının 68 faizdən 71,3 faizə çatacağı gözlənilir. Bu meyil iqtisadiyyatda struktur dəyişikliklərinin davam etməsini göstərir.

Adambaşına ÜDM-in 2025-ci ildə 7412 dollar təşkil edəcəyi proqnozlaşdırılır. Bu isə beynəlxalq təsnifatda Azərbaycanın yuxarı orta gəlirli ölkələr qrupunda öz yerini qoruyub saxlaması və daha da möhkəmləndirməsi deməkdir.

Növbəti il üçün inflyasiyanın səviyyəsi 4,6 faiz proqnozlaşdırılır. Mərkəzi Bankın hədəf diapazonu daxilində olan inflyasiya səviyyəsi bir tərəfdən sabit məzənnə rejimi ilə, digər tərəfdən də adekvat monetar siyasətlə dəstəklənir.

## 2025-ci ilin dövlət büdcəsi layihəsinin əsas parametrləri hansılardır?

Büdcə gəlirlərimiz 38,3 milyard manat proqnozlaşdırılır ki, bu da 2024-cü ilin proqnozu ilə müqayisədə 5,3 faiz çoxdur. Xərclər isə 41,4 milyard manat olmaqla, cari ilin proqnozu ilə müqayisədə 4,1 faiz çox planlaşdırılır. Büdcə kəsirinin 3052 milyon manat olacağı gözlənilir. Bu isə ÜDM-in 2,4 faizini təşkil edir. Dövlət büdcəsi gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaqdır.

2025-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsi gəlirlərinin 15,5 milyard manatı Dövlət Vergi Xidmətinin, 14,5 milyard manatı Dövlət Neft Fondundan transfertin, 6,6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840,0 milyon manatı büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 895,0 milyon manatı digər gəlirlərin payına düşür.

2025-ci ilin dövlət büdcəsi xərclərinin 60,1 faizini cari xərclər, 34,1 faizini əsaslı xərclər, 5,8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir. Cari və əsaslı xərclərin nisbətini sosial rifahla iqtisadi artımın balanslaşdırılması baxımından rasional və məqsədəuyğun hesab edirik. Sadəcə olaraq, cari xərclərin tamamilə, yəni 100 faizinin



qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməsinə nail olmalıyıq. Hazırda bu göstərici 79 faiz təşkil edir.

Ötən illərdə olduğu kimi, 2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaqdır. Sosialyönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. Büdcə zərfinə daxil olan sosial paketin təhlili göstərir ki, şəhid ailələrinin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi sahəsində dövlət siyasəti, onlara dövlətin diqqət və qayğısı növbəti ildə də davam etdiriləcəkdir.

Eyni zamanda çoxşaxəli artımları nəzərdə tutan sosial tədbirlər paketi həyata keçiriləcək. Gələn il minimum əməkhaqqının və minimum pensiyanın artırılması, eyni zamanda sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə, sosial paket 3 milyon insanı əhatə edəcəkdir.

Əhalinin rifahı ilə bağlı dövlət siyasəti özünü büdcənin təkcə sosial deyil, digər xərc istiqamətlərində də büruzə verir. Məsələn, iqtisadi fəaliyyətlə bağlı xərclərdə bir sıra dövlət şirkətlərinə subsidiyaların nəzərdə tutulmasının əsas səbəblərindən biri vətəndaşlara göstərilən bəzi xidmətlərin tariflərinin aşağı həddə saxlanılmasıdır. Dövlətin vətəndaşa dəstəyi və qayğısı əhalinin həssas sosial qrupları üçün ümumi məbləği 591 milyon manatdan çox olan vergi güzəştlərində də ifadə olunur.

## Azərbaycanın 2025-ci il büdcəsi Ermənistanın və Gürcüstanın birlikdə büdcə xərclərinin cəmindən 1,3 dəfə çox olacaq

Ötən illər ərzində ölkəmizdə sosial və iqtisadi siyasətin əlaqələndirilməsi və uzlaşdırılması Prezident İlham Əliyevin müəyyən etdiyi əsas prinsip olaraq uğurlu şəkildə həyata keçirilmişdir.

Bunun nəticəsidir ki, 2003-2023-cü illər ərzində dövlət büdcəsi xərclərinin təxminən 30 dəfə, ÜDM-in real ifadədə 3,6 dəfə, investisiyaların 4,4 dəfə artımı fonunda Azərbaycanda yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,2 faizə, işsizliyin səviyyəsi 9,2 faizdən 5,5 faizə endirilmişdir.

Büdcə layihəsi və müvafiq proqnozlar hazırlanarkən 2022-2026-cı illərdə sosial-iqtisadi İnkişaf Strategiyasında müəyyən edilmiş məqsədlər və hədəflər nəzərə alınmışdır. 2025-ci ilin dövlət büdcəsi layihəsində iqtisadi strategiyanın icrası üçün 2,5 milyard manat vəsait nəzərdə tutulmuşdur. Dövlət büdcəsi iqtisadi strategiyanın reallaşmasına maliyyə təminatı yaratdığı kimi, inanırıq ki, iqtisadi strategiyanın icrası da iqtisadi artıma, investisiya fəallığına töhfə verməklə büdcənin dayanıqlığını dəstəkləyəcəkdir.

Post-müharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti ilin dövlət büdcəsi layihəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulub. Bu vəsait ortamüddətli dövrdə iqtisadi artıma, qeyri-neft iqtisadiyyatının inkişafına, məşğulluğa öz töhfəsini verəcəkdir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, gələn ilin dövlət büdcəsi artım dinamikasına malik olan büdcədir. Təkcə onu qeyd etmək kifayətdir ki, növbəti il üçün proqnozlaşdırılan büdcə xərcləri 2003-cü illə müqayisədə 34 dəfə çoxdur.

Bir daha xatırladaq ki, Vətən müharibəsində təkcə müzəffər ordumuz, qəhrəman əsgərimiz və hərbi texnikamız döyüşmürdü. Düşmənlə döyüşən həm də milli iqtisadiyyatımız, büdcəmiz idi. Bu kontekstdə bəzi müqayisələr aparaq. 2025-ci il üçün gözlənilən büdcə xərclərimiz 24,3 milyard dollar olmaqla Ermənistanın və qonşu Gürcüstanın birlikdə büdcə xərclərinin cəmindən, yəni 18,8 milyard dollardan nə az, nə çox düz 1,3 dəfə çoxdur.

Azərbaycanın növbəti il üzrə proqnozlaşdırılan 19,5 milyard manatlıq və ya 11,5 milyard dollarlıq qeyri-neft büdcəsi də, sosialyönümlü xərclərdən ibarət olan, məbləğcə 16,9 milyard manat və ya təxminən 10 milyard dollar təşkil edən sosial büdcəmiz də Ermənistanın 2025-ci il üçün planlaşdırdığı büdcə gəlirlərini 30-50 faiz üstələyir.

Dövlət Neft Fondunun hətta transfertləri nəzərə alınmasa belə, büdcə gəlirlərimiz artım dinamikasına malikdir. Belə ki, transfertsiz büdcə gəlirləri 2023-cü ildə 23,5 milyard manat, 2024-cü ildə 23,6 milyard manat olduğu halda, 2025-ci ildə 23,8 milyard manat proqnozlaşdırılır.

## Dövlət büdcəsi ilə bağlı bugünkü reallıqlar və çağırışlar nədən ibarətdir?

2025-ci ilin dövlət büdcəsi layihəsini müzakirə etdiyimiz bir vaxtda Azərbaycanın qeyri-standart və unikal bir dövr yaşadığını, dövlətimizin bir çox strateji hədəf və təşəbbüsləri bir arada, paralel olaraq və zaman itirmədən həyata keçirməyə çalışdığını görürük.

Azərbaycan dövləti, fikrimizcə, indiyə kimi icrası eyni vaxtda üst-üstə düşən bu qədər strateji, təxirəsalınmaz və genişmiqyaslı tədbirlərin reallaşdırılması zərurəti ilə üzləşməmişdir.

Bir çox ölkə maliyyə ehtiyaclarının artdığı bir şəraitdə büdcə qaydalarını ya yumşaldır, ya da, ümumiyyətlə, dayandırır. Lakin hökumət bütün maliyyə ehtiyaclarını əsasən öz daxili resursları hesabına qarşılasa da və çoxşaxəli büdcə xərcləmələrinə getsə də, büdcə qaydalarından heç də imtina etmir. Əksinə, ortamüddətli dövr üçün 2 parametrdən ibarət büdcə qaydası tətbiq edilir.

2025-ci ilin dövlət büdcəsi layihəsi tərtib edilərkən neftin qiyməti 70 dollar götürülüb. Təbii ki, neftin qiymətinin qlobal iqtisadi və geosiyasi dəyişikliklərə həssaslığını inkar etmək olmaz. Lakin xatırlatmaq istərdik ki, vaxtilə neftin büdcə qiyməti ayrı-ayrı dövrlərdə 25-50 dollar arasında müxtəlif proqnozlara əsaslanıb. Bununla belə, ötən illər ərzində dövlətimiz, iqtisadiyyatımız və maliyyə sistemimiz stres-testlərdən, ciddi sınaqlardan uğurla çıxmışdır. Hesab edirik ki, yeni çağırışlar fonunda milli iqtisadiyyatımızın istifadə edilməmiş imkanları və resursları hesabına potensial riskləri neytrallaşdırmaq mümkündür.

2025-ci ilin büdcə zərfinə əsasən, Dövlət Neft Fondundan dövlət büdcəsinə ayrılan transfertlər artırılaraq 14,481 milyon manat nəzərdə tutulur. Transfertlərlə bağlı birmənalı qəbul etmədiyimiz bəzi fikirlər səslənməkdədir. Sanki gələcək nəsillərə neft dollarları saxlanılmır və büdcə qaydasından kənarlaşmalara yol verilir. Sadəcə onu vurğulamaq lazımdır ki, hazırda Dövlət Neft Fondunun aktivləri 61,3 milyard dollar təşkil etməklə ölkəmizin güclü maliyyə dayaqlarına malik olduğunu göstərir. Eyni zamanda fond öz əsas missiyasını yerinə yetirməkdə davam edir. Doğrudur, transfertin məbləği 1,7 milyard manat və ya 13,3 faiz artır. Lakin onun dövlət büdcəsi gəlirlərindəki payı 2020-ci ildəki 49,4 faizdən 2025-ci ildə 37,8 faizə kimi azalacaqdır.

Dövlətimiz neft gəlirlərini gələcək üçün qoruyub saxlamaqla yanaşı, həm də sonrakı nəsillərə köklü problemləri, böyük məbləğdə borc yükü olmayan, təhlükəsiz, güclü və dayanıqlı Azərbaycan dövləti miras qoymaq niyyətindədir. Belə bir yanaşma gələcək nəsillər naminə neft gəlirlərinin qorunması ilə dövlətimizin indiki strateji ehtiyaclarının qarşılanması arasında balansı əks etdirir.

## Hərbi xərclər artırılsa da, sosial və infrastruktur xərcləri məhdudlaşdırılmır

Büdcə layihəsində müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə 8,4 milyard manat nəzərdə tutulmuşdur ki, bu da 2024-cü illə müqayisədə 17,8 faiz çoxdur.

Bəri başdan qeyd edək ki, bu cür artımları bir tərəfdən günün reallıqları və ölkəmizin təhlükəsiz gələcəyi diktə edir, digər bir tərəfdən də Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi özünün iqtisadi və hərbi gücü ilə regionda təhlükəsizliyin, sülh və sabitliyin qorunması missiyasını yerinə yetirir.

Reallıq bundan ibarətdir ki, müdafiə xərclərinin artımı ölkəmizin hüdudlarından kənarda bir çoxlarını narahat edir. Bəzi dairələr növbəti haqsızlığı edərək Azərbaycanı indi də militarist büdcə siyasəti həyata keçirməkdə ittiham edirlər. Bu əsassız və qərəzli fikirlərlə bağlı bəzi məqamları qeyd etməyi vacib bilirik.

Müdafiə xərclərinin artırılması öz-özlüyündə ölkənin militarist büdcəyə sahib olduğu anlamına gəlmir. Azərbaycan hərbi xərclərini artırmaqla yanaşı, digər sosial və infrastruktur xərclərini məhdudlaşdırmır. Başqa sözlə, hərbi xərclərin artırılması digər mühüm istiqamətlər üzrə xərc artımı fonunda baş verir. Hərbi xərclər büdcə məxaricinin 20,3 faizini təşkil etdiyi halda, təkcə sosialyönümlü xərclər 41 faizini, iqtisadi fəaliyyətlə bağlı xərclər 21 faizini təşkil edir. Göründüyü kimi, ölkəmizin büdcə xərclərində ən yüksək paya malik olan heç də müdafiə xərcləri deyil.

İqtisadiyyatın və o cümlədən büdcənin hərbiləşdirilməsi meyilləri ara-sıra revanşizm avantürasına yuvarlanan məğlub ölkə üçün daha xarakterikdir. Belə ki, bu ölkədə hərbi xərclər 2022-ci ildə 795 milyon dollar təşkil etdiyi halda, bu rəqəm 2023-cü ildə təxminən 70 faiz artaraq 1330 milyon dollara çatmışdır.

İşsizlik səviyyəsi 12 faizə, yoxsulluq səviyyəsi 24 faizə, xarici borc yükü ÜDM-in 54 faizinə çatan, 15 ildən çoxdur ki, davamlı olaraq kəskin demoqrafik böhran yaşayan, 2025-ci ilin dövlət büdcəsi layihəsində 1,6 milyard dollar həcmində kəsr proqnozlaşdıran Ermənistanda hərbi xərclərin təkcə bir il ərzində 70 faiz kəskin artırılması militarizmin və militarist büdcənin bariz "nümunə"sidir.

Bu gün Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi müasir müdafiə sənayesinin formalaşdırılması ilə tamamlanır. Bu sahənin inkişafını milli sənayenin yeni və perspektivli sütunlarından birinin təşəkkülü kimi qəbul etməliyik.

## 2025-ci ilin dövlət büdcəsi ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin iqtisadi və maliyyə əsaslarını daha da möhkəmləndirəcək

İqtisadi sistemi bazar münasibətlərinə əsaslanan ölkəmizdə sosial rifah, iqtisadi artım, investisiya qoyuluşu təkcə büdcə xərcləri hesabına təmin edilməməlidir. Özəl sektorun sosial-iqtisadi inkişafa töhfəsi daha da artmalı, dövlət-özəl tərəfdaşlığı genişləndirilməlidir.

Qeyd edək ki, özəl sektorun dövlətin güclü tərəfmüqabilinə çevrilməsindən ötrü hər il büdcə zərfinə daxil olan layihələrdə sahibkarlıq fəaliyyəti üçün təşviq və güzəştlər, subsidiyalar nəzərdə tutulur. İnanırıq ki, bu tədbirlər iqtisadi şaxələndirmə prosesinə və yeni iqtisadi artım mənbələrinin aşkar edilməsinə öz töhfəsini verəcəkdir.

Dövlətin funksiyalarının həyata keçirilməsi üçün resurs bazasının yaradılması nə qədər vacibdirsə, bu resurslardan səmərəli və qənaətlə istifadə edilməsi də bir o qədər önəmlidir. Artan maliyyə ehtiyacları və məhdud resurslar şəraitində bu xüsusilə aktualdır.

İndiyə kimi sahibkarlığın dəstəklənməsinə yönəldilmiş dövlət siyasətinin nəticəsidir ki, 2023-cü ildə özəl sektorun payı ÜDM-də və sənaye istehsalında 83 faizə, əhalinin məşğulluğunda 79 faizə, xidmət sektorunda 73 faizə, kənd təsərrüfatında isə 99,8 faizə çatmışdır.

Ümumiləşdirərək xarakterizə etsək, 2025-ci ilin büdcə zərfi əlverişli makroiqtisadi proqnozlara əsaslanır, makroiqtisadi sabitlikdən təsirləndiyi kimi, həm də ona xələl gətirmir, büdcə dayanıqlılığının təmin olunmasından ötrü fiskal və qeyri-fiskal tədbirlər nəzərdə tutur, davamlı iqtisadi artım üçün təşviq və güzəştlər təklif edir.

*İndi qarşımızda dayanan əsas vəzifə ərazi bütövlüyümüzü və dövlət suverenliyimizi xalqımızın milli və müqəddəs sərvəti kimi qorumaqdan, onun iqtisadi və maliyyə əsaslarını möhkəmləndirməkdən ibarətdir. Tam əminliklə deyə bilərik ki, dövlətimizin siyasi, iqtisadi və hərbi gücünü əks etdirən 2025-ci ilin dövlət büdcəsi layihəsi qəbul edildikdən sonra bu missiya da uğurla yerinə yetiriləcəkdir.*

**Azər ƏMİRASLANOV,**
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

◆ Vətən sərhəddən başlayır

# 33 ildən sonra dalğalanan bayraq

## Qazaxın azad edilən 4 kəndində yaradılan sərhəd zastavaları ölkəmizin etibarlı müdafiə halqasıdır

Vətən müharibəsindəki Şanlı Zəfərimizdən sonra yaranan yeni reallıqlardan biri də ölkəmizin sərhəd toxunulmazlığının təminatıdır.

Prezident İlham Əliyevin yeni dövr üçün müəyyənləşdirdiyi inkişaf konsepsiyasında ən başlıca məqamlardan biri sərhədlərimizin qorunmasıdır. Çünki Azərbaycanın qələbəsini həzm edə bilməyən, uğurlarına sevinməyən dairələr ölkəmizin daxilində öz çirkin ssenarilərini həyata keçirmək və sabitliyi pozmaq üçün bütün vasitələrə əl atırlar.

Hətta bunu Azərbaycanın uğurla evsahibliyi etdiyi COP29 ərəfəsində nə qədər gerçəkləşdirməyə çalışsalar da, bütün planlar bumeranq effekti verdi. Dünya bir daha Azərbaycanın nəyə qadir olduğunu gördü.

Prezident İlham Əliyev bütün çıxışlarında suverenliyini tam təmin etmiş Azərbaycanın sərhədlərinin toxunulmazlığı məsələsinə xüsusi olaraq diqqət çəkir və bununla bağlı çox ciddi tapşırıqlarını verir. Ölkəmizin sərhədləri elə qorunmalıdır ki, ən kiçik təhlükə belə yaşanmasın. Məhz bu səbəbdən də Azərbaycan sərhədlərinin mühafizəsini təşkil edən Dövlət Sərhəd Xidmətinin üzərinə böyük məsuliyyət düşür.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Dövlət Sərhəd Xidməti ən müasir hərbi texnika və avadanlıqlarla təmin olunur. Yeni sərhəd zastavaları tikilir, müasir infrastruktur yaradılır, sərhədçilərin peşəkarlığı artırılır, onların müasir qaydalara uyğun fəaliyyəti üçün böyük tədbirlər görülür. Sərhədçilər yaxşı bilirlər ki, sərhəd hər bir dövlətin rəmzidir, müstəqil dövlətin mühüm amillərindən biridir və onlar Müzəffər Ali Baş Komandanın əmrinə uyğun olaraq sərhədlərimizi göz bəbəyi kimi qoruyurlar. Bunun nəticəsidir ki, Azərbaycanda sabitlik var, ictimai-siyasi asayiş hökm sürür.

Bir sözlə, ölkə daxilində təhlükəsizliklə bağlı heç bir problem yoxdur. Kənardan Azərbaycana təxribat məqsədilə gəlmək istəyən qüvvələrin qarşısı alınıb. Ölkə əhalisinin təhlükəsizliyi təmin olunub.












### Ermənistan və Gürcüstanla olan sərhədlərimizin hər bir qarışı termal kameralarla izlənilir

Dövlət Sərhəd Xidmətinin təşkilatçılığı ilə Sərhəd Qoşunları Komandanlığının "Şəmkir" Sərhəd Dəstəsinin və "Qazax" Əlahiddə Sərhəd Diviziyasının xidməti ərazisinə təşkil edilən mediatur zamanı bir daha yuxarıda söylədiyimiz fikirlərə əyani şahidlik etdik.

"Şəmkir" Sərhəd Dəstəsinin fəaliyyəti ilə tanışlıqdan sonra təhlükəsizlik tədbirlərinə riayət etməklə Qazax rayonunun işğaldan azad edilmiş ərazilərinə və şərti dövlət sərhədinə dislokasiya olunan bölmələrdə və sərhəd-döyüş məntəqələrində yaradılan şəraitlə tanış ola bildik. Şəmkirdən yola çıxıb bir neçə dəqiqəyə Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasına yetişdik.

Xatırladaq ki, 2023-cü il avqustun 7-də Prezident İlham Əliyev Qazax rayonuna səfəri çərçivəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" Əlahiddə Sərhəd Diviziyasında yaradılan şəraitlə tanış olmuşdur. 20,5 hektar ərazini əhatə edən hərbi hissə kompleksinə qərargah binası, 5 binadan ibarət 146 mənzilli yaşayış kompleksi, yeməkxana, hamam, camaşırxana və tibb məntəqəsindən ibarət əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları daxildir. Bununla yanaşı, kompleksin ərazisində helikopter meydançası, hərbi texnikaların saxlanması üçün avtomobil parkı, avtomobil yuma və yanacaqdoldurma məntəqələri, silah, ərzaq və əşya-geyim anbarları, içməli su anbarı, qazanxana binası mövcuddur.

Kompleksin idman şəhərciyində hərbi qulluqçuların idmanla məşğul olmaları üçün zəruri avadanlıq quraşdırılıb və voleybol meydançası yaradılıb. İstilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilən kompleksdə ehtiyat generatorlar quraşdırılıb. Ərazidə əsaslı tikinti-abadlıq işləri aparılıb, 23 min kvadratmetr sahə asfaltlanıb, geniş yaşıllıq salınıb, ağaclar əkilib.

Xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.

Burada jurnalistlərə "Qazax" Əlahiddə Sərhəd Diviziyasının xidməti istifadəsinə verilmiş silah arsenalı, döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri nümayiş etdirildi.

Diviziyada yaradılan müşahidə məntəqəsindən isə Qazax rayonu boyu bütün sərhəd zastavalarındakı durumu müşahidə və müxtəlif komandalarla idarə etmək də mümkündür. Müasir standartlara uyğun HTC tipli kameralarla təchiz olunmuş mərkəzdə Ermənistan və Gürcüstanla olan sərhədlərimizin hər bir qarışı diqqətlə izlənilir.

(Əvvəli qəzetimizin 26 noyabr nömrəsində)

### Həyəcan siqnalı - dronlar havaya qalxır, sərhədçilər itlər və atlarla hərəkətə başlayırlar

Diviziyada yaradılan şəraitlə tanışlıqdan sonra bir güllə atılmadan işğaldan azad edilən Qazaxın kəndlərində yaradılan sərhəd xidmətinin fəaliyyəti ilə maraqlanmaq üçün yola düşürük.

Xatırladaq ki, bu ilin mayında Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülən Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb, Dövlət himni oxunub.

Bizim də ilk istiqamətimiz Babəkər yüksəkliyidir. O yüksəklik ki, həm Gürcüstan, həm də Ermənistanla sərhəddir.

Zastavaya çatan kimi komandanlıq tərəfindən həyəcan siqnalı verildi. Şərti sərhəd pozucularının zərərsizləşdirilməsi əməliyyatını müşahidə etdik. Sərhədçilərimiz xüsusi itlər və atlarla hərəkət edərək qısa zamanda sərhəd pozucularını yaxalayırlar. Onlara bu işdə havadan müşahidəçilik edən dronlar da yardım edir.

Məlumat verildi ki, son dövrdə dövlət sərhədini 10-20 kilometr məsafədə həm gecə, həm də gündüz mühafizə edə biləcək müasir kameraların tətbiqinə başlanılıb. Eləcə də sərhəd pozucuları aşkarlanarkən, sərhəd axtarışı həyata keçirilərkən həmin müasir dronlardan istifadə olunur. Həmçinin çətin relyef şəraitində sərhəd naryadlarının rahat hərəkət edə bilmədiyi istiqamətlərdə "KS-205" tipli sistemlər vasitəsilə sərhəd pozucuları aşkarlanaraq dərhal yaxalanır.

Sərhəd pozucularına qarşı silahın tətbiqi son vasitədir. Sərhəd pozucuları dövlət sərhədini qeyri-qanuni pozmağa cəhd göstərdikdə, sərhəd naryadlarına silahlı müqavimət göstərdikdə, eləcə də digər təhlükəli hallarda sərhəd naryadı tərəfindən silah tətbiq olunur.











### Ermənistanla sərhəddə dalğalanan bayrağımız düşmənə gözdağı verir

"Babəkər" Sərhəd Zastavasının fəaliyyəti ilə tanış olduqdan sonra Qazax rayonunun işğaldan azad olunan Xeyrımlı kəndinə yola düşürük.

Bu kənddə DSX-nin Sərhəd Qoşunlarının hərbçiləri xidmət göstərir. Bir neçə metr irəlidə delimitasiya olunmuş Azərbaycan-Ermənistan sərhədi görünür.

Zastavanın xidmət göstərdiyi ərazidə üçrəngli bayrağımız dalğalanır. Buradan qarşı tərəf daim müşahidə altında saxlanılır. Hər hansı bir hərəkətlənmə qeydə alınarsa, dərhal aidiyyəti üzrə məruzə edilir.

Əvvəllər Ermənistan silahlı bölmələri bu yüksəkliklərdə oturub Məzəm kəndini atəş altında saxlayır, tez-tez təxribatlar törədirdilər. İndi üçrəngli bayrağımız düşmənə gözdağı verir. Zastavada əsgərlər üçün hər cür şərait yaradılıb. Kazarma, anbarlar, istirahət otaqları və sairə.

Modul tipli vasitələrdən ibarət zastavanın yerində gələcəkdə böyük binalar inşa edilə bilər. Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının komandanı general-leytenant Araz Məmmədov bizimlə söhbətində bildirdi ki, gələn il Qazaxın yeni işğaldan azad olunan Xeyrımlı, Aşağı Əskipara, Bağanıs Ayrım və Qızılhacılı kəndlərində yeni zastavaların inşa edilməsi planlaşdırılır.

Mediaturun son ünvanı "Avey" Sərhəd Zastavası oldu.

Zastavanın xidmət göstərdiyi ərazidə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Buradan qarşı tərəf daim müşahidə altında saxlanılır. Hər hansı bir hərəkətlənmə qeydə alınarsa, dərhal aidiyyəti üzrə məruzə edilir. Burada qədim alban məbədi də sərhədçilərimiz tərəfindən qorunur.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının hərbi qulluqçusu, polkovnik-leytenant Elnur Abdullayev dedi ki, sərhədçilər xidmət etdikləri ərazidə mədəni abidələri, flora və faunanı da qoruyurlar: "Bu kəndlərdə hazırda sərhədçilər xidməti yüksək səviyyədə təşkil edir. Eyni zamanda sərhədçilər xidmət etdikləri ərazidə mədəni abidələri, flora və faunanı da qoruyurlar. "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu yeddinci əsrdə tikilib. Bu qoruq Qazax rayonunun Daşsalahlı kəndində yerləşir. Qoruq DSX-nin Sərhəd Qoşunları və Mədəniyyət Nazirliyi tərəfindən qorunur. Hazırda yerləşdiyimiz yüksəklik Subsaksiz yüksəliyi adlandırılır".

Burada xidmət çəkən sərhədçilərimizlə həmsöhbət olduq. Sərhədçilər onlar üçün yaradılan şəraitdən məmnunluqlarını ifadə edərək ərazi bütövlüyü və suverenliyi tam təmin edilən ölkəmizin sərhədlərinin keşiyində alnıaçıq, başı dik, ayıq-sayıq xidmət etməkdən qürur duyduqlarını bildirirlər.

Vətənin mühafizə xəttini təşkil edən Sərhəd Qoşunlarında yaradılan şərait hər birimizdə xoş təəssürat yaradır. Əmin olursan ki, hava şəraitindən asılı olmayaraq, gecə-gündüz sərhədlərimizin keşiyini çəkən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları sanki bir qalxandır. Ölkəmizin strateji maraqlarını qoruyan strateji qurumlardan biridir. Sərhəd Xidmətinin hərbi qulluqçuları ölkəmizin qapılarını qoruyan ən önəmli qəhrəmanlardır.

Onlar ölkəmizin müdafiə halqasıdır...

Onlar daim ayıq-sayıq Vətən keşikçisidirlər...

Onlar sülh və təhlükə arasında duran gözəgörünməz güvən divarıdır.

Dövlət Sərhəd Xidmətinin təşkil etdiyi budəfəki mediaturda iştirak edən hər kəs bir daha bütün bunlara canlı şahidlik etdi. Bir daha əmin olduq ki, Vətən sərhədləri etibarlı əllərdədir. Prezident İlham Əliyevin qarşıya qoyduğu strateji tapşırıq uğurla icra olunur.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

*Bakı-Şəmkir-Qazax-Bakı*







MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA



# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Məzahir Pənahovun sədrliyi ilə noyabrın 26-da Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Komissiyanın noyabrın 6-da keçirilmiş iclasının protokolu təsdiq edilib.

Sonra bəzi seçki dairələrinin hüdudlarında qismən dəyişiklik edilməsi məsələsinə baxılıb. Diqqətə çatdırılıb ki, "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Qanuna əsasən bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələr yaradılıb. Həmçinin "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" Qanunla "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı" yeni redaksiyada verilib. Qeyd olunanlarla əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasında fəaliyyət göstərən seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya Seçki Məcəlləsinin tələblərinə uyğun müvafiq tənzimləmələri həyata keçirmək məqsədilə bəzi seçki dairələrinin hüdudlarında qismən dəyişiklik edilməsinə dair təkliflərini Mərkəzi Seçki Komissiyasına təqdim edib. Komissiya üzvlərinin geniş və hərtərəfli müzakirəsindən sonra yerli şərait və digər şərtlər də nəzərə alınmaqla, qanunvericiliyin tələblərinə uyğun şəkildə seçicilər üçün maksimum əlverişli şərait yaradılmasının zəruriliyi diqqətdə saxlanılaraq, bəzi seçki dairələrinin hüdudlarında qismən dəyişiklik edilməsinə və komissiyanın rəsmi internet səhifəsində bununla bağlı müvafiq bazadakı informasiyanı yeniləməklə ictimaiyyətin məlumatlandırılmasının təmin olunmasına qərar verilib.

İclasda daha sonra Mərkəzi Seçki Komissiyasının normativ xarakterli aktlarına dair məsələyə baxılıb və komissiyanın qərarı ilə bəzi normativ xarakterli aktlar son dövrlər qanunvericilikdə edilmiş dəyişikliklərə uyğunlaşdırılıb.

Media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda həmçinin bir sıra seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub və cari məsələlərə baxılıb.

## Azərbaycanda növbəti bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı tarix sabah müəyyənləşəcək



"Mərkəzi Seçki Komissiyası noyabrın 27-də bələdiyyə seçkilərinin təyin olunması ilə bağlı iclas keçirəcək".

AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov MSK-nın noyabrın 26-da keçirilən iclasında söyləyib.

Onun sözlərinə görə, sabah MSK həmçinin bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin təqvim planını təsdiqləyəcək.

## *Rövzət QASIMOV:* "51 seçki dairəsi üzrə 160 seçki məntəqəsi öz aidiyyəti seçki dairəsini dəyişib"

"Bəzi seçki dairələrinin hüdudlarında qismən dəyişiklik edilib".



AZƏRTAC xəbər verir ki, bu sözləri Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımov MSK-nın noyabrın 26-da keçirilən iclasında söyləyib.

O bildirib ki, 51 seçki dairəsi üzrə 160 seçki məntəqəsi öz aidiyyəti seçki dairəsini dəyişib.

QƏRAR № 48/233

## Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 noyabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 6 noyabr tarixli iclasının protokolu təsdiq edilsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*26.11.2024*

QƏRAR № 48/234

## Bəzi seçki dairələrinin hüdudlarında qismən dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2023-cü il 19 sentyabr tarixli 4/11 saylı Qərarı ilə ölkə üzrə seçki dairələrinin yaradılması sxemi və onun qrafik təsviri təsdiq edilmişdir.

"Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli Qanununa əsasən bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələr yaradılmışdır. Həmçinin "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa Əlavə - "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli Qanunu ilə "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı" yeni redaksiyada verilmişdir.

Bununla əlaqədar olaraq, Mərkəzi Seçki Komissiyasında fəaliyyət göstərən seçki dairələrinin sərhədlərinin müəyyən edilməsi üzrə komissiya Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla, bəzi seçki dairələrinin hüdudlarında qismən dəyişiklik edilməsinə dair təkliflərini Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

Belə ki, 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 3 saylı Babək-Şahbuz-Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək-Naxçıvan-Culfa, 6 saylı Ordubad-Culfa, 37 saylı Qaradağ, 41 saylı Gəncə-Samux-Goranboy, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ, 52 saylı Yevlax, 53 saylı Yevlax-Mingəçevir, 55 saylı Siyəzən-Quba-Xızı, 56 saylı Şabran-Xaçmaz, 57 saylı Xaçmaz şəhər, 58 saylı Xaçmaz kənd, 59 saylı Quba, 60 saylı Quba-Qusar, 61 saylı Qusar, 62 saylı Kürdəmir, 65 saylı Salyan-Biləsuvar-Neftçala, 66 saylı Saatlı, 67 saylı Sabirabad, 68 saylı Sabirabad-Şirvan, 70 saylı Neftçala, 71 saylı Cəlilabad şəhər, 72 saylı Cəlilabad kənd, 73 saylı Masallı-Cəlilabad, 74 saylı Masallı, 75 saylı Yardımlı-Masallı, 81 saylı İmişli, 82 saylı İmişli-Saatlı, 85 saylı Füzuli-Ağcabədi, 86 saylı Ağcabədi, 87 saylı Qobustan-Şamaxı-İsmayıllı, 88 saylı Şamaxı, 89 saylı İsmayıllı, 92 saylı Göyçay-Ağdaş, 93 saylı Ağdaş, 95 saylı Zərdab-Kürdəmir-Ucar, 101 saylı Samux-Şəmkir, 102 saylı Şəmkir şəhər, 103 saylı Şəmkir kənd, 107 saylı Tovuz-Qazax-Ağstafa, 109 saylı Qazax, 110 saylı Balakən, 111 saylı Zaqatala-Balakən, 112 saylı Zaqatala, 114 saylı Şəki şəhər, 115 saylı Şəki kənd, 116 saylı Qəbələ və 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairələrinin sxemi və qrafik təsvirində nəzərə alınmaqla həmin dairələrin hüdudlarında qismən dəyişikliklər edilməli və Mərkəzi Seçki Komissiyasının internet saytında bununla bağlı müvafiq bazadakı informasiya yenilənməklə ictimaiyyətin məlumatlandırılması təmin olunmalıdır.

Eyni zamanda yerli şərait və digər şərtlər nəzərə alınmaqla qanunvericiliyin tələblərinə uyğun olaraq seçicilər üçün maksimum əlverişli imkanlar yaradılmasının zəruriliyi də diqqət mərkəzində saxlanılmalıdır.

Qeyd edilənlərə əsasən, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.4-cü və 29-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 1 saylı Şərur-Sədərək, 2 saylı Şərur-Kəngərli, 3 saylı Babək-Şahbuz-Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək-Naxçıvan-Culfa, 6 saylı Ordubad-Culfa, 37 saylı Qaradağ, 41 saylı Gəncə-Samux-Goranboy, 47 saylı Sumqayıt-Abşeron-Qaradağ, 52 saylı Yevlax, 53 saylı Yevlax-Mingəçevir, 55 saylı Siyəzən-Quba-Xızı, 56 saylı Şabran-Xaçmaz, 57 saylı Xaçmaz şəhər, 58 saylı Xaçmaz kənd, 59 saylı Quba, 60 saylı Quba-Qusar, 61 saylı Qusar, 62 saylı Kürdəmir, 65 saylı Salyan-Biləsuvar-Neftçala, 66 saylı Saatlı, 67 saylı Sabirabad, 68 saylı Sabirabad-Şirvan, 70 saylı Neftçala, 71 saylı Cəlilabad şəhər, 72 saylı Cəlilabad kənd, 73 saylı Masallı-Cəlilabad, 74 saylı Masallı, 75 saylı Yardımlı-Masallı, 81 saylı İmişli, 82 saylı İmişli-Saatlı, 85 saylı Füzuli-Ağcabədi, 86 saylı Ağcabədi, 87 saylı Qobustan-Şamaxı-İsmayıllı, 88 saylı Şamaxı, 89 saylı İsmayıllı, 92 saylı Göyçay-Ağdaş, 93 saylı Ağdaş, 95 saylı Zərdab-Kürdəmir-Ucar, 101 saylı Samux-Şəmkir, 102 saylı Şəmkir şəhər, 103 saylı Şəmkir kənd, 107 saylı Tovuz-Qazax-Ağstafa, 109 saylı Qazax, 110 saylı Balakən, 111 saylı Zaqatala-Balakən, 112 saylı Zaqatala, 114 saylı Şəki şəhər, 115 saylı Şəki kənd, 116 saylı Qəbələ və 117 saylı Oğuz-Qəbələ-Şəki seçki dairələrinin sxemi və qrafik təsvirində nəzərə alınmaqla həmin dairələrin hüdudlarında qismən dəyişikliklər edilsin və Mərkəzi Seçki Komissiyasının internet saytında bununla bağlı müvafiq bazadakı informasiya yenilənməklə ictimaiyyətin məlumatlandırılması təmin olunsun.

2. Mərkəzi Seçki Komissiyasının Katibliyi və dairə seçki komissiyaları öz səlahiyyətləri daxilində bu qərarın icrası ilə əlaqədar müvafiq tədbirlər görsün.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*26.11.2024*

QƏRAR № 48/235

## "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1178-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

"Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1178-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə əsasən **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının 2006-cı il 7 iyun tarixli 28/106 saylı Qərarı *("Bəzi normativ xarakterli aktlara əlavə və dəyişikliklər edilməsi, qüvvəyə minməsi və qüvvədən düşməsi barədə" 2011-ci il 23 avqust tarixli 6/15 saylı Qərarı, "Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qruplarının yaradılması, namizədlərin öz təşəbbüsü ilə və ya seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"a dəyişikliklər edilməsinə dair 2014-cü il 29 may tarixli 1/6 saylı Qərarı, "Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qruplarının yaradılması, namizədlərin öz təşəbbüsü ilə və ya seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"da dəyişikliklər edilməsi barədə 2019-cu il 2 oktyabr tarixli 5/18 saylı Qərarı)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qruplarının yaradılması, namizədlərin öz təşəbbüsü ilə və ya seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"ın 3.3-cü, 4.2-ci bəndlərində, 1 (hər iki halda), 1A (hər üç halda) və 3 (hər üç halda) saylı əlavələrində "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə, 2 saylı əlavəsində "və nömrəsi" sözləri ", nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin, 5 saylı əlavəsində isə (hər iki halda) "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

2. Mərkəzi Seçki Komissiyasının 2006-cı il 7 iyun tarixli 28/107 saylı Qərarı *("Bəzi normativ aktların qəbul edilməsinə, bəzilərinə isə əlavə və dəyişikliklər edilməsinə dair" 2009-cu il 24 avqust tarixli 23/96 saylı Qərarı, "Bələdiyyə seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"a dəyişikliklər edilməsinə dair 2014-cü il 29 may tarixli 1/7 saylı Qərarı)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində namizədlərin siyasi partiyalar və siyasi partiyaların blokları tərəfindən irəli sürülməsi qaydaları haqqında Təlimat"ın 3.5-ci, 5.6-cı bəndlərində, 1 və 2 saylı əlavələrində "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin, 4, 5, 5a, 6, 6a, 7, 7a, 7b və 7c saylı əlavələrində "verilmə tarixi" sözlərindən sonra "və ya etibarlılıq müddəti" sözləri əlavə edilsin.

3. Mərkəzi Seçki Komissiyasının 2004-cü il 25 avqust tarixli 15/90 saylı Qərarı *("Bəzi normativ aktların qəbul edilməsinə, bəzilərinə isə əlavə və dəyişikliklər edilməsinə dair" 2009-cu il 24 avqust tarixli 23/96 saylı Qərarı, "Bəzi normativ xarakterli aktlara əlavə və dəyişikliklər edilməsi, qüvvəyə minməsi və qüvvədən düşməsi barədə" 2011-ci il 23 avqust tarixli 6/15 saylı Qərarı, "Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədə, namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"na dəyişikliklər edilməsinə dair 2014-cü il 29 may tarixli 1/8 saylı Qərarı, "Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədə, namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"nda dəyişikliklər edilməsi barədə 2019-cu il 13 sentyabr tarixli 4/13 saylı Qərarı)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədə, namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi Qaydaları"nın 2 (hər üç halda) və 2A (hər üç halda) saylı əlavələrində ", verilmə tarixi" sözləri "və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin.

4. Mərkəzi Seçki Komissiyasının 2006-cı il 14 iyun tarixli 29/111 saylı Qərarı *("Bəzi normativ aktların qəbul edilməsinə, bəzilərinə isə əlavə və dəyişikliklər edilməsinə dair" 2009-cu il 24 avqust tarixli 23/96 saylı Qərarı, "Bəzi normativ xarakterli aktlara əlavə və dəyişikliklər edilməsi, qüvvəyə minməsi və qüvvədən düşməsi barədə" 2011-ci il 23 avqust tarixli 6/15 saylı Qərarı, "Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması, imza vərəqələrinin və onlara əlavə edilməli olan sənədlərin dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat"a dəyişikliklər edilməsinə dair 2014-cü il 29 may tarixli 1/9 saylı Qərarı)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədin müdafiəsi üçün seçici imzalarının toplanması, imza vərəqələrinin və onlara əlavə edilməli olan sənədlərin dairə seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında Təlimat"ın 1.6-cı, 1.10-cu və 1.11-ci bəndlərində "verilmə tarixini" sözlərindən sonra "və ya etibarlılıq müddətini" sözləri əlavə edilsin.

*Ardı 9-cu səh.*



# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## QƏRAR № 48/235

### "Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 iyun tarixli 1178-VIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

*Əvvəli 8-ci səh.*

5. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23/96 saylı Qərarı *("Bəzi normativ xarakterli aktlara əlavə və dəyişikliklər edilməsi, qüvvəyə minməsi və qüvvədən düşməsi barədə" 2011-ci il 23 avqust tarixli 6/15 saylı Qərarı, "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi haqqında" 2012-ci il 19 oktyabr tarixli 5/17 saylı Qərarı, "Bələdiyyə seçkilərində namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"na dəyişikliklər edilməsinə dair 2014-cü il 29 may tarixli 1/10 saylı Qərarı, "Mərkəzi Seçki Komissiyasının qüvvədə olan bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 15 mart tarixli 1/3 saylı Qərarı, "Bələdiyyə seçkilərində namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nda dəyişikliklər edilməsi barədə 2019-cu il 13 sentyabr tarixli 4/12 saylı Qərarı, "Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişikliklər edilməsi barədə" 2021-ci il 3 sentyabr tarixli 3/9 saylı Qərarı, "Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 6 fevral tarixli 1/2 saylı Qərarı)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması Qaydaları"nda mətn üzrə "seriyası və nömrəsi", "seriya və nömrəsi" sözləri "seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti;" sözləri ilə, "nömrəsi, verilmə tarixi", "nömrəsi, sənədin verilmə tarixi" sözləri isə "nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti" sözləri ilə əvəz edilsin.

6. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23/96 saylı Qərarı *("Bəzi normativ xarakterli aktlara əlavə və dəyişikliklər edilməsi, qüvvəyə minməsi və qüvvədən düşməsi barədə" 2011-ci il 23 avqust tarixli 6/15 saylı Qərarı, "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi haqqında" 2013-cü il 11 aprel tarixli 3/15 saylı Qərarı)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində seçki fondlarına vəsaitin daxil olması, xərclənməsi uçotunun aparılması və hesabatı qaydaları haqqında Təlimat"ın 3.12-ci bəndində "verilmə tarixini" sözləri "və verilmə tarixini və ya etibarlılıq müddətini" sözləri ilə əvəz edilsin.

7. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*26.11.2024*

## QƏRAR № 48/236

### Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə əsasən **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/55 saylı, 2018-ci il 8 fevral tarixli 2/8 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin seçkilərində media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"ın 1.3-cü bəndindən "siyasi reklam" sözləri çıxarılsın.

2. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 8 yanvar tarixli 1/4 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2016-cı il 26 iyul tarixli 10/42 saylı, 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş "Media vasitəsi ilə referendumqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"ın 1.2.3-cü yarımbəndindən "siyasi reklam" sözləri çıxarılsın.

3. Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2011-ci il 23 avqust tarixli 6/15 saylı, 2013-cü il 2 aprel tarixli 2/7 saylı, 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərində media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"ın 1.2.3-cü yarımbəndindən "siyasi reklam" sözləri çıxarılsın.

4. Mərkəzi Seçki Komissiyasının 2010-cu il 23 iyul tarixli 15/58 saylı Qərarı *(Mərkəzi Seçki Komissiyasının 2019-cu il 15 mart tarixli 1/2 saylı, 2022-ci il 4 avqust tarixli 4/14 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı qərarları)* ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə media vasitəsi ilə seçkiqabağı təşviqatın aparılması qaydaları haqqında Təlimat"ın 1.2.5-ci yarımbəndindən "siyasi reklam" sözləri çıxarılsın.

5. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*26.11.2024*

## QƏRAR № 48/237

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Çingiz Namizəd oğlu Həsənli 4 saylı Naxçıvan şəhər, Yadigar Ayaz oğlu Bağırov 101 saylı Samux-Şəmkir, Babək Yaşar oğlu Abbasov 102 saylı Şəmkir şəhər, Vüqar Lətif oğlu Bayramov 103 saylı Şəmkir kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Ramil Əsgər oğlu Sadiqov 4 saylı Naxçıvan şəhər, Qalib Natiq oğlu Abbasov 78 saylı Lənkəran kənd, Azər Rasim oğlu Ələsgərov 101 saylı Samux-Şəmkir, Əli Abbas oğlu İsmayılov və Mübariz Ələddin oğlu Cəfərov 103 saylı Şəmkir kənd seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

*26.11.2024*

# *Yaşar GÜLER:* "Azərbaycanla Ermənistan arasında sülh sazişi Qafqaz regionunda sabitliyi təmin edəcək"

"Azərbaycanla Ermənistan arasında sülh sazişi Qafqaz regionunda sakitliyi və sabitliyi təmin edəcək".



AZƏRTAC xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Yaşar Güler parlamentin plan-büdcə komissiyasında Milli Müdafiə Nazirliyinin 2025-ci il büdcəsinin müzakirəsi zamanı deyib.

O, Bakı ilə İrəvan arasında genişmiqyaslı sülh sazişinin imzalanmasının vacibliyini vurğulayıb.

Milli müdafiə naziri terrorla mübarizədə əldə olunan uğurlar barədə də məlumat verib. O qeyd edib ki, Türkiyə Silahlı Qüvvələrinin antiterror əməliyyatları çərçivəsində təkcə bu ilin əvvəlindən regionda fəaliyyəti qadağan edilmiş təşkilatların 2654 silahlısı zərərsizləşdirilib.

Nazirin sözlərinə görə, son illər Türkiyə ordusu terrorla mübarizə strategiyasını dəyişib. "Hədəflərin dəqiq müəyyən edilmiş siyahısı ilə qısamüddətli zərbələr əvvəlcədən müəyyən edilmiş müddətlər olmadan genişmiqyaslı əməliyyatlarla əvəzlənib. Belə bir strategiya terror təşkilatlarına, xüsusilə də PKK-ya güclü zərbə vurmağa imkan verdi" deyən Y.Güler Türkiyəyə qarşı terror təhlükəsini tamamilə aradan qaldırmaq əzmini də vurğulayıb.

Türkiyəli nazir terrorizmlə mübarizədə region ölkələri arasında əməkdaşlığın vacibliyinə diqqət çəkərək bildirib ki, İraq hökuməti ilə əldə olunmuş razılaşmalara əsasən, bu sahədə konkret addımlar atılır.

Kiprdəki vəziyyətə gəlincə, Yaşar Güler qeyd edib ki, Ankara "adanın yunan icmasının sabitliyi təhdid edən hərəkətlərini" diqqətlə izləyir.

Nazir əlavə edib ki, Türkiyə "humanitar fəaliyyət bəhanəsi ilə Kiprin cənubunda xarici dövlətlərin fəallığının artmasını" müşahidə edir.

# SOCAR ABŞ şirkəti ilə yataqların işlənmə planının optimallaşdırılmasını müzakirə edib



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf "DeGolyer and MacNaughton" şirkətinin sədri və baş icraçı direktoru Con Vallas ilə görüşüb.

SOCAR-dan AZƏRTAC-a bildirilib ki, görüşdə SOCAR ilə "DeGolyer and MacNaughton" şirkəti arasında uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olunub.

Tərəflər yataqların işlənmə planının optimallaşdırılması, ehtiyatların dəqiqləşdirilməsi, inteqrasiya olunmuş modellərin hazırlanması istiqamətləri üzrə görülən işləri nəzərdən keçirib və qarşılıqlı maraq doğuran digər məsələlər, o cümlədən geotermal enerji, karbonun tutulması və saxlanılması (CCUS) barədə fikir mübadiləsi aparıblar.

# BƏƏ Azərbaycanda humanitar minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyi verəcək

Birləşmiş Ərəb Əmirlikləri Hökuməti Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə maliyyə dəstəyi göstərəcək.



ANAMA-dan AZƏRTAC-a verilən məlumata görə, bu məqsədlə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri Vüqar Süleymanov və Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Əl Bluşi arasında Anlaşma Memorandumu imzalanıb.



Fəaliyyət çərçivəsində agentliyin müvafiq minatəmizləmə fəaliyyətinin dəstəklənməsi, texniki potensialının gücləndirilməsi, zəruri avadanlıqların alınması, habelə keçmiş təmas xətti boyu yerləşən ərazilərdə mina təhlükəsinə qarşı maarifləndirmə tədbirlərinin yerinə yetirilməsi nəzərdə tutulub.

İmzalanma mərasimi çərçivəsində tərəflər arasında görüş keçirilib. Vüqar Süleymanov Birləşmiş Ərəb Əmirliklərinin Azərbaycanda icra olunan humanitar minatəmizləmə fəaliyyətləri üçün töhfəsinə görə qarşı tərəfə təşəkkür edib.

Görüşdə qonağa işğaldan azad olunmuş ərazilərin mina və digər partlayıcı qurğularla kütləvi şəkildə çirklənmə miqyası, mövcud problemin aradan qaldırılması istiqamətində icra edilən genişmiqyaslı humanitar minatəmizləmə fəaliyyəti barədə ətraflı məlumat verilib. Həmçinin Azərbaycanın üzləşdiyi mina problemi ilə mübarizədə beynəlxalq resursların cəlb olunmasının önəmi və tərəfdaşlığın əhəmiyyəti vurğulanıb.

Səfir Məhəmməd Əl Bluşi Birləşmiş Ərəb Əmirlikləri tərəfindən göstərilən bu yardımı dost Azərbaycanda humanitar minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə həyata keçirildiyini diqqətə çatdırıb.

Görüş zamanı həmçinin tərəflər arasında mina təhlükəsi ilə mübarizə fəaliyyətinə göstərilən dəstək və bu sahədə əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə Sənayesi Nazirliyinin müəssisələri ilə AzTU arasında səmərəli əməkdaşlıq mövcuddur

Müdafiə sənayesi nazirinin müavini Hidayət Əzimovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Texniki Universitetində (AzTU) olub.





AZƏRTAC xəbər verir ki, rektor Vilayət Vəliyev əmək bazarının tələblərinə uyğun yüksəkixtisaslı mühəndis kadr hazırlığı istiqamətində AzTU-da müasir tədris və təhsilin təşkili ilə əlaqədar görülən işlər barədə ətraflı məlumat verib.

Nazir müavini Hidayət Əzimov müdafiə sənayesi sahəsində ixtisaslı kadr hazırlığı, mütəxəssislərin təkmilləşdirilməsi və innovativ mühəndisliyin inkişaf etdirilməsi ilə bağlı fikirlərini diqqətə çatdırıb. O, Müdafiə Sənayesi Nazirliyinin (MSN) tabeli müəssisələri ilə AzTU arasında səmərəli əməkdaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edərək, tələbələrin nəzəri biliklərinin təcrübə əsasında möhkəmləndirilməsi üçün nazirlik tərəfindən əlverişli şəraitin yaradıldığını bildirib. Görüşdən sonra MSN-in nümayəndə heyəti AzTU-nun laboratoriyaları, emalatxanaları, layihələrin icra olunduğu təcrübi-tədris otaqları və KOB model müəssisəsi ilə tanış olub.

Daha sonra H.Əzimov ölkəmizin müdafiə sənayesi kompleksi üçün yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə Nazirlər Kabinetinin qərarı əsasında AzTU-da yaradılan Xüsusi texnika və texnologiya fakültəsində təhsil alan bir qrup tələbə ilə görüşüb. Nazir müavini Azərbaycan dövləti tərəfindən ölkəmizin müdafiə sənayesinin davamlı inkişafına göstərilən diqqəti vurğulayıb. O, müasir hərbi məhsulların istehsalında əldə edilmiş nailiyyətlər haqqında danışıb, müdafiə sənayesi üçün zəruri ixtisaslarda peşəkar kadr hazırlığı işinin daha da təkmilləşdirilməsi üzrə MSN tərəfindən aparılan məqsədyönlü fəaliyyət barədə məlumat verib.

# COP-ların ən mükəmməli 29-cusu oldu

**Son illər beynəlxalq tədbirlərə evsahibliyi etməkdə etibarlı ünvana çevrilmiş Bakı bu il həmin silsilədən olan ən böyük, ən mötəbər tədbirə qucaq açdı. 11-23 noyabr tarixlərində paytaxtımızda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirildi. Azərbaycan öhdəsinə düşən və özünün də siyasi və iqtisadi vizyonu ilə uzlaşan bu möhtəşəm tədbirin təşkilatçılığını uğurla həyata keçirdi.**

## İlham Əliyevin qətiyyətli liderliyinin növbəti qələbəsi




## COP29-un uğurlu təşkili Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəltdi

### Dünya Bakıda iqlim dəyişikliyi fəsadlarına qarşı mübarizə yollarını müzakirə etdi

Tədbirin keçirilməsi üçün 200 ölkənin yekdil qərarı ilə Azərbaycanın ünvan olaraq seçilməsi ölkəmizin dünyada siyasi cəhətdən sabit, təhlükəsizlik baxımından təminatlı, iqtisadi aspektdən güclü dövlət kimi tanınmasının əyanı sübutu idi. 2 həftəyə yaxın müddətdə dünya məhz Bakıda iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizə yollarını müzakirə etdi, onların aradan qaldırılması, xüsusilə də bu istiqamətdə inkişaf etməkdə, olan ölkələrə maliyyə yardımı ilə bağlı mövqelərini ortaya qoydu. Müxtəlif dil, din və mədəniyyətlərə sahib 196 ölkədən 72 mindən çox iştirakçının, o cümlədən 80 prezident, vitse-prezident və baş nazirin vətənimizdə toplaşmağı Azərbaycanın beynəlxalq əməkdaşlıqlara, qlobal aktual məsələlərin həllinə verdiyi töhfənin bariz nümunəsi idi.

COP29 siyasi və iqtisadi əhəmiyyəti ilə bərabər həm də müxtəlif mədəniyyətlərin inteqrasiyası demək olduğu üçün Azərbaycan təqdim etdiyi qonaqpərvər mühitlə dünyadakı multikultural prinsiplərə sadiqliyini ortaya qoydu. Ardıcıl günlər ərzində eyni anda müxtəlif istiqamətlərdə dövlət və özəl sektor nümayəndələrinin çıxışlarının, panel müzakirələrinin təşkili, ictimaiyyət nümayəndələrinin öz tələb, istək və təkliflərini ifadə etmək üçün əlverişli platformanın yaradılması, minlərlə tədbir iştirakçısının yerləşdirilmə, daşınma proseslərindən başlayaraq ən xırda detallara qədər bütün təşkilati işlərin qüsursuz təmin edilməsi Azərbaycanın müasir tendensiyalara cavab verən geniş və güclü maddi-texniki bazaya sahib qüdrətli bir ölkə olduğunun carçısı idi.

Təsadüfi deyil ki, ölkəmizə gələn bir çox rəsmi şəxslər yerli və xarici media resurslarına açıqlamalarında Azərbaycanda yüksək təşkilatçılıq mədəniyyəti və təcrübəsinin mövcudluğunu, o cümlədən COP29-un uğurla keçirildiyini vurğuladılar. Tədbirin yekununda yüksəksəviyyəli təşkilatçılığa görə Azərbaycana rəsmi təşəkkür elan edilməsi barədə qətnamə layihəsi qəbul olundu.

### "Yaşıl" layihələrimiz dünyaya təqdim edildi

Azərbaycan son illərdə bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, sənayedə müasir innovativ texnologiyaların tətbiqi, dövlət və özəl sektorda kağız daşıyıcıların rəqəmsal həllərlə əvəz edilməsi, iri şəhərlərin piyadayönümlü şəhərə çevrilməsi, bir sözlə, müasir dövrün əsas çağırışı olan "yaşıl" keçid tendensiyasının bütün komponentləri üzrə həyata keçirdiyi işlər nəticəsində dünya ölkələri tərəfindən COP29 kimi bir mötəbər tədbirə evsahibliyi etmək etimadını qazandı.

Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi töhfələrin, həyata keçirdiyi "yaşıl" layihələrin dünya rəsmilərinin gözü önündə dövlət başçımızın dilindən bir daha vurğulanması ölkəmiz adına xüsusi qürurverici məqam idi. Prezident İlham Əliyev COP29 Liderlər Sammitinin açılış mərasimdə çıxışı zamanı qeyd etdi ki, Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın bərpaolunan enerji sektorunda texniki potensialı quruda 135 qiqavat, dənizdə isə 157 qiqavat təşkil edir. Ötən il BƏƏ-nin "Masdar" şirkəti Azərbaycanda 230 meqavatlıq günəş-enerji stansiyasının açılışını etdi. Eyni zamanda Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ölkəmizdə 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. 240 meqavatlıq günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi nəzərdə tutulur. Ölkəmiz 2030-cu ilə qədər təxminən altı qiqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırıb. Paralel olaraq Azərbaycan 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalayıb. Ölkəmiz həmçinin ixrac bazarlarına diqqət yetirir və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışır. Bu, ölkəmizə Avropaya "yaşıl enerji"ni ixrac etmək imkanı verəcək.

Liderlər Sammitinin açılış mərasimində çıxışı zamanı bu məqamları dünya liderlərinin diqqətinə çatdıran Azərbaycan Prezidenti ölkəmizə qarşı qərəzli mövqe sərgiləyən Qərb mediası və siyasətçilərinin bəzi ittihamları müqabilində də tutarlı arqumentləri ortaya qoydu. Dövlət başçımız vurğuladı ki, bəzi bu cür qərəzli siyasətçi və media mənsublarının Azərbaycanı coğrafi və təbii resurslarından dolayı neft dövləti adlandırması siyasi ədalətsizlik, mədəniyyətsizlik və bilgisizlikdən başqa bir məfhum deyil. Proseslər göstərdi ki, Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra bilərəkdən təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildi. Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri ölkəmiz haqqında dezinformasiya yayaraq Azərbaycanı təbii sərvətlərinə görə ittiham etməyə başladılar. Halbuki Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir və Azərbaycanı neft dövləti adlandıran həmin dövlətlər özləri dünyada birnömrəli neft və qaz hasilatçılarıdır və Azərbaycandan 30 qat artıq neft hasil edirlər. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Dövlətimizin başçısı bu məqamlara vurğu edərək ölkələrə qiymətin başqa meyarlara görə verilməli olduğunu diqqətə çatdırdı, Azərbaycanda işsizliyin səviyyəsinin 5,4 faiz, yoxsulluğun səviyyəsinin 5,2 faiz olduğunu, xarici borcunun ÜDM-in cəmi 7,5 faizini təşkil etdiyini bildirdi. "Hər bir təbii sərvət - istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis - bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz "yaşıl keçid"in güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda biz realist olmalıyıq", - deyə Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər Qərbin qərəzli media və siyasətçilərinin



yalançı ittihamlarının qarşısında möhkəm diplomatik səddə çevrildi.

### Kiçik ada dövlətlərinə dəstəyə çağırış

Qlobal iqlim dəyişmələri infrastruktur, kənd təsərrüfatı və turizm sektoruna ciddi zərər verir. Okean turşlaşması dəniz ekosistemlərinə zərər verərək, balıqçılıq və digər dəniz məhsulları ilə bağlı fəaliyyətləri təhdid edir. Biomüxtəlifliyin azalması mərcan qayalıqlarının ağarması, dəniz canlılarının məhv olması və ekosistem xidmətlərinin zəifləməsi kimi nəticələrə səbəb olur. Bütün bu problemlərdən zərər çəkən həssas qruplar içərisində kiçik ada dövlətləri xüsusi diqqət çəkir. Adaların sakinləri şirin su ehtiyatlarının azalması, şorlaşma və suyun keyfiyyətinin pisləşməsi kimi problemlər yaşayırlar. Mərcan qayalıqları dəniz həyatının müxtəlif növləri üçün əhəmiyyətli yaşayış mühitini təşkil edir. Onların dağılması, biomüxtəlifliyin azalmasına və balıqçılıq sektoruna ciddi zərər verərək yerli icmaların gəlirlərini azaldır. Manqrov meşələri məhv olur. Bu meşələr sahil eroziyasını azaltmaq, suyun keyfiyyətini yaxşılaşdırmaq və biomüxtəlifliyi qorumaq kimi vacib funksiyaları yerinə yetirir. Onların məhv olması sahil xəttinin çəkilməsinə, suyun çirklənməsinə və balıqçılıq potensialının azalmasına səbəb olur.

Bütün bunları nəzərə alaraq Bakıda keçirilən COP29 tədbirinin əsas müzakirə mövzularından biri də kiçik ada dövlətlərinə iqlim dəyişikliyi ilə mübarizədə maddi və texniki dəstəyin artırılması və bu istiqamətdə iqlim maliyyəsinin həcminin genişləndirilməsindən ibarət idi. Azərbaycan Prezidenti İlham Əliyev tədbir çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində çıxışı zamanı bu məsələyə də vurğu edərək dünyanın inkişaf etmiş ölkələrini, xüsusən də müstəmləkə keçmişi olan ölkələri kiçik ada dövlətlərinə yardım göstərməyə çağırdı.

Ölkə başçımızın nitqində də qeyd edildiyi kimi, Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyi dövründə Azərbaycan 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərib. Azərbaycan Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırır. Ətraf mühitin monitorinqi və qiymətləndirilməsi üçün Azərbaycanın Kosmos Agentliyi - "Azərkosmos"dan peyk məlumatlarından istifadə etmək üçün Millətlər Birliyi ilə anlaşma memorandumu imzalayıb.

Prezident İlham Əliyevin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində səsləndirdiyi cəsarətli çıxışlar birbaşa hədəfə dəydi və olduqca təsirli oldu. COP29-un Liderlər Sammitinin açılış mərasimində olduğu kimi, inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammitində də Azərbaycan Prezidentinin çıxışında beynəlxalq hüquq normalarını və insan hüquqlarını kobud şəkildə pozan və neokolonializm siyasətini davam etdirən Fransa və Niderland haqlı tənqid hədəfi oldu. Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borelin Avropanı bağ, qalan ölkələri isə "cəngəllik" adlandırması, Avropa Parlamentinin və Avropa Şurasının Parlament Assambleyasının bir sıra ölkələrdəki siyasi repressiyalara səssiz qalması qınanıldı. Fransa kimi ölkələrin riyakar siyasətlərinin ifşa olunması Prezident İlham Əliyevin sarsılmaz iradəsi və siyasi cəsarətinin göstəricisi olmaqla yanaşı, Azərbaycanın qüdrətli dövlət olduğunun nişanəsi idi. Təsadüfi deyil ki, artıq bir sıra nüfuzlu dünya nəşrləri Azərbaycan Prezidentinin bu çıxışından sonra Makron rejiminin neokolonializm cinayətlərindən yazmağa başlayıb.

### Əldə edilən uğurlar

COP29-da qəbul olunan ən önəmli qərarlardan biri hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi (BMG) barədə razılığın əldə olunmasıdır. Bakı Maliyyə Məqsədi, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyənləşdirir. COP29 sədrliyinin əsas prioriteti üzrə əldə olunan bu uğur, əvvəlki 100 milyard dollarlıq iqlim maliyyəsi məqsədindən əhəmiyyətli dərəcədə yüksəkdir və qlobal investisiyaların yeni dalğasını təmin edəcək.

Əlavə olaraq, 2015-ci ildən bəri ilk dəfə olaraq COP29-da Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi. Bununla bağlı razılığın əldə olunması COP29 sədrliyinin önəm verdiyi əsas prioritet məsələlərdən biri idi. 6-cı maddə ilə bağlı yekdilliklə qəbul edilən qərarlar ətraf mühitin bütövlüyünü, şəffaflığı və karbon bazarlarının möhkəmliyini təmin etməkdə mühüm rol oynayacaq. Digər tərəfdən, 6-cı maddə üzrə əməkdaşlıq qlobal olaraq mitiqasiya tədbirlərini, yəni emissiyaların azaldılmasını tənzimləyə biləcək. Bir ölkədə emissiyaların azaldılması hesabına karbon bazarları vasitəsilə digər dövlətdə emissiyaların çox olmasını tarazlaşdırmaq mümkün olacaq.

COP29-da əldə olunan əsas nailiyyətlərdən biri də 2022-ci ildə təşəbbüs kimi irəli sürülmüş və iqlim dəyişmələrimin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımını nəzərdə tutan İtki və Zərər Fondunun tam şəkildə institutlaşdırılması oldu. Fondun 2025-ci ildən əməli fəaliyyətə başlaması nəzərdə tutulur. İtki və Zərər Fonduna ölkələr tərəfindən vəd edilən maliyyə vəsaitinin həcmi 730 milyon dollardan çoxdur.

COP29-un yekununda qəbul olunan digər qərarla Qlobal Adaptasiya Hədəfi sənədi ilə Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı. Həmçinin növbəti COP sessiyaları çərçivəsində adaptasiya üzrə yüksəksəviyyəli Bakı dialoqu çağrılacaq. Bu, inkişaf etməkdə olan ölkələrin maraqlarına uyğun olaraq, adaptasiya məsələsinin hər il COP-larda müzakirə olunmasını təmin edəcək. COP29-un qərarı ilə 10 illik Yenilənmiş Gender üzrə Lima İş Proqramı qəbul edildi. Proqramın qəbulu üzrə danışıqlar uzun müddətdir ki, davam edirdi və COP29 sədrliyi nəticəsində sənəd üzrə razılıq bu iqlim sammiti çərçivəsində əldə olundu.

### Azərbaycan etibarlı tərəfdaşdır

Belə bir nüfuzlu tədbirin uğurla keçirilməsi, iştirakçı ölkələrin Azərbaycanın yanaşmalarına dəstəyi, ölkəmizin təşəbbüslərinin qlobal səviyyədə təqdir edildiyini göstərdi. Bu dəstək, həmçinin Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyinin düzgün başa düşüldüyünü və qəbul edildiyini ortaya qoydu. Belə ki, COP29 Azərbaycanın regiondakı prosesləri qlobal siyasətlə inteqrasiya etdirmək bacarığını və dünyada özünəməxsus yerini daha da möhkəmləndirdiyini bir daha sübut etdi.

Azərbaycana qarşı qarayaxma kampaniyalarının təşkilatçıları və icraçıları, konfransın uğurla keçirilməsinə mane olmaq üçün müxtəlif vasitələrə əl atsalar da, Azərbaycanda xalq və dövlət 44 günlük Vətən müharibəsində olduğu kimi, bu məsuliyyətli prosesdə də birlik və həmrəylik nümayiş etdirdi. Xalqın həmrəyliyinə əsaslanan dövlətin qətiyyətli siyasəti bu qarayaxma kampaniyalarının iflasa uğradığını göstərdi. Hamı aydın şəkildə gördü ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin şəxsən iştirak etdiyi hər bir tədbirin əhəmiyyətini dərk edir və bu tədbirlərin ölkəmizin maraqlarına xidmət etdiyinə əmindir. Prezident İlham Əliyevin COP29-da çıxışları, ali qonaqlarla görüşləri və sərgilədiyi mövqe xalqın və dövlətin maraqlarını qorumaq baxımından xüsusi önəm daşıdı.

Xalqın dövlətimizin başçısına tam etimad göstərməsi, onun nəyi, necə və nə zaman etməsi ilə bağlı müdrikliyinə inanması bu tədbirin ümummilli uğura çevrilməsinə zəmin yaratdı. Prezident İlham Əliyevin COP29-da etdiyi çıxış ölkə həqiqətlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət daşıdı. İlham Əliyev çıxışında Ermənistanın işğalçılıq siyasətini və onun ağır fəsadlarını bir daha beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı, bu işğalın yalnız Azərbaycan üçün deyil, regional sabitlik üçün də yaratdığı təhlükələri ön plana çəkdi. Bu, Azərbaycanın ədalətli mövqeyinin dünya səviyyəsində daha geniş anlaşılmasına və dəstək qazanmasına mühüm töhfə verdi.

*COP29 Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə etdiyi növbəti qələbə, növbəti uğuru oldu. Azərbaycan dünya miqyasında öz sözünü bir daha dedi, etibarını bir daha təsdiqlədi, qlobal tendensiyalara növbəti töhfəsini verdi. Azərbaycanın təşkilatçılığı ilə COP29-un uğurlu baş tutması və yekunda önəmli nəticələrin əldə olunması dövlətimizin qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdi.*

***Vüqar ORUC,***
***Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri,***
***Türk Dövlətləri Qiymətləndiricilər Birlikləri Şurasının prezidenti***

## Bakı müxtəlif beynəlxalq aktorlar arasında körpü rolunu oynadı

**Ölkəmizin 30 il Ermənistanın işğalı altında saxladığı torpaqları azad edib ərazi bütövlüyünü bərpa etməsi Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına təsir göstərdi.**

Açıq-aydın xarici dairələrin Azərbaycanla münasibətlərində müsbətə doğru dəyişiklik hiss olunmağa başladı. Yeni geosiyasi reallıqlar fonunda ölkəmizin enerji, eləcə də diplomatiya sahəsində əhəmiyyəti xüsusi qeyd olundu. Azərbaycanla yeni iqtisadi əlaqələrin yaradılması barədə müzakirələrə başlandı.

Təbii ki, ölkəmizin beynəlxalq arenada güclü diplomatik mövqeyə sahib olması, eləcə də hərbi, siyasi, iqtisadi uğurları antiazərbaycançı qüvvələri ciddi təşvişə salmaya bilməzdi. Xüsusilə illərdir danışıqlar prosesində iştirak edib, 2020-ci ilin 44 günlük Vətən müharibəsi və ondan sonrakı proseslər zamanı simasızlığı ifşa olunan Fransanın Cənubi Qafqaz planları pozulduqca, ölkəmizə qarşı kini, qəzəbi də artırdı.

Rəsmi Paris himayəsində olan, yaxud maliyyələşdirdikləri "beynəlxalq təşkilatlar" vasitəsilə Azərbaycana qarşı təzyiqləri artırmağa çalışdı. Bununla da bir nəticə əldə edə bilmədiklərini hiss etdikdə, erməni lobbisinin maliyyələşdirdiyi şəbəkə beynəlxalq mətbuat vasitəsilə ölkəmizə qarşı cəbhə açıb "hücum"u genişləndirməyə çalışdı. Dövlətimizin başçısının dediyi kimi, Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik. Bu təzyiqlər vahid mərkəzdən idarə olunurdu və Azərbaycanı müstəqil diplomatik siyasət kursundan yayındırmağa və fövqəladə inkişafının qarşısını almağa yönəlmişdi.

Dubaydakı konfransda BMT-nin adıçəkilən tədbirinin Azərbaycanda keçirilməsi barədə qərarın verilməsindən dərhal sonra Fransa ölkəmizə qarşı apardığı təbliğatı daha da gücləndirdi, COP29-un gözdən salınması üçün hər cür üsula əl atdı.

Qərbin COP29 ərəfəsində və konfrans zamanı ölkəmizə qarşı təzyiqləri artırmaqda, eyni zamanda sammitdə yüksəksəviyyəli iştirakı gücü yetdiyi qədər məhdudlaşdırmaqda, Azərbaycana siyasi mesajlar ötürməkdə məqsədi ölkəmizi müstəqil xarici siyasət kursundan imtinaya vadar etmək, birqütblü dünya ssenarisi üzərində işləyən Qərbin iradəsinə tabe etmək idi.

Görünən budur ki, Qərb ikiüzlü və riyakar siyasət yürüdür. XXI əsrdə də bu şakərindən qurtula bilmir. Dünyanı çirkləndirən, ekoloji tarazlığı pozan ölkələr arasında liderlik Avropa İttifaqına üzv dövlətlərin payına düşür. Qərbi bəşəriyyətin canlı aləm və onun gələcək taleyindən çox, birqütblü dünya nizamı qurmaq düşündürür. Bundan ötrü bütün mütərəqqi təşəbbüsləri gözdən salmağa, iqlim dəyişikliyi, ekoloji tarazlığı öz çirkin məqsədlərinə qurban verməyə hazırdır.

Bir fakta diqqət yetirək. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen 2023-cü ildə Avropa üçün Rusiya ilə əlaqəli olmayan mənbələrdən alternativ qaz mənbələri yaratmaq məsələsi kəskinləşəndə qaçaraq Bakıya gəldi və Azərbaycanla AB arasında enerji sahəsində strateji tərəfdaşlıq barədə bəyannamə imzalamağa nail oldu. O zaman Avropanın dərin enerji təchizatı ilə bağlı ciddi narahatlığı var idi.

İmzalanmış bəyannamə ilə Azərbaycan Avropanın qaz təminatını iki dəfə artırmaq kimi hədəf götürdü. Belə bir yaxşılığın əvəzini isə Ursula fon der COP29-da iştirak etməməklə ödədi. Qərbin əsl siması budur. Öz ehtiyacı üçün "qaça-qaça" Bakıya gəlmək də olar, hələ təriflər yağdırmaq da. Amma söz bəşəriyyət üçün olduqca vacib, iqlim dəyişmələri ilə mübarizəyə gələndə Aİ bunu arxa plana da keçirməyə hazır imiş.

Şübhəsiz ki, bu birbaşa Azərbaycana qarşı qərəzli münasibətin göstəricisidir. Xanım Lyayen də, Avropanın digər anti-azərbaycançı qüvvələri də Fransa və Almaniyanın təsiri altındadırlar.

Ursula fon der Lyayen COP29-da iştirak etməməklə bir daha göstərdi ki, beynəlxalq ictimai rəy, qlobal problemlər, iqlim dəyişikliyi kimi bütün bəşəriyyətə fəlakət gətirə biləcək bir məsələ nə onu, nə də rəhbərlik etdiyi qurumu narahat edir.

Birmənalı olaraq qeyd edə bilərik ki, ölkəmizin əleyhinə təbliğat aparıb qarayaxma kampaniyası aparanların arzuları gözlərində qaldı. COP29 konfransı öncədən elan olunduğu müddətdən bir gün də artıq keçirildi. Bakı dünyanın ekoloji paytaxtına çevrildi. Əldə olunan razılaşmaya əsasən, inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə iqlim tədbirləri üçün hər il 100 milyard dollar əvəzinə, 2035-ci ilə qədər 300 milyard dollar vəsait ayırmağı öhdəliklərinə götürdülər. Bu, Azərbaycanın çox böyük siyasi uğurudur. COP29 iştirakçısı olan onlarla dünya lideri, yüzlərlə siyasətçi, on minlərlə ictimai xadim, alim və jurnalist tədbirin uğurlarını və təşkilatçılıq səviyyəsini yüksək qiymətləndirdi, dünya mediası konfransın əhəmiyyətli nəticələri barədə xəbərlər yaydılar.

İqlim sammitinin iştirakçıları arasında BMT-nin Baş katibi Antonio Quterreş, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının iştirakçı ölkələrinin 80 prezidenti, vitse-prezidenti və hökumət başçıları iştirak etdi. Tədbiri 3 mindən çox xarici media nümayəndəsi işıqlandırdı.

Forumun açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev bildirdi ki, Azərbaycan COP29-da inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qarşılıqlı anlaşmanın əldə edilməsi üçün əlindən gələni edəcək. COP29 keçirildiyi müddətdə Bakı müxtəlif beynəlxalq aktorlar arasında siyasi, mədəni, enerji, ticarət və nəqliyyat körpüsü rolunu oynadı.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

COP29
Baku
Azerbaijan

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar

## Bakı COP-da tarix yazdı




**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın "yaşıl gündəliy"i fonunda gerçəkləşən və hazırkı çoxqütblü dünyada yekdilliklə bəşəriyyəti narahat edən məsələlərlə bağlı effektiv qərarların qəbul olunduğu iqlim konfransı kimi tarixə düşdü.**

Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu;

Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi;

İtki və Zərər Fondu tam şəkildə institutlaşdırıldı;

Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı;

Bu sadalananları və Bakı COP-da qəbul olunan digər vacib qərarları iqlim dəyişmələri ilə mübarizədə, sözün əsl mənasında, dönüş nöqtəsi adlandıra bilərik.

BMT-nin ölkəmizdə keçirilən bu nüfuzlu tədbiri sona çatandan sonra - noyabrın 24-də Prezident İlham Əliyev sosial şəbəkə hesablarında etdiyi paylaşımda da məhz bu məqama vurğu etdi: "Mən Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirirəm. COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və mən inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək".

### Dünya ölkəmizdə birləşdi

COP29 kimi nüfuzlu tədbirə layiqli evsahibliyi edən və yüksək təşkilatçılıq nümayiş etdirən Azərbaycan həm də dünyanı birləşdirən ölkə kimi beynəlxalq ictimaiyyətin gündəminə düşdü. 196 ölkədən gəlmiş 76 mindən çox iştirakçı, o cümlədən 80 prezident, vitse-prezident və baş nazir dünyanın ekoloji fəlakətdən xilası üçün Bakıda ortaq məxrəcə gəlməyi bacardı.

Ümumiyyətlə, işinə başladığı ilk gündən COP29 iqlim dəyişmələrinin yaratdığı fəsadlardan qurtulmaq üçün gerçək həll yollarının təklif edildiyi platforma oldu. Azərbaycanın paytaxtı Bakıda keçirilən qlobal miqyaslı tədbir sülhə və həmrəyliyə çağırışları, ümidverici nəticələri ilə həm də COP-un doğru ünvanda keçirilməsini bir daha nümayiş etdirdi.

"Azərbaycan bir ildən az müddət əvvəl beynəlxalq ictimaiyyətin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etməkdən şərəf duydu.

Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək", - deyə noyabrın 24-də etdiyi paylaşımda Prezident İlham Əliyev qeyd etdi ki, COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq.

Onu da qeyd edək ki, Qərbdə təşkilatlanmış antiazərbaycançı şəbəkə COP29-un Bakıda keçiriləcəyini bildiyi andan etibarən əlaltısı olan beynəlxalq KİV, təşkilat və QHT-lər vasitəsilə ölkəmizə qarşı qərəzli kampaniya aparmağa başlamışdı. Ancaq COP29-un uğurla keçirilməsi həmin riyakar və qərəzli qüvvələrə də tutarlı cavab oldu.

Dövlətimizin başçısı da yuxarıda sözügedən paylaşımında bildirib ki, genişmiqyaslı və planlaşdırılmış böhtan və qarayaxma kampaniyasına baxmayaraq, Azərbaycan iqlim danışıqlarında tarixi nəticələr əldə etməyə müvəffəq oldu.

### Real nəticələr

İki həftə ərzində Azərbaycanın paytaxtında iqlim dəyişmələrinin fəsadlarının aradan qaldırılması ilə bağlı keçirilən tədbirlər, aparılan müzakirələr və nəticədə qəbul edilən qərarlar dünyanın bu günü və gələcəyi üçün böyük ümidlər vəd etdi.

COP29-da mühüm əhəmiyyət kəsb edən Bakı Maliyyə Məqsədi barədə razılıq əldə edildi. Bakı Maliyyə Məqsədi hər il inkişaf etməkdə olan ölkələrə 1,3 trilyon dollar iqlim maliyyəsini yönəltməyi nəzərdə tutan yeni öhdəlikdir. Bu, inkişaf etmiş ölkələrin 2035-ci ilə qədər inkişaf etməkdə olan dövlətlər üçün hər il ən azı 300 milyard dollar məbləğində vəsaitin səfərbər olunmasına rəhbərlik etməsini nəzərdə tutan əsas hədəfləri müəyyən edir.

COP29-un ən əhəmiyyətli nəticələrindən biri də Paris Sazişinin 6-cı maddəsinin tam şəkildə işlək vəziyyətə gətirilməsi oldu. Bu, 2015-ci ildən bəri baş verən tarixi bir ilkdir. Qeyd edək ki, sözügedən maddə karbon emissiyalarını azaltmaq üçün beynəlxalq karbon bazarlarının yaradılmasına imkan verir. Bu bazarlar vasitəsilə bir ölkə başqa bir ölkədə həyata keçirilən emissiya azaldıcı layihələrdən karbon kreditləri ala bilər. Bu sistem ölkələrin dayanıqlı inkişafla bağlı milli məqsədlərinə daha sürətlə və sərfəli şərtlərlə çatmasına kömək göstərir.

Onu da bildirək ki, 2015-ci ildən bəri Paris Sazişinin 6-cı maddəsinin işlək vəziyyətə gətirilməsinə həm texniki, həm də siyasi amillər maneə törədirdi. Azərbaycan isə bununla bağlı bütün mövqeləri bir araya gətirib qızıl ortanı tapmaqla belə bir tarixi nəticənin əldə edilməsinə nail oldu.

BMT-nin Bakıda keçirilən iqlim konfransı zamanı İtki və Zərər Fondu da tam şəkildə institutlaşdırıldı. 2022-ci ildən təşəbbüs kimi irəli sürülmüş bu fondun əsas missiyası iqlim dəyişikliklərinin təsirlərinə ən çox məruz qalan ölkələrə maliyyə yardımının təmin olunmasıdır. İtki və Zərər Fondunun COP29 zamanı tam şəkildə institutlaşdırılması onun 2025-ci ildən əməli fəaliyyətə başlamasına, layihələri maliyyələşdirə bilməsinə geniş şərait yaradacaq.

Bundan başqa, COP29-un yekun qərarı ilə Qlobal Adaptasiya Hədəfi sənədi əsasında Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı. Həmçinin növbəti COP sessiyaları çərçivəsində adaptasiya üzrə yüksəksəviyyəli Bakı dialoqu çağrılacaq. Bu, inkişaf etməkdə olan ölkələrin maraqlarına uyğun olaraq, adaptasiya məsələsinin hər il COP-larda müzakirəsinə şərait yaradacaq.

Göründüyü kimi, BMT-nin qlobal iqlim konfransında yüksək təşkilatçılıq, layiqli evsahibliyi nümunəsi ortaya qoyan və beynəlxalq səviyyədə təqdir olunan Azərbaycan göstərdiyi xüsusi səylər sayəsində COP-un 29-cu sessiyasını iqlim dəyişmələrinin fəsadlarına qarşı ən effektiv mübarizə platformasına çevirdi.

Bir sözlə, dünyanın "yaşıl gələcəy"inin yol xəritəsi Bakıda cızıldı.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*















## Azərbaycanın özünün "yaşıl enerji"yə keçid strategiyası var

### Ölkəmizi bu yoldan heç bir qüvvə çəkindirə bilməz

COP29 ərəfəsində və tədbirin davam etdiyi günlərdə ölkəmizə qarşı aparılan qərəzli kampaniya açıq-aşkar düşmənçilik xarakteri daşıyırdı. Bunun da bir sıra səbəbləri var.

Bu üzdəniraq kampaniyanın güddüyü məqsədlərdən biri də Azərbaycanın neft-qaz sənayesinə zərbə vurmaq, təkcə ölkəmizin deyil, regionun, hətta Avropanın enerji təhlükəsizliyinə xidmət edən qlobal layihələrimizi gözdən salmaqdır. Bunları sıradan çıxardıqdan sonra isə bizə bu sahədə qeyri-real öhdəliklər qəbul etdirməkdir.

Azərbaycanın heç kəsin məsləhətinə ehtiyacı yoxdur. Azərbaycana yol göstərməyə heç kəsin həddi çatmaz və möhtərəm Prezidentimiz İlham Əliyevin dediyi kimi, bizə heç kəs təzyiq göstərə bilməz. Deyilənlər birbaşa elə neft-qaz, energetika sahələrinə də aiddir.

Dünyada tək-tək ölkələr var ki, enerji təhlükəsizliyini özü tam təmin etsin. Azərbaycan öz enerji təhlükəsizliyini təmin edib, üstəlik, regionun, hətta Avropanın enerji təhlükəsizliyinə də dəstək verir. Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisi ilə 1768 kilometr məsafə qət edən, Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 18 ildən çoxdur Azərbaycan neftini dünya bazarlarına çatdırır. Təxminən bir il ondan sonra Bakı-Tbilisi-Ərzurum kəməri Xəzərin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağından çıxarılan mavi yanacağı nəql etməyə başladı. Bununla da Azərbaycan dünyada həm də qaz ixracatçısı kimi tanındı. Əgər 2018-ci ilə qədər Azərbaycan qazını Gürcüstan və Türkiyə alırdısa, bu gün idxalçı ölkələrin sayı 10-a çatıb.

3500 kilometrlik "Cənub qaz dəhlizi" öz marşrutunu Səngəçal terminalından başlayaraq və Gürcüstanın, Türkiyənin, Yunanıstanın, Albaniyanın ərazilərindən, həmçinin Adriatik dənizinin altından keçərək təbii qazı İtaliyaya nəql edir. İndi "Cənub qaz dəhlizi" yeni interkonnektorlarla şaxələnərək Azərbaycan qazını daha uzaq ünvanlara aparır. 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bu sənədə əsasən, 2027-ci ilədək Azərbaycandan Avropaya qaz ixracı iki dəfə artmalıdır.

Hələ COP29 ərəfəsində Prezident İlham Əliyevin dediyi sözləri xatırlayaq. Dövlətimizin başçısı bu il aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən bu məsələlərə toxunmuşdu: "Neft və qazımız, həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq. 2022-ci ildə Avropa İttifaqı və Azərbaycan arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında anlaşma memorandumu imzalanıb və bizim Avropa İttifaqına təbii qaz təchizatımız artmaqdadır. Bu, Avropa Komissiyasının xahişi idi. Biz buna müsbət cavab verdik. Hazırda təbii qaz ixracımızın yarısı, xüsusən də 12 milyard kubmetri Avropa İttifaqının bazarına gedir. Qeyd edilən memoranduma əsasən, 2027-ci ilə qədər Avropa İttifaqına ixracımız 20 milyard kubmetrə çatmalıdır. Hamımız anlayırıq ki, bu geosiyasi durumda həmin məsələ Azərbaycanın məsuliyyətli olmağının təzahürüdür, çünki biz qaz hasilatımızın artırılmasına böyük həcmdə sərmayə yatırırıq və Avropaya yeni mənbələrdən daha çox qaz lazımdır. Eyni zamanda "yaşıl gündəliy"imiz hələ COP29 qərarından əvvəl icra olunmağa başlanıb... 2027-ci ilin sonuna qədər ümid edirik və əslində, müqavilələr imzalandığına görə əminik ki, 2000 meqavat günəş və "yaşıl enerji" imkanlarımız olacaq. Doqquz elektrik enerjisi stansiyası olacaq və 2030-cu ilə qədər əlavə 10 günəş və külək-enerjisi stansiyaları qurulacaq ki, onların gücü 5000 meqavat (5 giqavat) təşkil edəcək. Bu potensialdan istifadə edərək, biz qaz istehlakımızı əksər hissədə elektrik enerjisi istehsalı ilə əvəzləyəcəyik. Həcmlərə gəldikdə isə düşünürəm ki, Avropaya ən azı əlavə 5 milyard kubmetr qaz ixrac olunacaq".

Bəli, Azərbaycanın "yaşıl gündəliy"i indi hamıya məlumdur. Enerji keçidindəki nailiyyətlərimizi dünya COP29-da daha əyani şəkildə gördü.

Ölkəmizin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Bununla bağlı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində ardıcıl iş aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası dövlətimizin başçısı İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması ən vacib məsələlərdəndir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Ötən il Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin tikdiyi 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir. COP29 çərçivəsində Cəbrayıl rayonunda Birləşmiş Krallığın BP şirkəti ilə 240 meqavatlıq günəş-elektrik stansiyasının təməli qoyulub.

Beləliklə, bərpaolunan enerji layihələri getdikcə rayonlarımızı da əhatə edir. Naxçıvan MR-də, Neftçala, Biləsuvar, Abşeron və digər rayonlarımızda bərpaolunan enerji stansiyaları tikiləcək. 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 giqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi nəzərdə tutulur. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Qısası, biz indi Avropaya "yaşıl enerji" dəhlizi də çəkəcəyik. Xatırladaq ki, 2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. COP29 çərçivəsində isə Azərbaycanın, Qazaxıstanın və Özbəkistanın dövlət başçıları "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"i imzaladılar.

COP29-un Liderlər Sammitinin açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev demişdir: "Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik. Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir".

Dövlətimizin başçısı həmçinin qeyd etmişdir ki, ölkələrə qiymət başqa meyarlara görə verilməlidir: "Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. "Yaşıl gündəliy"imizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir. Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, - mən beynəlxalq medianı nəzərdə tuturam, - mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

COP29
Baku
Azerbaijan

# Azərbaycanın "yaşıl təşəbbüsləri"nə qlobal dəstək

## COP29 beynəlxalq ictimai rəydə məmnunluq doğurdu

**Bakının evsahibliyi etdiyi COP29 artıq tarixə çevrilmişdir. Dünyanın diqqət mərkəzində olan bu böyük beynəlxalq tədbir ictimai-siyasi müstəvidə qazandığı uğurlarla yanaşı, yüksək təşkilatçılıq bacarığı ilə də hələ uzun müddət xoş xatirə, habelə nümunə olaraq yaddaşlarda qalacaqdır.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) dünyanın 196 ölkəsindən 76000-dən çox insanın, prezident, vitse-prezident, baş nazir, eləcə də digər hökumət və dövlət adamlarının böyük coşqu ilə iştirak etdiyi bu beynəlxalq tədbir həm də müstəqil Azərbaycanın dünyaca böyük nüfuzunun təzahürü idi.

Təşkilatçılıq baxımından yüksək səviyyədə keçirilən bu mötəbər tədbirin görünən tərəflərindən biri də odur ki, ölkələr və xalqlararası əməkdaşlığın genişləndirilməsində, yeni tərəfdaşlıq əlaqələrinin qurulmasında mühüm rol oynadığı kimi, dünyanın gələcəyinə, siyasi, iqtisadi, ekoloji problemlərin araşdırılması və həlli yollarına da işıq salmış, bir sözlə, bəşəriyyətin sağlam gələcəyini, iqtisadi, sosial-mədəni tərəqqiyə inkişaf istiqamətlərini beynəlxalq aləmə bəyan etmişdir.

Azərbaycanda keçirilən COP29 tədbirinə 200 ölkənin yekdilliklə səs verməsi və bu qlobal tədbirin yüksək səviyyədə keçməsi ilk növbədə Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin uğurlu nəticəsidir. Rəsmi Bakının hər zaman götürdüyü öhdəliklərə, müqavilələrə sadiq qalması onun beynəlxalq imicinə müsbət təsir edir və ölkəmiz etibarlı tərəfdaş kimi dünyada tanınır.

Azərbaycanın COP29 kimi mötəbər tədbirə evsahibliyi etməsi bəzi Qərb dairələrinin və erməni lobbi qruplarının narahatlığına səbəb olmuşdu. Xüsusilə, Fransa və erməni lobbisinin təsirində olan Avropa Parlamenti bütün vasitələrlə çalışırdı ki, bu mötəbər tədbiri məhdudlaşdırsınlar və s. Lakin onların bu cəhdləri fiaskoya uğradı. Tərəqqipərvər dünya ictimaiyyəti onların çağırışlarına məhəl qoymadı. Azərbaycan isə təşkilatçılıq bacarığına olan inamını bir daha təsdiqlədi. Prezident İlham Əliyev bəzi qərəzli dairələrin əsassız iddialarını faktlarla ifşa edərək, onların ucuz kampaniyalarının heç bir nəticə vermədiyini üzə çıxardı.

Gəncə şəhər sakini, təqaüdçü Qasım Əliyev redaksiyamıza ünvanlandığı məktubunda ölkəmizin COP29-a tamamilə fərqli ovqatda evsahibliyi etdiyini diqqətə çatdıraraq, məmnunluq hissi ilə bildirir ki, tarixi Zəfəri, suverenliyini tam bərpa etməsi ilə qürurlanan qalib Azərbaycan COP29-un yüksək səviyyədə keçirilməsi üçün zəruri addımlar atdı: "Dünya siyasətçilərinin diqqətlə izlədiyi bu beynəlxalq tədbirdə başda Prezident İlham Əliyev olmaqla Azərbaycan regionda davamlı sülhün bərqərar olması üçün prinsipial mövqe nümayiş etdirdi. Rəsmi Bakı sülh təşəbbüsü ilə çıxış etdi, bu istiqamətdə konkret tədbirlər irəli sürdü. Azərbaycan həm də dünyaya göstərdi ki, sülh prosesi təkcə regional deyil, həm də qlobal əməkdaşlıqda prioritetdir".

Bakının Nəsimi rayonundan Teymur İsmayılzadə COP29-un yüksək səviyyədə keçirilməsində rayon sakinlərinin də böyük əməyi olduğunu diqqətə çatdıraraq tədbir günlərində şəhərin küçə, prospekt və meydanlarında, istirahət guşələrində səliqə-sahmana xüsusi fikir verildiyini, yeni çəmənliklərin, yaşıllıq zolaqlarının salındığını, restoran və hotellərdə qonaqlara qayğıkeşliklə yanaşıldığını bildirir. T.İsmayılzadə xüsusi olaraq diqqətə çatdırır ki, şəhərimiz səliqə-sahmanına, təmizliyinə görə də dünyada seçildi: "Şəhərdə demək olar ki, tullantılara rast gəlinmədi, bu ənənəni bundan sonra da davam etdirməliyik. Hər yerdə yaşıllıqların salınması sağlam ekoloji mühit yaradıb. Düşünürəm ki, COP29 kimi beynəlxalq tədbirin ölkəmizdə yüksək təşkilatçılıqla keçirilməsi dövlətimizin nüfuzunu daha da artırdı. Azərbaycan sağlam ekoloji mühitə töhfələr verir, salınan yaşıllıqlar, alternativ, bərpaolunan enerji mənbələri ilə təmiz və sağlam gələcək formalaşdırır".

Redaksiyamıza COP29 kimi qlobal tədbirin yüksək təşkilatçılıqla başa çatdığından bəhs edən məktub və teleqramlar, internet vasitəsilə göndərilən mesajlar çoxluq təşkil edir. Görünən odur ki, ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik Azərbaycan xalqını qürurlandıran bu məsələyə toxunaraq mətbuata açıqlamasında demişdir: "Azərbaycan dünyanın iqlim və ekoloji dəyişikliklərlə mübarizə sahəsində ən nüfuzlu tədbiri sayılan Tərəflər Konfransına (COP29) evsahibliyi edərək və təşkilatçılığı uğurla həyata keçirərək, böyük nailiyyətə imza atdı. Konfrans günlərində Azərbaycan yüksək təşkilatçılıq bacarığını, insan kapitalını və müasir texnoloji potensialını bir daha nümayiş etdirdi. Qeyd etmək istərdim ki, COP29-da 4500-dən çox gəncin könüllü kimi iştirak etməsi də beynəlxalq tədbirin yüksək səviyyədə keçirilməsinə öz töhfəsini verdi. Azərbaycanın beynəlxalq aləmdəki nüfuzlu mövqeyi onu son illərdə yüksəksəviyyəli konfranslar və beynəlxalq tədbirlər üçün əsas məkanlardan birinə çevirib.

Bakının bu mötəbər tədbirə uğurla evsahibliyi etməsi islam ölkələrinin bilik və təcrübəsinin daha da zənginləşməsinə öz töhfəsini verəcək".

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*





## COP29-da strateji qərarlar verildi

Azərbaycanın uğurla evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) bəşəriyyətin iqlim dəyişmələrinə qarşı mübarizəsinə yeni imkanlar açdı.

Geniş iştirakçı auditoriyasını bir araya gətirən COP29 çərçivəsində dünyanın ən aktual iqlim problemləri, o cümlədən unudulmuş prioritetləri gündəmə gətirildi. Müxtəlif panellər üzrə aparılan müzakirələrin mövzuları iqlim sahəsində dünyanı gözləyən təhlükələr, qlobal problemlər, onların qarşısının alınması yolları, "yaşıl enerji"yə keçid və digər mühüm məsələlər oldu.

Dünyanın ən böyük və mötəbər iqlim tədbirində bəşəriyyətin bu günü və sabahı üçün tarixi qərarlar qəbul edildi.

COP29 çərçivəsində qəbul edilən ən əhəmiyyətli qərarlardan biri hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin etməyi nəzərdə tutan yeni öhdəlik - Bakı Maliyyə Məqsədi (Baku Finance Goal) razılaşması oldu. Xatırladaq ki, iqlim maliyyəsinin əvvəlki həcmi 100 milyard dollar idi. Əhəmiyyətli artım məqsədyönlü işlərin həyata keçirilməsinə, böyük həcmdə qlobal investisiyaların yönəldilməsinə geniş imkanlar yaradacaq.

Bakı Maliyyə Məqsədi inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il ən azı, 300 milyard dollar vəsaitin səfərbər olunmasına liderlik etmək üçün inkişaf etmiş ölkələrin əsas hədəfini müəyyənləşdirir. Az inkişaf etmiş ölkələri və inkişaf etməkdə olan kiçik ada dövlətlərini dəstəkləməyə xüsusi diqqət yetirilən bu sənəddə əlçatanlıq və şəffaflıq haqqında müddəalar da əksini tapıb.

Paris Sazişinin 6-cı maddəsinin tam icrasına nail olunması COP29-un daha bir uğuru oldu. COP29 sədrliyi Paris Sazişinin 6-cı maddəsinə əsasən, yüksək inteqrasiya olunmuş karbon bazarları üzrə danışıqları yekunlaşdırmaq üçün on ilə yaxın gözləmə müddətinin başa çatdığını elan etdi. Bu, COP29 sədrliyinin əsas prioritetlərindən biri idi. 6-cı maddə ölkələrin öz iqlim məqsədlərinə nail olmaq üçün əməkdaşlıq edə biləcəyi yüksəkkeyfiyyətli və şəffaf karbon bazarlarının fəaliyyətə başlamasını təmin edir. Sözügedən beynəlxalq əməkdaşlıq sayəsində milli iqlim planlarının (NDC) icra məsrəflərinin illik 250 milyard ABŞ dolları həcmində azalacağı gözlənilir. Qənaət olunan bu vəsaitləri COP29 sədrliyi tərəfləri yüksək iqlim ambisiyalarına yönəltməyə çağırır. Gələn ilin fevral ayında təşkil olunacaq Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDC) növbəti mərhələsi qlobal istiləşməni 1,5 dərəcəyə qədər məhdudlaşdırmaq hədəfini qoruyub saxlamaq baxımından mühüm əhəmiyyətə malikdir. Ölkələrə iqlim planlarının ambisiyalarını artırmaq üçün vaxtında dəstək verən bu mühüm nailiyyət kritik məqamda əldə olunub.

COP29 sədrliyi bəyan etdi ki, 6-cı maddə üzrə yekdilliklə qəbul olunan qərarlar karbon bazarlarının ekoloji dayanıqlılığının, şəffaflığının və etibarlılığının real, artan, yoxlanılan və ölçülə bilən tullantıların azaldılması və çıxarılması yolu ilə təmin edilməsində və qlobal iqlim sərmayəsini artırmaq üçün onların böyük potensialının açılmasında əsas rol oynayacaq.

O da bildirildi ki, qəbul edilmiş təlimat və qaydalar karbon layihələrinin praktiki və inklüziv qalmasını təmin etmək, insan hüquqlarına hörmət etmək və davamlı inkişafı dəstəkləmək, ölkələrə və layihə tərtibatçılarına Paris Sazişi çərçivəsində inamla əməkdaşlıq etməyə imkan vermək üçün nəzərdə tutulub. Bu qərarların verilməsi onların təkamülünün sonu demək deyil. Tərəflər təcrübədən öyrəndikləri kimi 6-cı maddənin qaydalarına davamlı olaraq düzəliş edə bilərlər.

Məqsədi iqlim dəyişmələrinin təsirlərinə ən həssas ölkələrə maliyyə yardımı göstərmək olan İtki və Zərər Fondunun (Loss and Damage Fund) yaradılması Misirdə keçirilmiş COP27 zamanı qərara alındı. Birləşmiş Ərəb Əmirliklərində baş tutan COP28 zamanı fondun fəaliyyətə başlaması ilə bağlı qərar qəbul olunmuşdu. Tarixi qərar isə Bakıda verildi. Beləliklə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən qərar qəbul edildi. Bu, Prezident İlham Əliyev tərəfindən iqlim dəyişmələrinin fəsadlarının kiçik ada ölkələrinə törətdiyi çətinliklərin həlli məsələsinin COP29 Sədrliyinin prioriteti kimi müəyyən edilməsinə uyğundur.

COP29 çərçivəsində İtki və Zərər Fondu ilə bağlı bir sıra mühüm sazişlər imzalandı. Bunlar fondun İdarə Heyəti ilə Dünya Bankı arasında "Qəyyumluq Sazişi" və "Katibliyin Evsahibliyi Sazişi", eləcə də fondun İdarə Heyəti ilə ev sahibi ölkə olan Filippin Respublikası arasında imzalanmış "Ev Sahibi Ölkəyə dair Saziş"dir.

Verilən məlumata görə, fonda vəd edilən ümumi maliyyə dəstəyinin məbləği hazırda 731,15 milyon ABŞ dollarından artıqdır. Bu nailiyyətlərlə İtki və Zərər Fondu 2025-ci ildən etibarən layihələri maliyyələşdirə biləcək. Bu da Azərbaycanın COP29 sədrliyinin növbəti uğuru olaraq dəyərləndirilir.

COP29 çərçivəsində Paris Sazişinin 13-cü maddəsinə uyğun olaraq İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması, qabiliyyət quruculuğu sahəsində inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki dəstəyin göstərilməsinə dair qərar qəbul olundu. Həmin qərar Paris Sazişinin 13-cü maddəsi ilə yaradılan Zənginləşdirilmiş Şəffaflıq Çərçivəsinin həyata keçirilməsi, eləcə də inkişaf etməkdə olan ölkələr tərəfindən İkiillik Şəffaflıq Hesabatlarının hazırlanmasına maliyyə və texniki dəstəyin göstərilməsini əhatə edir. Sənəddə COP29 sədrliyinin təşəbbüsü olan Bakı Qlobal İqlim Şəffaflığı Platforması da əksini tapdı. Bu qərarda COP29 sədrliyinin iqlim şəffaflığı sahəsində həyata keçirdiyi tədbirlər, həmçinin iqlim şəffaflığına həsr olunmuş bir sıra forumlar və qabiliyyət quruculuğu təlimlərinin təşkili, COP29-un iqlim şəffaflığı sahəsində əsas irsi olan Bakı Qlobal İqlim Şəffaflığı Platformasının yaradılması tərəf dövlətləri tərəfindən alqışlandı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*






## Azərbaycandan Avropaya uzanan neft-qaz borularını "yaşıl enerji" xətləri əvəz edəcək

**Ölkəmizdə keçirilən möhtəşəm COP29-da dünya ölkələrinin ətraf mühitə mənfi təsir göstərən yanacaq növlərindən və sənaye sahələrindən imtina edilməsinin vacibliyi əsas mövzu oldu. Səbəbi məlumdur - dünyanın xilası alternativ enerjiyə keçməkdir, neft və qazın istifadəsindən imtina artıq sabahın yox, bugünün tələbidir.**

Düzdür, hələlik ənənəvi enerji vasitələrindən imtina mümkün deyil. Bunun üçün müəyyən zaman lazımdır. Azərbaycan neft-qaz ölkəsi olmasına baxmayaraq, bu prosesə aktiv şəkildə qoşulan ölkələrdəndir. Dövlətimizin bu sahədə apardığı məqsədyönlü siyasət dünya ölkələri tərəfindən də dəstəklənir. Çünki Azərbaycan təkcə özünün alternativ enerjiyə olan tələbatını ödəməklə kifayətlənmək istəmir. Hazırda əsas hədəflərimizdən biri də Avropaya "yaşıl enerji"ni ixrac etməkdir.

Ölkəmizdə bu məqsədə nail olmaq üçün xeyli iş görülüb, o cümlədən işğaldan azad olunan ərazilərdə 32 su-elektrik stansiyası tikilib, üstəlik, külək və günəş-elektrik stansiyalarının tikilməsi istiqamətində xarici şirkətlərlə danışıqlar aparılır. Bakı və Abşeron yarımadasında da külək və günəş elektrik stansiyalarının qurulması üçün böyük potensial mövcuddur. Bu potensialdan istifadə etmək yaxın gələcəyin yox, günümüzün reallığıdır.

Azərbaycan həm də Orta Asiyadan Avropaya "yaşıl enerji" ixracının təşəbbüsçüsüdür. Biz müəyyən dövrdən sonra Avropaya borularla neft-qaz ötürməsinin əvəzinə, "yaşıl enerji" xətlərinin çəkilməsinin şahidi olacağıq. Yəni bundan sonra da Azərbaycan Avropanın etibarlı enerji təminatçısı olacaq, amma "yaşıl enerji" təminatçısı.

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən sənayeləşmə siyasətinin əsas məqsədi postneft dövrünə hazırlıqdır. Ölkədə qeyri-neft sənayesinin inkişafı istiqamətində görülən işlər də bunu təsdiq edir. Hazırda ölkəmizdə yüzlərlə müəssisədə müxtəlif çeşidli sənaye məhsulları istehsal olunur. Həmin məhsullar daxili tələbatı ödəməklə yanaşı, xarici bazara ixrac da edilir.

Azərbaycanda yüksəkkeyfiyyətli məhsul istehsal etmək üçün sənaye parkları və sənaye məhəllələri şəbəkəsi yaradılır. İşğaldan azad olunan ərazilərdə iki sənaye parkı yaradılıb. Orada müəssisə yaratmaq istəyən rezidentlərin sayı günbəgün artır. Artıq fəaliyyətə başlayanları da var.

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən ölkə üzrə 53,3 milyard manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çox sənaye məhsulları istehsal edilmişdir. Məhsul istehsalı neft-qaz sektorunda 1,5, qeyri-neft-qaz sektorunda 8,7 faiz artmışdır.

Hesabat dövründə sənaye məhsullarının 64 faizi mədənçıxarma, 30,3 faizi emal, 4,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur. Sənayedə qeyri-dövlət sektorunun payı 81,1 faizə çatmışdır. Ümumi istehsalın 89,7 faizi sənaye məhsullarının istehsalı, 10,3 faizi sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

10 ayda emal sənayesində 16 milyard 147,3 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə içki istehsalında 18,1, tütün məmulatlarının istehsalında 14,3, qida məhsullarının istehsalında 8,7 faiz artım müşahidə olunmuşdur.

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 1 milyard 816,7 milyon manatlıq məhsul istehsal edilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əczaçılıq məhsullarının istehsalı 68,4, rezin və plastik kütlə məmulatlarının istehsalı 20,4, kimya sənaye məhsullarının istehsalı 10,3 faiz artmışdır.

Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində isə 1 milyard 145,4 milyon manatlıq məhsul istehsal olunmuşdur. Bu sektorda ən yüksək artım 5,2 dəfə olmaqla mis məftilin istehsalında qeydə alınmışdır.

Məlum olduğu kimi, kompüter, elektron və optik məmulatların, elektrik avadanlıqlarının istehsalı digər sahələrlə müqayisədə yeni sahədir. Buna baxmayaraq, 10 ay ərzində ölkə üzrə təkcə notbukların istehsalı 3,2 dəfə artmışdır.

Azərbaycanda iqtisadi sahədə aparılan islahatları təhlil etdikdə aydın görünür ki, öndəki illərdə əsas ixracımızı qeyri-neft-qaz məhsulları və "yaşıl enerji" təşkil edəcək. Çünki dünyanın tələbatı belə olacaq. Necə deyərlər, geriyə yol yoxdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

COP29 Baku Azerbaijan

# COP29-da birləşən dünya




COP29 Baku Azerbaijan

# Küveytdə Şuşaya həsr olunmuş böyük konfrans keçirilib





Azərbaycan Respublikasının Küveyt Dövlətindəki səfirliyi və Küveyt Milli Kitabxanasının birgə təşkilatçılığı ilə noyabrın 25-də "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı" adlı konfrans təşkil edilib.

AZƏRTAC xəbər verir ki, konfransda Küveytin hakim ailəsinin üzvləri, Küveyt Dövlətinin Səhiyyə, Təhsil və İnformasiya nazirliklərinin əməkdaşları, bu ölkənin ali təhsil ocaqlarının təmsilçiləri, ictimaiyyətin digər tanınmış simaları, yerli media nümayəndələri, Küveyt Dövlətində akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri və diplomatları, burada fəaliyyət göstərən türk məktəbinin müəllimləri və hərbçilər, habelə dost ölkədə yaşayan və təhsil alan Azərbaycan icmasının üzvləri iştirak ediblər.

Azərbaycanın Küveytdəki səfiri Emil Kərimov konfransdakı açılış nitqində 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi barədə məlumat verib. Diplomat Prezident İlham Əliyevin rəhbərliyi altında Şuşa şəhərinin qısa müddət ərzində yenidən bərpası, bu qədim yurdumuza həyatın qaytarılması, eyni zamanda tarix-mədəniyyət və dini abidələrin bərpa edilərək istifadəyə verilməsi istiqamətində aparılan intensiv işlər, Şuşanın beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin müsəlman ölkələri və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən yüksək dəyərləndirildiyini iştirakçıların diqqətinə çatdırıb.

Səfir Birinci vitse-prezident, ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən Şuşanın mədəni irsinin, mədəni, tarixi və dini abidələrinin bərpa etdirilməsini diqqətə alan islam dövlətlərinin yekdil qərarla Şuşa şəhərini 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan etdiklərini vurğulayıb.

E.Kərimov bu seçimi islam dünyasının Azərbaycana növbəti dəstəyinin və hörmətinin əlaməti kimi dəyərləndirdiyimizi, bunun islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsi olduğunu qeyd edərək, həmin qərarın islam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacağına əminliyini ifadə edib.

Diplomat bundan əvvəl də Azərbaycan şəhərlərinin bu şərəfli ada layiq görüldüyünü vurğulayaraq, 2009-cu ildə Bakı şəhərinin, 2018-ci ildə isə Naxçıvan şəhərinin də islam dünyasının mədəniyyət paytaxtı elan edildiyini bildirib.



Səfir eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyevin 21 noyabr 2023-cü il tarixli sərəncamı ilə Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildiyini də tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bu gün işğaldan azad olunan alınmaz qala, Qarabağın tacı, mədəniyyətimizin beşiyi Şuşamızın dirçəldiyini dilə gətirən səfir bu şəhərin Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən, o cümlədən islam sivilizasiyasının rəmzlərindən biri olduğunu deyib. O, bu gün Şuşa şəhərinin beynəlxalq tədbirlərə, böyük mədəniyyət layihələrinə evsahibliyi etdiyini və bu qədim şəhərimizdən dünyaya sülh, birlik və humanizm mesajları verildiyini bəyan edib.

Səfir Şuşa şəhərinin tarixindən söhbət açaraq, 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistanın işğalı altında olan torpaqlarımızın rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edildiyini və elə həmin ilin 8 noyabr tarixində 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhərinin düşməndən geri alındığını qeyd edib. Şuşa şəhərinin azad edilməsinin həm də dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan olduğunu deyən diplomat xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu misilsiz Qələbənin - 8 Noyabr tarixinin Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edildiyini bildirib.

Səfir Şuşa şəhərində çoxsaylı yerli və beynəlxalq əhəmiyyətli tədbir keçirilməsinə toxunaraq, bu ilin may ayının 11-də Şuşada VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin rəsmi açılış mərasimində dövlət rəsmilərinin, ICESCO-ya üzv ölkələrin nümayəndə heyətləri və digər qonaqların iştirak etdiklərini və bir çox müsəlman ölkəsinin kollektivlərinin Cıdır düzündə öz məharətlərini göstərdiklərini, bunun bütün islam dünyası üçün birlik bayramı, həmrəylik şənliyi olduğunu deyib.

Ölkəmizlə islam dünyası arasında dərin dini, tarixi və mədəni bağların mövcud olduğunu bildirən səfir Azərbaycan və İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq etdiyini və dövlətimizin həmin əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdırıb və hazırda müsəlman dövlətləri ilə ölkəmiz arasındakı münasibətlərin durmadan inkişaf etdiyini vurğulayıb.

Səfir 30 il əvvəl öz doğma yurdlarından köçkün düşmüş insanların evlərinə layiqli və təhlükəsiz qayıdışının təmin edilməsi məqsədilə dövlətimiz tərəfindən Böyük qayıdış proqramının hazırlandığını diqqətə çatdıraraq, Qarabağ və Şərqi Zəngəzur rayonlarının Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji zonası" elan edildiyini və bunun qlobal çağırışlara və müasir inkişaf tendensiyalarına uyğun strateji yanaşmanın məhsulu olduğunu bildirib.

Konfransda Küveyt Milli Kitabxanasının direktoru Siham əl-Əzmi, Türkiyə Respublikasının Küveyt Dövlətindəki səfiri Tuba Nur Sönməz, İran İslam Respublikasının Küveyt Dövlətindəki səfiri Məhəmməd Tütüncü, Küveyt Alternativ Tibb Cəmiyyətinin sədri, araşdırmaçı doktor Zaben Əl-Uteybi və Küveyt Dövlətinin "Mübarək Əl-Kəbir" Sağlamlıq Mərkəzinin direktoru doktor Valid əl-Buseyri (1974-cü ildə Neft Elmləri İnstitutunun tələbəsi olmuşdur) çıxış ediblər.

Türkiyənin Küveytdəki səfiri Tuba Nur Sönməz otuz ilə yaxın müddət ərzində Azərbaycan və daha geniş türk və islam dünyası üçün böyük mədəni, tarixi və simvolik əhəmiyyətə malik olan regionun münaqişələr nəticəsində iflic vəziyyətinə düşdüyünü təəssüf hissi ilə qeyd edib. O, bu baxımdan konfransın Azərbaycanın ağır döyüşlərdə qazandığı Qələbənin göstəricisi olmaqla yanaşı, həm də bu torpaqların mədəni və tarixi əhəmiyyətinin təntənəsi olduğunu vurğulayıb.

Şuşada Azərbaycan və Türkiyə dövlət başçıları tərəfindən Şuşa Bəyannaməsinin imzalanmasına toxunan türkiyəli diplomat bu sənədin xalqlarımız arasında ikitərəfli münasibətləri siyasi, iqtisadi, müdafiə, mədəniyyət və digər sahələrdə əməkdaşlığı əhatə edən formal müttəfiqlik səviyyəsinə yüksəltdiyini vurğulayıb. O, Türkiyənin müttəfiq dövlət kimi Şuşanın və Qarabağın inkişafı və yenidən qurulması üçün hərtərəfli dəstək verdiyini qeyd edib.

İran İslam Respublikasının Küveyt Dövlətindəki səfiri Məhəmməd Tütüncü Azərbaycanın mənzərəli dağlarında yerləşən Şuşanın tarix, mədəniyyət və ənənələrlə zəngin bir şəhər olduğunu bildirib. O, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsinin onun incəsənət, musiqi və mədəni mübadilə mərkəzi kimi davamlı irsini əks etdirdiyini qeyd edib.

Küveytli natiqlər də Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərinin islam mədəniyyətinə verdiyi töhfələrdən söz açıblar və bunun nəticəsi olaraq onun 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" seçildiyini sevinc hissi ilə qeyd ediblər.

Onlar nitqlərində islam aləminin ayrılmaz tərkib hissəsi olan Azərbaycan xalqının nə qədər böyük tarixə, mədəniyyətə, incəsənətə malik olduğunu qürur hissi ilə qeyd ediblər və xalqlarımız arasında daha çox xoş münasibətlərin yaradılmasını arzulayıblar.

Konfransın sonunda Şuşa şəhərinin tarixinə və mədəniyyətinə və orada keçirilən tədbirlərə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Daha sonra qonaqlar tədbir çərçivəsində təşkil olunmuş müxtəlif sahələri əhatə edən kitab, əl işləri və Azərbaycan məhsullarına aid sərgi ilə tanış olublar.

Səfirliyin dəstəyi ilə Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi barədə məlumatları ehtiva edən kitabça hazırlanıb və orada Şuşa şəhərinin mədəniyyət abidələrini, tarixi binalarını, kulinariyasını, füsunkar təbiətini, işğaldan azad edildikdən sonra burada aparılan bərpa və quruculuq işlərini və mədəni tədbirləri əks etdirən fotoşəkillər yerləşdirilib.

Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunmasına həsr olunmuş konfrans barədə məlumatlar Küveytin ərəbdilli "əl-Nahar", "əl-Qabas", "əl-Siyasa", "əl-Ray", "əl-Ənba", "əl-Cəridə" qəzetlərində və www.q8-press.com elektron xəbər portalında və həmin medialarının sosial şəbəkələrində geniş işıqlandırılıb.

# Sumqayıt Kimya Sənaye Parkının rezidenti yeni məhsul istehsalına başlayıb

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "Azərbaycan Vanhong Ceramics Co." MMC tərəfindən yeni məhsul istehsalına başlanılıb.



İZİA-dan AZƏRTAC-a bildirilib ki, zavodda ilk dəfə olaraq qəlibli keramik plitələrin (sürüşməyən keramoqranit) istehsalına başlanılıb.

Hazırda yeni məhsulun 3 ölçüdə (60x60 sm, 60x120 sm, 30x60 sm) istehsalı həyata keçirilir. İstehsal olunan məhsullar əsasən evlərin çöl sahələrində istifadə edilir.

Qeyd edək ki, Çin kapitallı "Azərbaycan Vanhong Ceramics Co." MMC 2023-cü ilin oktyabr ayında fəaliyyətə başlayıb. İndiyədək müəssisədə 60 milyon manatdan çox məhsul satışı həyata keçirilib ki, bunun da 1,85 milyon manatlıq hissəsi ixracın payına düşür.

İstehsal olunan məhsullar Rusiya, Belarus, Gürcüstan, Özbəkistan və Qazaxıstana ixrac edilib.

# Əbu Dabidə Ərzaq Təhlükəsizliyinə dair Qlobal Sammit işinə başlayıb

Dünən Əbu Dabidə Ərzaq Təhlükəsizliyinə dair Qlobal Sammit işinə başlayıb. Tədbir noyabrın 28-nə qədər davam edəcək Qlobal Qida Həftəsi çərçivəsində baş tutacaq.

GLOBAL FOOD SECURITY SUMMIT
القمة العالمية للأمن الغذائي

AZƏRTAC BƏƏ-nin WAM xəbər agentliyinə istinadla bildirir ki, sammitdə dünya ölkələrindən 21 nazir və ərzaq təhlükəsizliyinə cavabdeh dövlət qurumlarının nümayəndələrinin iştirakı gözlənilir.

Sammitdə ərzaq təhlükəsizliyi üzrə dayanıqlı həll yolları müzakirə ediləcək, eləcə də qlobal əməkdaşlıq məsələlərinə, ölkələr və təşkilatlar arasında birgə səylərin artırılması, ərzaq təhlükəsizliyi sistemlərinin gücləndirilməsi və aclığa qarşı mübarizə mövzularına diqqət yetiriləcək.

Sammitdə 80-dən çox ekspert çıxış edərək iqlimə uyğun "ağıllı kənd təsərrüfatı", aqrotexnika və tədarük zəncirləri də daxil olmaqla, ərzaq təhlükəsizliyi sahəsində ən son yeniliklərdən danışacaq.

Sammitin əsas hədəfi gələcəkdə çağırışlara cavab verə biləcək dayanıqlı qida sistemləri qurmaq üçün praktik strategiyalar hazırlamaq, ortaq problemləri həll etmək və hər kəs üçün ərzaq təhlükəsizliyini artırmaq məqsədilə qlobal tərəfdaşlıqlar yaratmaqdır. Bundan əlavə, Qlobal Qida Həftəsi çərçivəsində Əbu Dabi Beynəlxalq Qida Sərgisi keçiriləcək. Sərgidə 70-dən çox ölkədən ərzaq və içki sektorunda fəaliyyət göstərən 700-dək şirkətin iştirakı gözlənilir. Bu sərgidə qida texnologiyaları və dayanıqlı ərzaq sənayesindəki ən son yenilikləri təqdim edən aparıcı qlobal markalar bir araya gələcək.

Sərgi qida sənayesində ticarət əlaqələri qurmaq və bilik mübadiləsi üçün hərtərəfli bir platformadır. Burada Gələcəyin Qida Muzeyi də təqdim ediləcək. Bu təşəbbüsü israf olunmayan qida təcrübələrini və innovasiyalarını araşdıran İspaniyanın Plat İnstitutu irəli sürüb.

Qlobal Qida Həftəsi çərçivəsində təşkil ediləcək Əbu Dabi Qəhvə Platformasında isə qəhvə mədəniyyəti ilə bağlı seminarlar, müzakirələr və canlı müsabiqələr keçiriləcək.

"Michelin ulduzu"na layiq görülmüş aşpazlar Qlobal Qida Həftəsi çərçivəsindəki "Gourmet" sərgisində öz kulinariya bacarıqlarını nümayiş etdirəcək, qlobal dadları dayanıqlı və innovativ təcrübələrlə birləşdirəcəklər.

Eyni zamanda həftə çərçivəsində baş tutacaq 10-cu Əbu Dabi Xurma Sərgisi təchizatçılar, istehsalçılar, mütəxəssislər və bu sahəyə marağı olan ziyarətçilər üçün ideal bir əlaqə platformasına çevriləcək. Sərgidə xurma istehsal edən 20-dən çox ölkə iştirak edəcək.

Həmçinin qida və içki tədarükçülərini böyük alıcılarla əlaqələndirmək üçün nəzərdə tutulan Qonaq Alıcı Proqramı aviasiya, mehmanxana və digər sektorlarda ərzaq təminatı sahələrində ticarət əlaqələri qurmaq üçün bənzərsiz imkanlar təqdim edəcək.

Sərgilərin ziyarətçiləri Birləşmiş Ərəb Əmirlikləri Universiteti və digər beynəlxalq akademik institutların əməkdaşlarının moderatorluğu ilə təşkil ediləcək sessiya və müzakirələrdə iştirak etmək, bununla da ərzaq təhlükəsizliyi ilə bağlı innovasiyalar sahəsində gələcəyin liderlərinin fikirləri ilə tanış olmaq imkanı əldə edəcəklər.

Qlobal Qida Həftəsi BƏƏ-nin vitse-prezidenti, Nazirlər Kabineti başçısının müavini, Əbu Dabi Kənd Təsərrüfatı və Ərzaq Təhlükəsizliyi təşkilatının İdarə Heyətinin sədri Şeyx Mansur bin Zayed Al Nəhyanın himayəsi ilə keçirilir.

# Azərbaycan Rusiyada Beynəlxalq Ticarət və Logistika Forumunda təmsil olunacaq

Azərbaycan 2024-cü il dekabrın 5-6-da Ulyanovsk şəhərində "Rusiyada işgüzar mühit" biznes-forumu çərçivəsində keçiriləcək "Orta Volqa - Xəzər dənizi" Beynəlxalq Ticarət və Logistika Forumunda təmsil olunacaq.




AZƏRTAC forumun təşkilatçılarına istinadla xəbər verir ki, tədbir Rusiya ilə Xəzər regionu ölkələri, o cümlədən Azərbaycan, Türkmənistan, İran və İraq arasında ticarət-iqtisadi əlaqələrin inkişafına yönəlib.

Forumun əsas məsələlərindən biri Orta Volqa limanlarından malların Fars körfəzinə birbaşa çatdırılmasını təmin edən "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsi olacaq ki, bu da ticarət əlaqələrinin və logistika infrastrukturunun möhkəmləndirilməsinə imkan verəcək.

Forum cənub ölkələrinə dəniz, çay, dəmir yolu, hava və avtomobil nəqliyyatı ilə yük daşıyan aparıcı nəqliyyat və logistika şirkətlərini bir araya gətirəcək. Tədbirdə həmçinin maliyyə xidmətləri göstərən şirkətlər, gəmi sahibləri, habelə Rusiya, İran İslam Respublikası, Azərbaycan, Türkmənistan, Hindistan, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanının liman idarələrinin nümayəndələri iştirak edəcəklər. "Orta Volqa - Xəzər dənizi" forumu region ölkələri arasında logistika və yüklərin daşınması sahəsində təcrübə mübadiləsi və əməkdaşlığa dair yeni imkanların tapılması üçün mühüm platformaya çevriləcək. O, infrastruktur və ticarət sahəsində inteqrasiyanın inkişafına, qarşılıqlı ticarət axınının həcminin artırılmasına və biznes mühitinin yaxşılaşdırılmasına kömək edən nəqliyyat dəhlizlərinin təkmilləşdirilməsinə yönəlib.

Forum Ulyanovsk vilayəti hökuməti və "Afanasi Nikitin" Assosiasiyası tərəfindən təşkil olunacaq.

# Azərbaycan və Rusiyanın Dağıstan Respublikası bağçılıq sahəsində layihələr həyata keçirəcəklər

Azərbaycan şirkəti Rusiyanın Dağıstan Respublikasında tingçilik sahəsi və meyvə bağı salacaq.



AZƏRTAC yerli mediaya istinadla xəbər verir ki, Rusiyanın Dağıstan Respublikası üzrə Kənd Təsərrüfatı Mərkəzi ("Rosselxoztsentr") Azərbaycanın İSFA şirkətinin nümayəndələri ilə müqavilə imzalayıb və bu sənəd çərçivəsində tərəflər bağçılıq sahəsində birgə layihələrin həyata keçirilməsi planlarını müəyyən ediblər.

Azərbaycan şirkəti Dağıstanda tingçilik sahəsi yaratmaq, o cümlədən 53 hektar ərazidə meyvə - alça, nektarin, albalı, zeytun, şaftalı bağları salmaq niyyətindədir.

"S.R.Plast" şirkətinin təsisçisi Ramin Seyfullayev bildirib ki, Azərbaycan Dağıstanda yüksək texnologiyalı tingçilik sahəsinin yaradılmasına, eləcə də zeytun bağının salınmasına investisiya qoymaq niyyətindədir.

Filialın rəhbəri Janna Kazanbiyevanın sözlərinə görə, Rusiya Kənd Təsərrüfatı Mərkəzi tinglikdə istifadə olunan tinglərin (əsasən albalı) sertifikatlaşdırılması xidmətləri göstərəcək.

# Azərbaycanın mədəniyyət naziri BMT Sivilizasiyalar Alyansının tədbirində iştirak edib



Noyabrın 26-da Portuqaliyanın Kaşkayş şəhərində BMT Sivilizasiyalar Alyansının (UNAOC) "Sülhdə birlik: etimadın bərpası, gələcəyin yenidən formalaşdırılması" mövzusunda X Qlobal Forumu işə başlayıb. Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli X Qlobal Forumun açılışında iştirak edib.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, alyansın yaranmasının 20 illiyinə həsr edilən forumun açılış mərasimində BMT-nin Baş katibi Antonio Quterreş, Portuqaliyanın Prezidenti Marselo Rebelo de Souza, İspaniya Kralı VI Filip, Türkiyənin xarici işlər naziri Hakan Fidan, BMT Baş katibinin müavini, Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos və digər qonaqlar iştirak ediblər.

Forum çərçivəsində "Bəşəriyyət naminə 20 illik dialoq: keçdiyimiz dərslər üzərində düşünmək və irəliyə doğru yol açmaq" mövzusunda UNAOC Nazir Dostlar Qrupunun yüksəksəviyyəli görüşü və "Dini məkanların mühafizəsi: çoxtərəfli yanaşma" adlı qlobal konfrans təşkil olunacaq.

# Latviya səfiri COP29-un uğurla başa çatması münasibətilə Azərbaycanı təbrik edib



"COP29-un uğurla başa çatması münasibətilə Azərbaycanı təbrik edirəm. Azərbaycana belə mühüm tədbirə peşəkarcasına evsahibliyi etdiyi üçün təşəkkürümü bildirirəm. Latviya ilə Azərbaycan arasında fəal şəkildə artan əməkdaşlığı yüksək qiymətləndiririk. İl ərzində hər iki ölkəyə siyasi və işçi səviyyədə çoxlu sayda səfər oldu, o cümlədən Latviya Parlamenti sədrinin, parlament üzvlərinin və dövlət nümayəndələrinin səfərlərini qeyd etmək istərdim. Həm Azərbaycanda, həm də Latviyada bir çox mədəni layihələrin həyata keçirildiyinin şahidi olduq. Latviya və Azərbaycan əlaqələrinin daha da gücləndirilməsində iştirak edən hər kəsə təşəkkür edirəm".

AZƏRTAC xəbər verir ki, bu sözləri Latviya Respublikasının elan olunmasının 106-cı ildönümü münasibətilə keçirilən rəsmi qəbulda Latviyanın Azərbaycandakı səfiri Edqars Skuya söyləyib.

Azərbaycanın Latviya üçün mühüm iqtisadi tərəfdaş olduğunu diqqətə çatdıran Edqars Skuya həmçinin əlavə edib: "Ticarət dövriyyəsi ötən son iki il ərzində artıb. Hər iki ölkə ixrac, idxal və bir çox sahədə ticari və iqtisadi əməkdaşlığın artırılmasında maraqlıdır. Dövlətlərarası Komissiyanın gələn il keçirilməsi planlaşdırılır. Bundan əlavə, bizim 14 bələdiyyə ilə fəal əməkdaşlığımız mövcuddur. Biz gənclər arasında Latviyada təhsilə marağın artdığını görürük".

O öz ölkəsində və bütün regionda sülh və stabilliyin yanında olduqlarını və hər bir ölkənin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərini qeyd edib.

# QMİ sədri BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi ilə görüşüb

Noyabrın 25-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə BMT-nin Sivilizasiyalar Alyansının 10-cu Qlobal Forumu çərçivəsində Portuqaliyada Alyansın ali nümayəndəsi Migel Anxel Moratinosla görüşüb.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Migel Anxel Moratinos A.Paşazadənin Portuqaliyanın Kaşkayş şəhərində keçirilən BMT-nin Sivilizasiyalar Alyansının "Sülhdə birlik: etimadın bərpası, gələcəyin yenidən formalaşdırılması" mövzusunda 10-cu yubiley Qlobal Forumunda iştirak etməsini yüksək dəyərləndirərək, QMİ sədrinin müdrik fikir və yanaşmalarının böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Yenicə başa çatmış COP29 münasibətilə səmimi təbriklərini Azərbaycan Prezidentinə çatdırmağı şeyxülislamdan xahiş edən M.A.Moratinos BMT tədbirinin uğurlu təşkil olunduğunu vurğulayıb. Bildirib ki, müxtəlif fikirlərə baxmayaraq, COP29 Azərbaycanın evsahibliyi ilə yüksək səviyyədə baş tutdu.

COP29 çərçivəsində Dini Liderlərin Qlobal Sammitinin uğurla keçirilməsi münasibətilə A.Paşazadəni təbrik edən M.A.Moratinos şəxsən iştirak etdiyi bu tədbirlə bağlı müxtəlif iştirakçılardan və nümayəndə heyətlərindən müsbət rəylər aldığını məmnunluqla vurğulayıb. O, dini liderlərin Qarabağa səfərinin olduqca böyük əhəmiyyət kəsb etdiyini deyib. Qeyd edib ki, hər iki qlobal tədbir Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasətinin, qlobal təfəkkürünün məntiqi nəticəsi, uğurlu təzahürüdür.

Şeyxülislam A.Paşazadə öz növbəsində M.A.Moratinosa qlobal tədbirdə iştirakına görə minnətdarlığını ifadə edib. Həmçinin BMT-nin Baş katibi Antonio Quterreşə COP29 çərçivəsində Dini Liderlərin Qlobal Sammitinə ünvanlı videomüraciətinə görə səmimi təşəkkürlərini bildirib.

M.A.Moratinos şeyxülislamın bu təşəkkürlərini X Qlobal Sammit çərçivəsində BMT Baş katibinə şəxsən bildirmək imkanına malik olacağını qeyd edib. O, şeyxülislamın "Bəşəriyyət naminə iyirmiillik dialoq: keçdiyimiz dərslər üzərində düşünmək və irəliyə doğru yol açmaq" mövzusunda ilk plenar toplantıda və "Dini məkanların mühafizəsi üzrə qlobal konfrans"da çıxışlar edəcəyinə toxunaraq, plenar toplantının mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb.

BMT-nin Sivilizasiyalar Alyansının rəsmisinin Qarabağı tərk etmiş ermənilərin əcdadlarının qəbirlərini ziyarət edə biləcəkləri ilə bağlı sualına cavab olaraq bildirib ki, bu məsələ yalnız Azərbaycanın qanunvericiliyi çərçivəsində həllini tapa bilər.

Şeyxülislam BMT-nin Sivilizasiyalar Alyansının yaranmasının iyirmi illiyinə həsr olunmuş X Qlobal Forumda gələcəkdə siyasi liderlərlə yanaşı, dini liderlərin də birgə iştirak edəcəkləri qlobal forum keçirilməsi və Alyans çərçivəsində dini liderlərin Məşvərət Şurasının yaradılması barədə təkliflərini irəli sürüb və M.Moratinos bu təklifləri təqdir edib, bəyəndiyini deyib.

# Azərbaycan BMT-nin Sivilizasiyalar Alyansının 10-cu Qlobal Forumunda təmsil olunacaq

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının (UNAOC) noyabrın 25-27-də Portuqaliyanın Kaşkayş şəhərində keçiriləcək 10-cu Qlobal Forumunda iştirak edəcək.




Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə UNAOC-un Dostlar Qrupunun 160 üzvünün, siyasi liderlərin, beynəlxalq və regional təşkilatların nümayəndələrinin, dini liderlərin və din xadimlərinin iştirakı nəzərdə tutulur.

Forumda "Sülh birliyi: İnamın bərpası, gələcəyin yenidən qurulması: bəşəriyyət naminə iyirmiillik dialoq ətrafında müzakirələr" mövzusunda dünyada etimad və həmrəyliyin bərpa edilməsinə, sülhə və təhlükəsizliyə dair qlobal problemlərin müzakirəsi planlaşdırılır.

# UNICEF-in nümayəndələri Naxçıvanda səfərdədirlər

BMT-nin Uşaq Fondunun (UNICEF) nümayəndələri Naxçıvan Muxtar Respublikasında səfərdədirlər.




Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfərin əsas məqsədi muxtar respublikada immunizasiya proqramının həyata keçirilmə səviyyəsini qiymətləndirməkdir.

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Samiq Sadıxov ilə UNICEF-in Azərbaycan nümayəndəliyinin Səhiyyə və Qidalanma Proqramının rəhbəri Töhfə Cəmilova və Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Afaq Əliyeva arasında görüş keçirilib. Görüş zamanı tərəflər regionda immunizasiya proqramlarının mövcud vəziyyəti, əhalinin vaksinasiya ilə əhatə olunma səviyyəsi barədə fikir mübadiləsi aparıblar. Eyni zamanda qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və immunizasiya ilə bağlı gələcək addımların müəyyənləşdirilməsi məqsədilə müzakirələr aparılıb.

# *COP29:* Azərbaycanın qlobal liderliyinin və təşkilati səriştəsinin parlaq nümunəsi

2024-cü ildə Azərbaycan dünya arenasında növbəti əlamətdar uğura imza atdı. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ölkəmizdə yüksək səviyyədə təşkil olunaraq həm məzmun, həm də təşkilati aspektlər baxımından tarixə düşdü. Bu tədbir Azərbaycanın beynəlxalq iqlim siyasətində liderlik mövqeyini təsdiqləməklə yanaşı, təşkilati səriştəsini və inklüziv yanaşmasını da nümayiş etdirdi. Həmin uğurların əsas məqamları və onların Azərbaycan üçün yaratdığı geniş perspektivlərin təhlilinə nəzər salaq.






## Qlobal səviyyədə təşkilati mükəmməllik nümunəsi

COP29-un əsas mövzusu olan enerji keçidinə, həmçinin iqlim maliyyəsinə həsr edilmiş müzakirələrdə Azərbaycan dünya ictimaiyyətinə müasir və realist bir model təqdim etdi. Bu konfrans çərçivəsində Prezident İlham Əliyev iqlim dəyişikliyinə qarşı mübarizədə ölkəmizin qarşıya qoyduğu prioritetləri bəyan edərək əsasən aşağıdakı məqamları vurğuladı:

● "Yaşıl enerji" strategiyası. Azərbaycanın enerji sektorunda yenilənə bilən mənbələrə keçid prosesini sürətləndirməsi. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur ərazilərinin "Yaşıl enerji zonası" olaraq təqdim edilməsi dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandı.

● Transregional əməkdaşlıq. Azərbaycanın Avropa, Orta Asiya və Yaxın Şərqlə birgə enerji layihələri vasitəsilə strateji tərəfdaşlıq qurması konfrans iştirakçılarında heyranlıq doğurdu.

Bakı şəhərində təşkil olunan tədbir qlobal səviyyədə təşkilati mükəmməllik nümunəsi oldu. Tədbirin keçirildiyi Bakı Olimpiya Stadionunda qurulan innovativ ekoloji məkanlar, sıfır tullantı prinsiplərinə əməl olunması və karbon emissiyasının minimallaşdırılması tədbirin əsas üstünlükləri sırasında idi. Konfransın ən vacib məqamlarından biri əlilliyi olan şəxslər üçün inklüziv mühitin yaradılması oldu. Azərbaycan bu sahədə beynəlxalq standartlara tam uyğun şəkildə tədbirlər gördü:

● Konfransda işarət dili tərcüməçiləri, taktil xəritələr və əlil arabası istifadəçiləri üçün xüsusi nəqliyyat xidmətləri təmin edildi.

● Xüsusilə əlilliyi olan könüllülərin prosesdə fəal iştirakı Azərbaycanın sosial siyasətinin humanistliyini nümayiş etdirdi.

## Dünyanın baxış bucağı. COP29 həm müzakirə, həm də liderlik modeli

COP29 Azərbaycanı beynəlxalq səviyyədə həm müzakirə platforması, həm də liderlik modeli kimi tanıtdı. Bir çox iştirakçı dövlətin nümayəndələri Azərbaycanın təşəbbüslərini yüksək qiymətləndirdilər. Avropa və Asiya ölkələrinin nümayəndələri Azərbaycanın enerji tranziti sahəsindəki əməkdaşlıq perspektivlərini xüsusi olaraq vurğuladılar. Konfrans çərçivəsində Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi, İtki və Zərər Fondu tam şəkildə institutlaşdırıldı, Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı.

COP29 Azərbaycanın turizm və investisiya potensialını artırmaqla yanaşı, ölkənin qlobal enerji bazarındakı mövqeyini möhkəmləndirdi. Konfrans çərçivəsində enerji layihələri üçün ilkin razılaşmalar əldə olundu, "Yaşıl enerji" sahəsində birgə istehsal üçün beynəlxalq tərəfdaşlarla 5 əməkdaşlıq müqaviləsi imzalandı. Azərbaycanın təşkilati bacarığı, mədəni irsi və qonaqpərvərliyi yüksək qiymətləndirildi. Bu, ölkəmizin beynəlxalq arenadakı mövqeyini daha da gücləndirdi. Konfrans Azərbaycanın daxili iqlim strategiyasına da təkan verdi. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin ekoloji bərpası çərçivəsində "ağıllı şəhər və kənd" konsepsiyalarının tətbiqi genişləndirildi.

## Azərbaycan və COP29: Qlobal nüfuzun zirvəsi

COP29 Azərbaycan üçün sadəcə bir beynəlxalq tədbir deyil, həm də ölkəmizin qlobal liderlik qabiliyyətinin nümayişi oldu. Bu konfrans iqlim dəyişikliyi ilə bağlı problemlərin həllinə töhfə verməklə yanaşı, Azərbaycanın iqtisadi, sosial və siyasi sahələrdə gələcək inkişafı üçün möhkəm bir platforma yaratdı. Dünya Azərbaycanın bu uğurunu gördü və bunu yüksək qiymətləndirdi. Azərbaycanın qlobal liderlik rolunu davam etdirməsi iqlim dəyişikliyi ilə mübarizədə, yeni perspektivlər açır və bu, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır:

● COP29 çərçivəsində Azərbaycanın təşəbbüsü ilə "yaşıl enerji" sahəsində 5 beynəlxalq əməkdaşlıq müqaviləsi imzalanıb.

● Konfransın təşkilində sıfır tullantı prinsiplərinə əməl olunub və əlilliyi olan şəxslər üçün tam inklüziv mühit yaradılıb.

● Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" olaraq təqdim edilməsi beynəlxalq səviyyədə rəğbət qazanıb.

● Konfransda Azərbaycanın "ağıllı şəhər və kənd" konsepsiyaları geniş müzakirə edilib və beynəlxalq diqqət qazanıb.

● Bakı Olimpiya Stadionunda təşkil olunan tədbir sıfır karbon emissiyası ilə tarixə düşüb.

● COP29 çərçivəsində iqlim maliyyəsinə dair konkret həllər üzrə qlobal səviyyədə konsensus əldə olunub.

● Konfransın keçirilməsi Azərbaycanın turizm və investisiya potensialını əhəmiyyətli dərəcədə artırıb.

● Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzur ərazilərinin bərpasında innovativ yanaşmaları ön plana çəkib.

● Tədbirdə müxtəlif ölkələrin nümayəndələri Azərbaycanın təşkilatçılığını yüksək qiymətləndirib.

# İqtisadi problemlər Aİ-ni boğur

## Avropada əhali qocalır, rəqabət qabiliyyəti aşağı düşür

Avropa əhalisinin sürətlə qocalması Avropa Komissiyasının qarşısında duran növbəti ən böyük problemlərdən biri olacaq. Ekspertlər xəbərdarlıq edirlər ki, yaşlı əhalinin artan nisbəti Avropa İttifaqının (Aİ) rəqabət qabiliyyətini təhdid edəcək, işçi qüvvəsi çatışmazlığını daha da pisləşdirəcək, dövlət xərclərini artıracaq və regional bərabərsizliyi dərinləşdirəcək.



Bundan əlavə, Aİ əhalisinin bir neçə il ərzində azalmağa başlayacağı proqnozlaşdırılır.

Ekspertlər qeyd edirlər ki, Avropa qocalır və bu, iqtisadi rifaha təsir edə bilər. Avropa Komissiyası 65 və yuxarı yaşda olan əhalinin nisbətinin hazırda 21 faizdən 2070-ci ildə 30 faizə qədər artacağını proqnozlaşdırır. Eyni müddət ərzində Aİ-də yaşı 80 və yuxarı olan sakinlərin nisbəti 6 faizdən 13 faizə yüksələcək.

Digər tərəfdən, "Stanley Morgan" bankının analitiklərinin hesablamalarına görə, 2040-cı ilə qədər Avropa İttifaqının əmək qabiliyyətli sakinlərinin (15-64 yaş) sayı 6,5 faiz azalacaq ki, bu da avrozonanın ümumi daxili məhsulunu 4 faiz azalda bilər.

Avropa Komissiyasının demoqrafiya məsələləri üzrə vitse-prezidenti Dubravka Suica bildirib ki, Aİ ölkələri əhalinin sürətli qocalması ilə üzləşib: "Niderlandda əsas problem mənzil çatışmazlığı və əhalinin sıxlığıdır, İspaniyanın bəzi bölgələrində isə əhalinin azalmasıdır. İtaliyada əsas problem doğum səviyyəsinin azalması və əhalinin qocalmasıdır. Yunanıstan əhalinin ən sürətlə qocaldığı Aİ ölkəsidir, Xorvatiya isə gənclərin mühacirəti ilə mübarizə aparır".

Aİ-də əhalinin artması ilə bağlı ciddi problemlər var. 2022-ci ildə Avropa İttifaqının 27 ölkəsində 3,8 milyon uşaq doğulub. Yeni doğulanların sayı onilliklər ərzində ilk dəfə olaraq 4 milyondan aşağı düşüb.

Bu ilin əvvəlinə Aİ-də 451 milyon insan yaşayırdı. "Eurostat" hesab edir ki, əhali 2026-cı ildən azalmağa başlayacaq. 2100-cü ildə Aİ-nin əhalisinin 420 milyondan az olacağı proqnozlaşdırılır. İndi bu rəqəm 451 milyon təşkil edir. Bundan əlavə, 80 yaşdan yuxarı insanlar 20 yaşdan kiçik insanlardan daha çox olacaq.

Demoqraf Aviva Vittenberq-Koks hesab edir ki, Qərb ölkələrində müşahidə olunan aşağı doğum nisbətləri və sürətli qocalma qismən qadınların əmək bazarına daxil olması ilə bağlıdır. Ekspert "Əl-Cəzirə" telekanalına müsahibəsində deyib: "Biz ailədə məhsuldarlıq səviyyəsini aşağı saxlayan yeni gender rollarını tam qəbul etməmişik və onlara uyğunlaşmamışıq, çünki bu gün cütlüklərin uşaq sahibi olmaq imkanı olduqca çətindir. Sistemlərimizi, iqtisadi sistemlərimizi, xüsusən də məşğulluq siyasətlərimizi daha çox ailə və valideynlər üçün uyğunlaşdırsaq, düşünürəm ki, bu, şübhəsiz ki, kömək edəcəkdir. Amma bu, kifayət etməyəcək".

Demoqrafik dəyişikliklər əmək bazarına mənfi təsir göstərərək, iqtisadi artıma, məhsuldarlığa və innovasiyaya mane ola biləcək geniş işçi çatışmazlığı yaradacaq və beləliklə, Aİ-nin digər əsas iqtisadiyyatlarla müqayisədə rəqabət qabiliyyətinin aşağı düşməsini sürətləndirəcək.

Ən pis ssenarinin qarşısını almaq üçün Avropa Komissiyası üzv dövlətlərə gender maaş fərqinin azaldılması, iş-həyat balansının yaxşılaşdırılması, vergi güzəştləri təklifi, uşağa baxım xərclərinin azaldılması və gənclərin keyfiyyətli işlərə və mənzillərə çıxışının asanlaşdırılması kimi qəti tədbirlər görməyi tövsiyə edir.

Avropa Komissiyası həmçinin yaşlı insanların bacarıqlarını artırmaq və çevik iş saatları təklif etməklə onların əmək bazarında saxlanmasına kömək etməyi zəruri bilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Şəhid İlkin Qarayevin xatirəsi yad edilmişdir

Antiterror əməliyyatlarında şəhid olmuş İlkin Yusif oğlu Qarayevin xatirəsi doğulub boya-başa çatdığı Samux rayonunun Seyidlər kəndində böyük ehtiramla yad edilmişdir.




İ.Qarayevin valideynlərinin, dostlarının, rayon ictimaiyyəti nümayəndələrinin, icra hakimiyyəti əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə şəhidin məzarı ziyarət edildikdən sonra onun təhsil aldığı məktəbin şagirdləri vətənpərvərliyə və qəhrəmanlığa həsr olunmuş şeirlər səsləndirmişlər.

Sonra Seyidlər kənd tam orta məktəbinin qarşısında şəhidin xatirəsinə inşa edilmiş bulağın açılışı olmuşdur. Rayon icra hakimiyyətinin şöbə müdiri Qurban Həsənov çıxışında şəhid ailələrinə göstərilən diqqət və qayğıdan danışmışdır. Söz şəhidin doğmalarına verilmişdir. Qeyd etmişlər ki, İlkin 2004-cü il noyabrın 25-də anadan olmuşdur. Digər Azərbaycan oğulları kimi, İlkin də torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmanlıq nümayiş etdirmiş, şəhidlik zirvəsinə ucalmışdır. O, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN

İlham Əliyev Donald Trampı təbrik etdi

Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir"

COP29-da iştirak etmək üçün Bakıya səfəriniz Azərbaycan ilə Surinam arasında əlaqələrin tarixində xüsusi yer tutur

İlham Əliyevin COP modeli

29-cu konfrans Azərbaycanın növbəti zəfəri oldu və antiazərbaycançı şəbəkəni iflasa uğratdı

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# Moskvada "Qədim Azərbaycan adət-ənənələrinin dirçəlməsi - Kəlağayı yaylığı" adlı tədbir keçirilib

Moskva Millətlər Evində kəlağayı ənənəvi sənəti və simvolikasının UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Reprezentativ Siyahısına daxil edilməsinin 10 illiyinə həsr olunmuş "Qədim Azərbaycan adət-ənənələrinin dirçəlişi - Kəlağayı yaylığı" adlı təntənəli ədəbi-musiqili tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, qonaqları Moskva Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyətinin (MMM) sədri Bəxtiyar Həsənov, sədr müavini Həşim Əliyev salamlayıblar. Qeyd edilib ki, 2014-cü ildə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə kəlağayı beynəlxalq aləmdə rəğbət qazanmışdır.

Qonaqlara videobağlantı vasitəsilə Bakı Dövlət Universitetinin professoru və kafedra müdiri, kəlağayı sənətinin bütün dünyada tanınmış mütəxəssisi və təbliğatçısı, həmçinin "Kəlağayı" kitabının müəllifi Rəna İbrahimbəyova qoşulub. Qonaqlar maraqlı faktlarla zəngin videomühazirə ilə tanış olublar.

Tədbirin təşəbbüskarı kimi Moskva Azərbaycanlılarının MMM Qadınlar Birliyinin rəhbəri Leyla Fərəcova çıxış edib və bu unikal yaylıq haqqında hekayəni tamamlayan, dizayn işlərini və məhsulun geyilmə yollarını göstərən, Şəkidən qonaq rəssam və dizayner Cəmilə Hacısəmədzadəni səhnəyə dəvət edib.

Sazın müşayiəti ilə Azərbaycan xalq mahnılarının ifaçısı Təranə Gədəbəyli, Leyla Yusifova, Gülnur Alışeva, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun dosenti, türkmən dili müəllimi Maya Klıçyova, şair-tərcüməçi Afaq Şıxlı öz məharətlərini nümayiş etdiriblər.

Bəxtiyar Həsənov "Qadın ipək baş geyiminin istehsalı və daşınmasının ənənəvi mədəniyyəti və onun simvolikası" müsabiqəsinin qalibləri olan Qadınlar Birliyinin üzvlərinə diplomları təqdim edib.

Tədbirdə həmçinin Azərbaycanın kəlağayı, suvenirlər və dekorativ sənət nümunələrindən ibarət sərgi də təşkil olunub. Ənənəvi Azərbaycan yaylıqlarının nümayiş etdirildiyi moda nümayişi keçirilib.

# Narkotik tərkibli bitkilərin bitdiyi ərazilərin yer quruluşu planının xəritəsi hazırlanıb

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının müvafiq yarımbəndlərinin icrası məqsədilə narkotik tərkibli bitkilərin yabanı halda inkişafını, yetişməsini və vegetasiyasını əks etdirən yeni formada xəritə, tablo və fotoalbomlar hazırlanıb.



Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasından məlumat verilib.

Bildirilib ki, tərtib olunmuş xəritə, tablo və fotoalbomlar məlumat üçün aidiyyəti dövlət qurumlarına göndərilib.

# "SAT-SAS-2024" təlimi davam edir

Türkiyə Respublikasının Marmaris şəhərinin Aksaz dəniz bazasında Azərbaycan və Türkiyə respublikalarının Hərbi Dəniz Qüvvələrinin (HDQ) sualtı hücum və sualtı müdafiə bölmələri ilə keçirilən "SAT-SAS-2024" birgə təlimi davam edir.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, plana əsasən, təlimin növbəti günündə dəniz xüsusi təyinatlı bölmələri quru ərazidə şərti düşmən arxasına helikopterdən enmə zamanı dairəvi mühafizə və müdafiənin təşkili üzrə tapşırıqları praktiki yerinə yetiriblər.

"Təlim zamanı hərbi qulluqçularımız qarşıya qoyulan tapşırıqların icrasında yüksək peşəkarlıq nümayiş etdiriblər", - deyə məlumatda bildirilib.

# Ölkə ərazisində yağıntılı hava şəraiti davam edəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, noyabrın 27-də Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir leysan xarakterli yağış yağacağı gözlənilir.



Yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Səhər tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-9°, gündüz 9-12° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 9-14° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° isti, dağlıq ərazilərdə 4° şaxta, gündüz 4-9° isti, dağlıq ərazilərdə 2° şaxta olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, sürəti saniyədə 5-10 metr olacaq, bəzi yerlərdə arabir 20-25 metrədək güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 8-11° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın arabir yağıntılı olacağı, bəzi yerlərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6°, gündüz 6-10° isti, dağlarda gecə 2-4° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-8°, gündüz 9-14° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-9°, gündüz 9-13° isti, dağlarda gecə 3-5°, gündüz 5-8° isti olacağı proqnozlaşdırılır.

# Xarici jurnalistlər Qala qoruğunda olublar



Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycana səfər edən beynəlxalq media nümayəndələrinin "Qala" Dövlət Tarix-Etnoqrafik Qoruğuna ziyarətləri təşkil olunub.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğundan AZƏRTAC-a bildirilib ki, mediaturlar Qala qoruğunun ərazisində yaradılmış "Tullantıdan sənətə" muzeyini ziyarətlə başlayıb. "Sıfır tullantı" yanaşması ilə tullantılardan sənət nümunələrinin yaradılması qonaqlarda böyük maraq doğurub.

Sonra media nümayəndələri açıq səma altında yerləşən "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksini ziyarət edərək, XVIII əsrə aid Abşeronun kənd həyatı ilə tanış olub, xalçaçılıq, dulusçuluq, dəmirçilik kimi qədim sənətkarlıq növlərini izləyib, ustad dərslərində iştirak ediblər. Mediaturun iştirakçılarına qədim Abşeron kəndlərində sakinlərin həyat tərzi, eyni zamanda Qala qoruğu ərazisində yerləşən memarlıq və arxeoloji abidələr barədə ətraflı məlumat verilib.

Həmçinin xarici media mənsublarına Qala qoruğunda yenidən dirçəldilən, təkrar istifadə ilə ərsəyə gələn qurama ekodost sənəti haqda danışılıb. Qonaqlar COP29 tədbiri çərçivəsində təşkil edilmiş "Qurama Art. Zamanın vəhdəti" sərgisi ilə də tanış olublar.

Qeyd edək ki, Qala qoruğuna mediaturlar "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin dəstəyi, Medianın İnkişafı Agentliyi və COP29 Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi Aparatın əməkdaşı Nailə Fazilovaya anası

**MAHİRƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Manaf Bayramova qardaşı

**FİRUDİN BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektorluğu, professor-müəllim heyəti və ictimai təşkilatları universitetin məsləhətçi professoru, Əməkdar müəllim

**HƏSƏN FEYZİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4218
Sifariş 2735

Qiyməti 60 qəpik